Xalqın qəzeti!

# Xalq qəzeti

№ 31 (30435) 12 fevral 2024-cü il, bazar ertəsi

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

**Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələri haqqında Mərkəzi Seçki Komissiyasının Protokoluna əsasən, İlham Heydər oğlu Əliyev 92,12 faiz səs toplamışdır.**

# Qalib liderin Lider alternativsizliyi

## Mərkəzi Seçki Komissiyası növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə yekun vurub

**Məzahir Pənahovun sədrliyi ilə fevralın 11-də Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.**



İclasda 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə yekun vurulması və MSK-nın seçkilərin nəticələrinə dair protokolunun müvafiq sənədlərlə birlikdə Konstitusiya Məhkəməsinə təqdim edilməsi məsələsinə baxılıb.

Namizədi qeydə alınmış siyasi partiyanın səlahiyyətli nümayəndəsi, beynəlxalq müşahidə missiyasının təmsilçisi, məşvərətçi səs hüquqlu komissiya üzvü, xüsusi icazə almış müşahidəçi və media mənsublarının iştirak etdikləri iclasda əvvəlcə seçkilərin hazırlanıb keçirilməsi istiqamətində atılan addımlar və reallaşdırılan layihələr barədə ətraflı məlumat verilib.

Diqqətə çatdırılıb ki, ilk dəfə ölkəmizin suverenliyi və ərazi bütövlüyü tam bərpa olunmuş bir şəraitdə, işğaldan azad edilmiş regionlarımız da daxil olmaqla, respublikanın hər bir bölgəsində prezident seçkiləri yüksək səviyyədə təşkil olunub azad, ədalətli və şəffaf keçirilməklə ölkəmizin ictimai-siyasi həyatında müstəsna əhəmiyyətli tarixi hadisəyə çevrilib. Prezident seçkiləri ilə əlaqədar bütün fəaliyyət Seçki Məcəlləsinin tələbləri əsas götürülməklə MSK tərəfindən hazırlanıb təsdiq edilmiş Təqvim Planına uyğun ardıcıl, sistemli və mütəşəkkil qaydada gerçəkləşdirilib, istər Komissiya, istərsə də aidiyyəti qurumlar tərəfindən seçki qanunvericiliyində nəzərdə tutulmuş vəzifə və səlahiyyətlərin dəqiqliklə yerinə yetirilməsinə xüsusi diqqətlə yanaşılıb. Seçki prosesinin mühüm mərhələləri olan seçicilər siyahısının dəqiqləşdirilməsi, seçicilər də daxil olmaqla bütün seçki subyektlərinin maarifləndirilməsi, prezidentliyə namizədlərin irəli sürülməsi və qeydə alınması, bərabər şərtlərə əsaslanan seçkiqabağı təşviqat imkanlarının yaradılması, müşahidəçilər və media nümayəndələrinin fəaliyyəti üçün sərbəst və maneəsiz şəraitin təmin edilməsi, seçki günü səsvermənin təşkili ilə əlaqədar prosedurlara düzgün əməl olunması və digər tədbirlər qanunvericiliklə müəyyənləşdirilmiş qaydada, vaxtında və keyfiyyətlə həyata keçirilib.

Bildirilib ki, MSK seçkilərə start verildikdən sonra seçicilərin məlumatlandırılması, seçki iştirakçılarının maarifləndirilməsi, dairə və məntəqə seçki komissiyaları üzvlərinin bilik, bacarıq və peşəkarlıq səviyyəsinin daha da yüksəldilməsi məqsədilə fərqli istiqamətlər üzrə çoxsaylı layihələri əhatə edən genişmiqyaslı kampaniya reallaşdırıb və maarifləndirmə proqramı əlaqədar qurumlarla sıx əməkdaşlıq şəraitində həyata keçirilib.

Qeyd olunub ki, prezident seçkilərində 17 iddiaçı namizəd qismində iştirak etmək üçün müvafiq sənədləri Mərkəzi Seçki Komissiyasına təqdim edib və namizədliklərinin irəli sürülməsi təsdiq olunaraq onlara imza vərəqələri verilib. Namizədliyinin irəli sürülməsi təsdiq edilən 17 iddiaçıdan 10-u imza vərəqələrini ümumiyyətlə geri qaytarmayıb. İmza vərəqələrini və ona əlavə olunmuş sənədləri geri qaytaran 7 iddiaçının hamısının namizədliyi qeydə alınıb ki, onlardan 5-nin namizədliyi siyasi partiyalar tərəfindən irəli sürülüb, 2-si isə öz təşəbbüsü ilə seçkilərə qatılıb. Namizədlərin sənədlərinin yoxlanılması prosesi bütün maraqlı şəxslər üçün şəffaf şəkildə aparılaraq ictimaiyyətə tam açıq həyata keçirilib. Prezidentliyə namizədlərin və siyasi partiyaların səlahiyyətli nümayəndələri, beynəlxalq müşahidə missiyalarının təmsilçiləri və media nümayəndələri istənilən vaxt prosesləri birbaşa izləmək, sənədlərlə yaxından tanışlıq imkanına malik olublar.

Habelə bildirilib ki, qeydə alınmış namizədlərə öz seçkiqabağı platformalarını sərbəst şəkildə seçicilərə çatdırmaq üçün bərabər şərait, hərtərəfli və geniş imkanlar yaradılıb. Mərkəzi Seçki Komissiyasının qərarı ilə İctimai Televiziya və Radio Yayımları Şirkətində qanunvericilikdə nəzərdə tutulandan 2 dəfə artıq – həftəlik 6 saat (3 saat televiziyada, 3 saat radioda) pulsuz efir vaxtı, "Azərbaycan" qəzeti, "Xalq qəzeti", "Respublika" qəzeti və "Bakinski raboçi" qəzetlərində dərc üçün ödənişsiz yer ayrılıb. Ödənişli təşviqat üçün 44 media qurumundan təklif edilən qiymətlər MSK-ya təqdim olunub, bu məlumatlar namizədlərin tanış olmaları üçün Komissiyanın internet səhifəsində yerləşdirilib və bütün namizədlər üçün şərtlərin bərabərliyi prinsipi daim diqqətdə saxlanılıb. Seçki Məcəlləsinin tələblərinə əsasən qeydə alınmış namizədlərin və namizədi qeydə alınmış siyasi partiyaların seçicilərlə görüşlərinin keçirilməsi üçün ilkin mərhələdə respublikanın şəhər və rayonlarında 125 seçki dairəsi üzrə 139-u açıq, 142-si qapalı olmaqla, ümumilikdə 281 ödənişsiz yer ayrılıb. Ardınca isə daha geniş imkanlar təmin olunması məqsədilə demək olar ki, respublikanın əksər yaşayış məntəqələrini əhatə edən 4500-ə yaxın əlavə görüş yerləri də təşviqat subyektlərinin sərəncamına verilib. Namizədlər və namizədi qeydə alınmış siyasi partiyalar ödənişsiz və heç bir icazə tələb olunmadan, sadəcə, müvafiq dairə seçki komissiyasını əvvəlcədən məlumatlandırmaqla həmin yerlərdə öz seçiciləri ilə görüşlər keçiriblər. Namizədlərin təşviqatı üçün bütün seçki məntəqələrini əhatə edən 10 mindən çox böyükölçülü lövhələr də quraşdırılıb. Seçkiqabağı təşviqat subyektləri MSK tərəfindən yaradılan bütün bu imkanlar və bərabər şəraitdən azad, sərbəst şəkildə, səmərəli istifadə ediblər. Yanvarın 15-dən start götürən seçkiqabağı təşviqat kampaniyası səsvermənin başlanmasına 24 saat qalanadək davam edib və ümumilikdə müasir tələblərə cavab verən şəraitdə keçirilib.

(ardı 3-cü səhifədə)

# Demokratizmə "Pallone ləkəsi"

**ABŞ konqresmeni Frank Pallone yenə, necə deyərlər, qatıqlayıb. Bu şəxsin ermənipərəstliyi, Birləşmiş Ştatlardakı erməni lobbi və diaspor təşkilatları ilə sıx əlaqəda olduğu, həmin qurumların maraq və mənafelərindən çıxış etdiyi sirr deyil. Qulluq etdiyi dairələrin istəklərini yerinə yetirmək üçün hər cür oyunbazlığa baş vurduğu da, həmçinin. Ancaq hesab edirik ki, Pallone bu dəfə barıtı bir qədər çox edib. Bu yerdə sirkənin nə qədər çox tünd olsa, öz qabını çatlatması reallığını da nəzərə alaq.**



F.Pallonenin bir neçə gün əvvəlki açıqlaması onun xarakterində və mahiyyətindəki aşkar çatların nümayişindən başqa bir şey deyil. Görünür, erməni ağalarından aldıqları ənam və bəxşişlərin sayı artıb və konqresmen beyin "qıcqırması" keçirib. Cənab Pallonenin nələrdən söz açdığını diqqətə çatdıracağıq. Ancaq hələlik bir məqamın üzərində dayanaq.

Məlum olduğu kimi, Azərbaycan Silahlı Qüvvələri ötən il sentyabrın 19-20-də Qarabağda lokal xarakterli antiterror tədbirləri reallaşdırdılar. Bu tədbirlərin nəticəsi olaraq bölgədəki separatçı rejim tarixin arxivinə gömüldü. Ermənistan hakimiyyətinin bilavasitə təşəbbüsü ilə Qarabağ erməniləri öz evlərini tərk edib Ermənistana yollandılar. Heç şübhəsiz, rəsmi İrəvanın bu addımı Qarabağ avantürasını nisgilə daşımaq niyyətinə əsaslanmışdı. Yəni ki, bölgə Azərbaycanın hüquqi və faktiki idarəçiliyi altına düşürsə, ərazinin ermənisizləşdirilməsi xətti götürüldü və həmin xətt bu gün Ermənistan hakimiyyətinin və onun xaricdəki havadarlarının anti-Azərbaycan ritorikasının vacib halqasını təşkil etməkdədir. Guya ki, Qarabağ ermənilərini didərgin salan Azərbaycan olub. ABŞ konqresmeni F.Pallonenin də dediyi elə budur. Bəs, barıtı çox eləmək məntiqi özünü nədə göstərir?

(ardı 4-cü səhifədə)

# Baydenin namizədliyi sual altındadır

## Trampın isə məhkəmə araşdırmaları bitmir

**ABŞ-da noyabr ayında keçiriləcək prezident seçkilərinin ilk mərhələsi sürprizlər ilə diqqət çəkir. Son günlərə qədər, demək olardı ki, istər Respublikaçılar, istərsə də Demokratlar partiyalarının əsas namizədləri bəllidir. Çünki bir çox ştatda keçirilən praymerizlərdə əsas namizədlər Co Bayden və Donald Tramp qalib gələrək sonrakı mübahisələr üçün yer qoymadılar. Buna baxmayaraq, alternativ namizədlərin – demokratlardan Din Fillisin və respublikaçılardan Nikki Heylin perpektivləri də yaxşı bir şey vəd etmir.**



Seçki marafonunun əsas ciddi siyasi fiqurlarından biri, təbii ki, hazırkı 81 yaşlı Prezident Co Bayden sayılır. Namizəd-prezidentin yaşını təsadüfən xatırlatmadım. Çünki demokratların 2024-cü il prezident seçkilərində bəlkə də ən zəif nöqtəsi onların namizədinin məhz yaşı və bu yaşla əlaqədar əqli-sağlamlıq durumudur. Bu haqda bir qədər sonra.

(ardı 11-ci səhifədə)

# "Ermənilər Qarabağdan könüllü gediblər"



Səhifə ⇨ 4

# Orta Dəhliz Gündoğandan Günbatana bir dünya yoludur




Səhifə ⇨ 7

# İran İslam Respublikasının Prezidenti Zati-aliləri cənab Seyid İbrahim Rəisiyə

**Hörmətli cənab Prezident,**

İran İslam Respublikasının milli bayramı – İslam İnqilabının Qələbəsi Günü münasibətilə Sizə və bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından təbriklərimi çatdırıram.

Tarixən xalqlarımızı birləşdirən dostluq münasibətləri və ortaq mənəvi dəyərlər Azərbaycan-İran dövlətlərarası əlaqələrinin və əməkdaşlığının inkişafı üçün yaxşı zəmindir. Bu gün iqtisadi-ticari, nəqliyyat və digər sahələrdə ölkələrimizin qarşılıqlı fəaliyyəti məmnunluq doğurur.

İnanıram ki, Azərbaycan ilə İran arasında münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı çatdırır, xalqınıza əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 8 fevral 2024-cü il**

# Liderlər Prezident İlham Əliyevi təbrik edirlər

**İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi növbədənkənar prezident seçkilərində qazandığı parlaq qələbə münasibətilə təbrik edib.**

Bu barədə Səudiyyə Ərəbistanının SPA xəbər agentliyi məlumat yayıb.

Məlumatda bildirilib ki, Kral Salman bin Əbdüləziz Al Səud Prezident İlham Əliyevə səmimi təbriklərini ifadə edərək uğurlar, Azərbaycan xalqına isə davamlı inkişaf və rifah arzulayıb.

*

**Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi, Baş nazir Məhəmməd bin Salman bin Əbdüləziz Al Səud Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi seçkilərdə qazandığı inamlı qələbə münasibətilə təbrik edib.**

Bu barədə Səudiyyə Ərəbistanının SPA agentliyi məlumat yayıb.

Məlumatda bildirilib ki, Məhəmməd bin Salman bin Əbdüləziz Al Səud dövlətimizin başçısına səmimi təbriklərini çatdırıb, ona uğurlar, Azərbaycan xalqına isə davamlı inkişaf və rifah arzulayıb.

*

**Küveyt Dövlətinin Əmiri Əlahəzrət Şeyx Məşəl əl-Əhməd əl-Cabir əs-Sabah Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi növbədənkənar prezident seçkilərində qazandığı qələbə münasibətilə təbrik edib.**

Bu barədə Küveyt Xəbər Agentliyi (KUNA) məlumat yayıb.

Məlumatda bildirilib ki, Küveyt Əmiri Prezident İlham Əliyevə cansağlığı, Azərbaycana və onun dost xalqına sürətli inkişaf və çiçəklənmə arzulayıb.

KUNA-nın digər bir xəbərinə görə, Küveyt Dövlətinin Baş naziri Əlahəzrət Şeyx Məhəmməd Sabah əl-Salim əl-Sabah da dövlətimizin başçısını seçkilərdə qələbəsi münasibətilə təbrik edib.

# Azərbaycan XİN İranı təbrik etdi

**Azərbaycan Xarici İşlər Nazirliyi milli bayram – İslam İnqilabının Qələbəsi Günü münasibətilə İranı təbrik edib. Bu barədə nazirliyin "X" hesabında paylaşım edilib.**



"İran İslam Respublikasını milli günü münasibətilə təbrik edirik.

İnanırıq ki, Azərbaycan və İran arasında qarşılıqlı hörmətə, anlaşmaya və beynəlxalq hüquqa əsaslanan mehriban qonşuluq münasibətləri regional inkişafa və çiçəklənməyə töhfə verəcək", – təbrikdə bildirilib.

**XQ**

# NÖVBƏDƏNKƏNAR AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ SEÇKİLƏRİ

7 fevral 2024-cü il

## SƏSVERMƏNİN NƏTİCƏLƏRİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ SEÇKİ KOMİSSİYASININ

## P R O T O K O L U

**Bakı şəhəri**

***Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası səsvermənin nəticələri haqqında dairə seçki komissiyalarının protokollarındakı bütün məlumatları ümumiləşdirərək respublika üzrə səsvermənin nəticələrini müəyyən etmişdir:***

| | | |
|---|---|---|
| Seçki dairələrinin sayı | *Bir yüz iyirmi beş* | 125 |
| Dairə seçki komissiyaları tərəfindən təqdim edilmiş protokolların sayı | *Bir yüz iyirmi beş* | 125 |
| Seçki məntəqələrinin ümumi sayı | *Altı min beş yüz otuz yeddi* | 6 537 |
| Səsvermənin nəticələri etibarsız hesab edilmiş seçki məntəqələrinin sayı | *On bir* | 11 |
| Səsvermənin baş tutmadığı seçki məntəqələrinin sayı | *Sıfır* | 0 |
| 1. Seçicilərin ümumi sayı | *Altı milyon beş yüz on dörd min iki yüz iyirmi iki* | 6 514 222 |
| a) seçici siyahılarında olan seçicilərin sayı * | *Altı milyon dörd yüz on doqquz min üç yüz səksən altı* | 6 419 386 |
| b) əlavə seçici siyahısında olan seçicilərin sayı | *Otuz beş min altı yüz yetmiş altı* | 35 676 |
| c) qeydiyyatdan çıxma vəsiqəsi almış seçicilərin sayı | *Əlli doqquz min yüz altmış* | 59 160 |
| 2. Mərkəzi Seçki Komissiyası tərəfindən dairə seçki komissiyalarına verilmiş seçki bülletenlərinin sayı | *Altı milyon beş yüz iyirmi dörd min iki yüz üç* | 6 524 203 |
| 3. Seçki bülleteni almış seçicilərin sayı ** | *Dörd milyon doqquz yüz yetmiş səkkiz min doqquz yüz əlli* | 4 978 950 |
| 4. İstifadə edilmədən ləğv olunmuş seçki bülletenlərinin sayı | *Bir milyon beş yüz qırx iki min yeddi yüz səkkiz* | 1 542 708 |
| a) məntəqə seçki komissiyaları tərəfindən | *Bir milyon dörd yüz yetmiş min iki yüz otuz doqquz* | 1 470 239 |
| b) dairə seçki komissiyaları tərəfindən | *Yetmiş iki min dörd yüz altmış doqquz* | 72 469 |
| 5. Korlanmış seçki bülletenlərinin sayı | *İki min beş yüz qırx beş* | 2 545 |
| 6. Seçki qutularında olan seçki bülletenlərinin sayı | *Dörd milyon doqquz yüz altmış yeddi min yeddi yüz doxsan beş* | 4 967 795 |
| 7. Etibarsız hesab edilmiş səslərin sayı | *Doqquz min səkkiz yüz iyirmi səkkiz* | 9 828 |
| 8. Etibarlı hesab edilmiş səslərin sayı | *Dörd milyon doqquz yüz əlli yeddi min doqquz yüz altmış yeddi* | 4 957 967 |

-----------

* Qeydiyyatdan çıxma vəsiqəsi alanlar istisna olmaqla

** Seçicilərin fəallığı: 76.43% [seçicilərin ümumi sayına nisbətən faizlə]

9. Etibarlı hesab edilmiş səslərin prezidentliyə namizədlər arasında bölünməsi:

| Seçki bülletenina daxil edilmiş prezidentliyə namizədlərin soyadı, adı, atasının adı (əlifba sırası ilə) | Hər bir namizədin lehinə verilmiş səslərin sayı | | |
|---|---|---|---|
| | sözlə | rəqəmlə | faizlə |
| ***ƏLİYEV Fuad Ağasi oğlu*** | *İyirmi altı min beş yüz on yeddi* | 26 517 | 0.54 |
| ***ƏLİYEV İlham Heydər oğlu*** | *Dörd milyon beş yüz altmış yeddi min dörd yüz əlli səkkiz* | 4 567 458 | 92.12 |
| ***HƏSƏNQULİYEV Qüdrət Müzəffər oğlu*** | *Səksən beş min dörd yüz on bir* | 85 411 | 1.72 |
| ***MUSAYEV Elşad Nəbi oğlu*** | *Otuz iki min səkkiz yüz səksən beş* | 32 885 | 0.66 |
| ***MUSTAFA Fazil Qəzənfər oğlu*** | *Doxsan səkkiz min dörd yüz iyirmi bir* | 98 421 | 1.99 |
| ***NURULLAYEV Razi Qulaməli oğlu*** | *Otuz doqquz min altı yüz qırx üç* | 39 643 | 0.80 |
| ***ORUC Zahid Məhərrəm oğlu*** | *Bir yüz yeddi min altı yüz otuz iki* | 107 632 | 2.17 |
| *Cəmi:* | *Dörd milyon doqquz yüz əlli yeddi min doqquz yüz altmış yeddi* | 4 957 967 | 100.00 |

Mərkəzi Seçki Komissiyasının sədri — *PƏNAHOV Məzahir Məhəmməd oğlu* ____________

Komissiya sədrinin müavini — *QASIMOV Rövzət Afət oğlu* ____________

Komissiyanın katibi — *MUXTAROVA Arifə Ağaverdi qızı* ____________

Komissiyanın katibi — *RƏHİMOV Mikayıl Rəhman oğlu* ____________

Komissiyanın üzvləri:

*CAVADOV Fuad Musa oğlu* ____________

*ƏLİYEV Şaitdin Sərdar oğlu* ____________

*ƏSGƏROV Bəxşeyiş Məmməd oğlu* ____________

*ƏSGƏROVA Nailə Şahmərdan qızı* ____________

*HƏSƏNOV Tofiq Eldar oğlu* ____________

*İBRAHİMOV Ramiz Hilal oğlu* ____________

*KAZIMOVA Validə Faiq qızı* ____________

*MƏMMƏDOV İlham Sabir oğlu* ____________

M.Y. *NADİRXANLI Nizami Hüseyn oğlu* ____________

____________

*ORUCOV Qabil Əhməd oğlu* ____________

*PAŞAYEV Hüseyn Məmməd oğlu* ____________

*QƏHRAMANLI Almas Əlisultan qızı* ____________

*QULİYEV Etibar Cəfər oğlu* ____________

*ŞAHBAZOV İlkin Zaur oğlu* ____________

Protokol 2024-cü il fevralın 11-də saat 17:15-də tərtib edilmişdir.

Komissiyanın həlledici səs hüquqlu üzvünün xüsusi rəyi haqqında qeyd:

------------------------------------------------------------

------------------------------------------------------------

------------------------------------------------------------

------------------------------------------------------------

------------------------------------------------------------

------------------------------------------------------------

------------------------------------------------------------

____________________ ____________

*(soyadı, adı, atasının adı)* *(imza)*

Q e y d:

Protokol Mərkəzi Seçki Komissiyasının həlledici səs hüquqlu üzvləri tərəfindən tərtib edilir və imzalanır. Mərkəzi Seçki Komissiyasının protokolla bütövlükdə və ya onun ayrı-ayrı hissələri ilə razılaşmayan üzvü protokola xüsusi rəyini əlavə edə bilər və bu barədə protokolda müvafiq qeyd aparılır.

# Bakıda COP29 çərçivəsində dini liderlər sammiti keçiriləcək

**Bu il Azərbaycanda keçiriləcək COP29 konfransında BMT dinlərarası pavilyonun və dini liderlər sammitinin keçirilməsi Müsəlman Ağsaqqalları Şurasına (MAŞ) həvalə edilib.**

Bununla bağlı Şuranın Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Abu Dabi şəhərində keçirilən növbəti iclasında bildirilib.

Tədbirdə Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Müsəlman Ağsaqqalları Şurasının üzvü, Şeyxülislam Allahşükür Paşazadə iştirak edib.

Vurğulanıb ki, bu il Azərbaycanda keçiriləcək növbəti COP29 konfransında da BMT dinlərarası pavilyonun və dini liderlər sammitinin keçirilməsini Müsəlman Ağsaqqalları Şurasına həvalə edib. Bu məsələdə Şeyxülislam Allahşükür Paşazadəyə düşən mühüm rolu xüsusi vurğulayan Şuranın sədri və baş katibi QMİ sədrindən məsələ ilə bağlı Azərbaycan rəhbərliyinə müraciət etməsini, baş katib Məhəmməd Əbdüssəlamın Azərbaycan rəsmiləri ilə görüşlər keçirmək üçün ölkəmizə səfərini təşkil etməklə bağlı xahiş ediblər.

Şeyxülislam Allahşükür Paşazadə sonuncu BMT iqlim dəyişikliyi konfransında Şuranın dəyərli təcrübə qazandığını, bu təcrübənin Bakıda keçiriləcək COP29 konfransına töhfə verəcəyinə ümid etdiyini, bunun üçün Azərbaycan dövlətinin müvafiq orqanları ilə görüşəcəyini bildirib.

**XQ**



# Mərkəzi Seçki Komissiyası növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə yekun vurub



(əvvəli 1-ci səhifədə)

O da vurğulanıb ki, prezident seçkiləri ilə əlaqədar seçki prosesinin demək olar bütün iştirakçıları ilə yanaşı, seçicilər üçün də geniş maarifləndirmə kampaniyası həyata keçirilib. Seçkilərin keçirilmə tarixi, səsvermə qaydaları, eləcə də istiqamətverici və çağırış xarakterli müxtəlif növdə yüz minlərlə plakat çap edilərək bütün yaşayış məntəqələrinin ərazisində asanlıqla görünə bilən yerlərdə asılıb. MSK tərəfindən səsvermədə iştiraka çağırış, seçki gününün diqqətə çatdırılması, seçici siyahılarında adın yoxlanılması, əlavə seçicilər siyahısı əsasında səsvermə, qeydiyyatdan çıxma vəsiqəsindən istifadə və səsvermə proseduru ilə bağlı hazırlanmış ümumilikdə 8 video və audio çarx televiziya və radio kanallarında, habelə sosial media platformalarında mütəmadi şəkildə nümayiş etdirilib.

İclas iştirakçılarının diqqətinə çatdırılıb ki, seçkilərdə bütün seçici qrupları ilə yanaşı, görmə, eşitmə və hərəkət qabiliyyəti məhdud olan seçicilərin də sərbəst səs vermələrinin təmin olunması üçün müxtəlif layihələr gerçəkləşdirilib. Gözdən əlil seçicilər onlar üçün hazırlanmış və seçki bülletenindəki məlumatların Brayl əlifbası ilə əks olunduğu trafaretdən istifadə etməklə seçki günü öz konstitusion hüquqlarını kimsənin yardımı olmadan reallaşdırıblar. Hərəkət qabiliyyətində məhdudiyyətlər olan seçicilərin sərbəst şəkildə seçki məntəqələrinə gələrək səs verə bilmələri üçün müvafiq binaların müəyyənləşdirilməsi və onlarda panduslar quraşdırılması yolu ilə ehtiyac duyulan 2042 seçki məntəqəsində xüsusilə bu kateqoriyadan olan seçicilər üçün əlverişli şərait yaradılıb. MSK-nın seçici maarifləndirmə proqramı çərçivəsində bütün videoçarxlar alt yazısı ilə hazırlanıb ki, bu da eşitmə qabiliyyəti məhdud olan seçicilərin maarifləndirilməsində əhəmiyyətli rol oynayıb.

İclasda seçkilərin geniş aşkarlıq mühitində keçdiyi də xüsusi qeyd olunub. Prezident seçkilərində şəffaflığın yüksək səviyyədə təmin olunması üçün digər vasitələrlə yanaşı, bütün respublika coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində internet vasitəsilə səsvermə prosesini əvvəldən-axıradək, fasiləsiz və birbaşa izləmək imkanı verən veb-kameralardan danışılıb. Bildirilib ki, bu seçkilərdə veb-kameralar yüksək texniki parametrlərə cavab verməklə, yenilənmiş müşahidə sistemi üzərindən daha yüksək və aydın vizual görüntü effektini təmin edib. Müşahidə sisteminin avadanlıq və proqram təminatı baxımından komponentləri və səsvermə günü seçki məntəqələrindəki prosesləri canlı izləmək üçün internet səhifəsi də tam şəkildə yenilənib. İnternet istifadəçiləri istər ölkə daxilindən, istərsə də xaricdən MSK-nın internet səhifəsinə daxil olaraq heç bir qeydiyyat tələb edilmədən seçki məntəqələrində səsvermə günü baş verən bütün prosesləri real zaman rejimində izləmək imkanına malik olublar.

Eləcə də məlumat verilib ki, prezident seçkilərinin müşahidəsinə 72 nüfuzlu beynəlxalq qurumu və 89 ölkəni təmsil edən 790 beynəlxalq müşahidəçi qatılıb. Eyni zamanda, dünyanın 110 aparıcı xarici media subyektindən 217 təmsilçi MSK tərəfindən müvafiq lövhəciklə təmin edilərək seçkiləri izləyib. Respublikada fəaliyyət göstərən yerli media nümayəndələri isə heç bir əlavə akkreditasiya tələb olunmadan, seçki marafonu başlayandan sonadək sərbəst və maneəsiz şəkildə seçkilərin izlənilməsində iştirak ediblər.

Seçkilərin müşahidəsinə, həmçinin çoxsaylı siyasi partiyaları, qeydə alınmış namizədləri, qeyri-hökumət təşkilatlarını, vətəndaş cəmiyyəti institutlarını və ictimai birlikləri təmsil edən, eyni zamanda, öz təşəbbüsləri ilə seçkilərə qatılmış 90 mindən artıq yerli müşahidəçi qatılıb. Qeyd etmək lazımdır ki, siyasi partiyalar bu seçkilərə xüsusilə ciddi maraq göstərib. Prezidentliyə namizədləri qeydə alınan 5 siyasi partiya da daxil olmaqla, 19 siyasi partiyanın və öz təşəbbüsü ilə seçkilərə qatılan namizədlərin ümumilikdə 51 mindən artıq müşahidəçisi seçkilərdə şəffaflığın təmin olunmasında yaxından iştirak ediblər. Prezident seçkilərinin müşahidəsində qeyri-hökumət təşkilatlarının yüksək fəallığı aşkar diqqət çəkib. Belə ki, seçkilərin müşahidəsinə bütövlükdə 83 qeyri-hökumət təşkilatı, vətəndaş cəmiyyəti institutu və ictimai birliklərin 7000-ə yaxın müşahidəçisi də fəal şəkildə qoşulub. Bütün bunlarla yanaşı, ixtisaslaşmış 3 təşkilat tərəfindən seçkilərdə "exit-poll" keçirilib ki, onlardan 1-i öz fəaliyyətini xarici tərəfdaşı ilə birgə təşkil edib. "Exit-poll"ların nəticələri MSK-nın rəsmi nəticələri ilə demək olar ki, üst-üstə düşüb.

Ümumiyyətlə, seçkilərə hazırlıq, səsvermə günü və ondan sonrakı dövrlərdə istər yerli və beynəlxalq müşahidəçilərə, istərsə də yerli və beynəlxalq media nümayəndələrinə öz fəaliyyətlərini sərbəst və maneəsiz həyata keçirmələri üçün bütün imkanlar yaradılıb. Aparılan müşahidələrə əsasən demək olar ki, on minlərlə müşahidəçinin qatıldığı seçkilər onlar tərəfindən azad, ədalətli və müasir tələblərə cavab verən proses kimi qiymətləndirilib.

Seçkilərdə vətəndaşların konstitusion hüquqlarının daha səmərəli təmin olunması üçün yaradılan imkanlar barədə də ətraflı məlumat verilib. Bildirilib ki, bütün seçki kampaniyası boyunca MSK-ya cəmi 1 şikayət daxil olub və həmin şikayətlə bağlı operativ



qaydada müvafiq tədbirlər görülüb. Seçki günü və ondan sonrakı günlər də daxil olmaqla, MSK-ya və aşağı seçki komissiyalarına hər hansı qanun pozuntusu barədə heç bir şikayət daxil olmayıb. Səsvermə günü seçicilər tərəfindən seçki məntəqələrinin ünvanları, seçici siyahıları və digər bu kimi məsələlərlə bağlı Komissiyanın 115 saylı və elektron qaynar xətlərinə daxil olmuş sorğu xarakterli müraciətlərə isə dərhal reaksiya verilərək, operativ şəkildə lazımi addımlar atılıb.

İclasda, habelə diqqətə çatdırılıb ki, prezident seçkiləri 125 seçki dairəsi üzrə 6319-u daimi, 218-i müvəqqəti olmaqla, ümumilikdə 6537 seçki məntəqəsində keçirilib. Bu məntəqələrdən 47-si işğaldan azad olunmuş ərazilərdə, 49-u Azərbaycanın 37 xarici ölkədəki səfirlik, konsulluq və diplomatik nümayəndəliklərində yerləşib. Səsvermə günü seçicilər yüksək fəallıqla, azad və sərbəst şəkildə seçki məntəqələrinə gələrək öz iradələrini ifadə ediblər. Ümumilikdə ölkə üzrə seçicilərin 76,43 faizi səsvermədə iştirak edib. Seçki günü ərzində 5 dəfə seçicilərin fəallığı barədə məlumatlar Dövlət Avtomatlaşdırılmış İnformasiya Sistemi üzərindən xüsusi proqram təminatı vasitəsilə birbaşa Mərkəzi Seçki Komissiyasına ötürülərək ictimailəşdirilib və Komissiyanın internet səhifəsində yerləşdirilib. Səsvermə günü seçki məntəqələri bağlandıqdan sonra fasiləsiz olaraq səslərin hesablanması həyata keçirilib, məntəqə seçki komissiyalarının ilkin protokol məlumatları operativ şəkildə MSK-nın internet səhifəsinə qoyulub və bir neçə saat ərzində seçki məntəqələrinin mütləq əksəriyyətindən daxil olmuş məlumatlar əsasında səsvermənin ilkin nəticələri ictimaiyyətin diqqətinə çatdırılıb.

Həmçinin qeyd olunub ki, səsvermənin nəticələrinə dair yekun protokollar və digər seçki sənədləri qanunla müəyyənləşdirilmiş müddətdə və qaydada məntəqə seçki komissiyalarından dairə seçki komissiyalarına, oradan isə MSK-ya təqdim edilib. Dairə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolları və onlara əlavə edilmiş sənədlər obyektiv və hərtərəfli yoxlanılıb. Eyni zamanda, seçki günü müxtəlif mənbələrdə, hətta onlayn platformalarda olan məlumatlar belə fərqli alternativ resurslardan, eləcə də seçki məntəqələrində quraşdırılmış veb-kamera görüntülərindən istifadə edilməklə mümkün qədər geniş və hərtərəfli araşdırılıb.

Komissiya aparılan araşdırmalar nəticəsində seçicilərin iradəsinin müəyyən edilməsinə imkan verməyən qanun pozuntuları aşkarlanan 41 saylı Gəncə-Samux-Goranboy seçki dairəsinin 38 saylı, 61 saylı Qusar seçki dairəsinin 7 və 27 saylı, 65 saylı Salyan-Biləsuvar-Neftçala seçki dairəsinin 9 saylı, 68 saylı Sabirabad-Şirvan seçki dairəsinin 2 saylı, 77 saylı Lənkəran şəhər seçki dairəsinin 7 və 31 saylı, 92 saylı Göyçay-Ağdaş seçki dairəsinin 6 saylı, 99 saylı Bərdə seçki dairəsinin 2 saylı, 114 saylı Şəki şəhər seçki dairəsinin 1 saylı və 115 saylı Şəki kənd seçki dairəsinin 6 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsinə və həmin seçki məntəqələrinin məntəqə seçki komissiyalarının buraxılmasına qərar verib.

İclasda prezident seçkilərinin nəticələri haqqında MSK-nın Protokolu tərtib edilib və bütün Komissiya üzvləri tərəfindən imzalanıb təsdiqlənməklə seçkilərə yekun vurulub. Seçki Məcəlləsinin tələbinə uyğun olaraq, MSK-nın Protokolunun müvafiq sənədlərlə birlikdə seçkilərin nəticələrinin təsdiqlənməsi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim edilməsi, həmçinin dərc olunması qərara alınıb.

**AZƏRTAC**

# 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə yekun vurulması və Mərkəzi Seçki Komissiyasının seçkilərin nəticələrinə dair protokolunun müvafiq sənədlərlə birlikdə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim edilməsi haqqında

## Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 2023-cü il tarixli 4193 nömrəli Sərəncamı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri elan edilib, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası (bundan sonra – Mərkəzi Seçki Komissiyası) Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 179.2-ci maddəsinə və həmin Sərəncama uyğun olaraq 2023-cü il 8 dekabr tarixli 7/15 saylı Qərarı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərini 2024-cü ilin fevralın 7-nə təyin edib.

Mərkəzi Seçki Komissiyası ölkəmizin ərazi bütövlüyü və dövlət suverenliyinin tam bərpa olunduğu bir şəraitdə keçirilən bu ilk seçkilərin yüksək səviyyədə təşkil olunmasına, azad, ədalətli və şəffaf şəkildə gerçəkləşdirilməsinə xüsusi diqqətlə yanaşıb.

Seçki prosesinin mühüm mərhələləri olan seçicilər siyahısının dəqiqləşdirilməsi, seçicilər də daxil olmaqla, bütün seçki subyektlərinin maarifləndirilməsi, prezidentliyə namizədlərin irəli sürülməsi və qeydə alınması, bərabər şərtlərə əsaslanan seçkiqabağı təşviqat imkanlarının yaradılması, müşahidəçilər və media nümayəndələrinin fəaliyyəti üçün sərbəst və maneəsiz şəraitin təmin edilməsi, seçki günü səsvermənin təşkili ilə əlaqədar prosedurlar və digər seçki hərəkətləri Seçki Məcəlləsinin tələbləri əsas götürülməklə ardıcıl, sistemli və mütəşəkkil qaydada həyata keçirilib.

Seçkilərin hazırlanıb keçirilməsi ilə əlaqədar nəzərdə tutulan bütün tədbirlər qanunvericiliklə müəyyən olunmuş qaydada, vaxtında və keyfiyyətlə icra edilib, seçicilər və aşağı seçki komissiyalarının üzvləri də daxil olmaqla, müxtəlif statuslu seçki subyektlərini əhatə edən irimiqyaslı maarifləndirmə layihələri reallaşdırılıb və sözügedən layihələrin icrası zamanı əlaqədar qurumlarla sıx əməkdaşlıq olunub. Mərkəzi Seçki Komissiyası tərəfindən səsvermədə iştiraka çağırış, seçki gününün diqqətə çatdırılması, seçici siyahılarında adın yoxlanılması, əlavə seçicilər siyahısı əsasında səsvermə, qeydiyyatdan çıxma vəsiqəsindən istifadə və səsvermə proseduru ilə bağlı hazırlanmış, ümumilikdə 8 video və audio çarx televiziya və radio kanallarında, habelə sosial media platformalarında mütəmadi şəkildə nümayiş etdirilib.

Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş müddətdə və qaydada seçicilər siyahısının dəqiqləşdirilməsi istiqamətində təkmil fəaliyyət həyata keçirilib. Seçicilərə öz adlarının siyahıda olub-olmadığını Mərkəzi Seçki Komissiyasının internet səhifəsindəki müvafiq sistem vasitəsilə yoxlamaq, hər hansı yanlışlıqla bağlı qaynar xətlərlə əlaqə saxlamaq və ya onlayn ərizə forması ilə müraciət etmək imkanı yaradılıb. Həmçinin birgə layihə çərçivəsində ilk dəfə "ASAN xidmət" mərkəzlərindəki müvafiq smart monitorlarda innovativ həll təmin olunaraq yeni funksional bölmə əlavə edilib ki, bu da vətəndaşların adlarının seçici siyahılarında yoxlanmasında və aid olduqları seçki məntəqələrini müəyyənləşdirməsində əlavə mütərəqqi bir vasitəyə çevrilib.

Seçkilərə start verildikdən sonra 17 nəfərin namizədliyinin irəli sürülməsinin təsdiqi üçün müvafiq sənədlər Mərkəzi Seçki Komissiyasına təqdim edilib və namizədliklərinin irəli sürülməsi təsdiq olunaraq onlara imza vərəqələri verilib. Namizədliyinin irəli sürülməsi təsdiq olunanlardan yalnız 7-si imza vərəqələrini və ona əlavə olunmuş sənədləri geri qaytarıb və onların hamısının namizədliyi qeydə alınıb. Qeydə alınmış namizədlərdən 5-nin namizədliyi siyasi partiyalar tərəfindən irəli sürülüb, 2-si isə öz təşəbbüsü ilə seçkilərə qatılıb.

Namizədlərin sənədlərinin yoxlanılması prosesi bütün maraqlı şəxslər üçün şəffaf şəkildə aparılaraq ictimaiyyətə tam açıq həyata keçirilib, siyasi partiyaların, prezidentliyə namizədlərin səlahiyyətli nümayəndələri, beynəlxalq müşahidə missiyalarının təmsilçiləri və media nümayəndələri mütəmadi olaraq bu prosesə dəvət edilib, onlar istənilən vaxt prosesləri birbaşa izləmək və sənədlərlə yaxından tanış olmaq imkanına malik olublar.

Qeydə alınmış namizədlərə öz seçkiqabağı platformalarını sərbəst şəkildə seçicilərə çatdırmaq üçün mediada hərtərəfli, bərabər şərait və geniş imkanlar yaradılıb. Mərkəzi Seçki Komissiyasının qərarı ilə İctimai Televiziya və Radio Yayımları Şirkətində qanunvericilikdə nəzərdə tutulandan 2 dəfə artıq – həftəlik 6 saat ödənişsiz efir vaxtı ayrılıb. "Azərbaycan" qəzeti, "Xalq qəzeti", "Respublika" qəzeti və "Bakinski raboçi" qəzetlərində qanunvericiliyə uyğun həcmdə və qaydada ödənişsiz dərc üçün yer təmin edilib, 44 media qurumunda isə bərabər şərtlərlə ödənişli təşviqat imkanı yaradılıb. Qeydə alınmış namizədlərin və namizədi qeydə alınmış siyasi partiyaların seçicilərlə görüşlərinin keçirilməsi üçün, ilkin mərhələdə, onlar respublikanın şəhər və rayonlarında 125 seçki dairəsi üzrə 139-u açıq, 142-si qapalı olmaqla, ümumilikdə 281 ödənişsiz yerlə təmin edilib. Bunun ardınca isə, daha geniş imkanların yaradılması məqsədilə, demək olar ki, respublikanın əksər yaşayış məntəqələrini əhatə edən 4 500-ə yaxın əlavə görüş yeri də ayrılıb. Bütün bu yerlərin ünvanlarına dair məlumatlar Mərkəzi Seçki Komissiyasının internet səhifəsi də daxil olmaqla müxtəlif mənbələrdə dərc olunmaqla ictimailəşdirilib. Namizədlər və namizədi qeydə alınmış siyasi partiyalar ödənişsiz və heç bir icazə tələb olunmadan, sadəcə müvafiq dairə seçki komissiyasına məlumat verməklə sözügedən yerlərdən istifadə edərək seçicilərlə görüşlər keçirirdi. Seçkiqabağı təşviqat subyektləri Mərkəzi Seçki Komissiyası tərəfindən yaradılmış bütün imkanlardan və bərabər şəraitdən azad və sərbəst şəkildə istifadə ediblər.

Seçkilərdə şəffaflığın yüksək səviyyədə təmin olunmasına xüsusi diqqət yetirilib, respublikanın bütün coğrafiyasını əhatə etməklə, 1 000 seçki məntəqəsində quraşdırılan və yüksək texniki parametrlərə uyğun olmaqla günün tələblərinə cavab verən, yenilənmiş sistem üzərindən daha aydın vizual görüntü təminatına şərait yaradan veb-kameralar vasitəsilə səsvermə prosesini heç bir qeydiyyat tələb olunmadan, əvvəldən axıradək fasiləsiz olaraq onlayn izləmək imkanı təmin edilib. Proseslərin müşahidəsinə 72 nüfuzlu beynəlxalq qurumu və 89 ölkəni təmsil edən 790 beynəlxalq müşahidəçi, dünyanın 110 aparıcı xarici media subyektinin 217 təmsilçisi, eləcə də Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyalarında akkreditasiyadan keçən 90 000-dən artıq yerli müşahidəçi qatılıb. Seçkilərdə öz namizədləri ilə iştirak edən 5 siyasi partiya da daxil olmaqla, 19 siyasi partiyanın və öz təşəbbüsü ilə seçkilərə qatılan namizədlərin ümumilikdə 51 000-dən artıq müşahidəçisi seçkiləri izləyiblər. Bununla yanaşı, seçkilərin müşahidəsinə qoşulan 7 000-ə yaxın müşahidəçi bütövlükdə 83 qeyri-hökumət təşkilatı, vətəndaş cəmiyyəti institutu və ictimai birlikləri əhatə edirdi. Biri xarici partnyorları ilə birgə olmaqla, ümumilikdə 3 ixtisaslaşmış təşkilat Mərkəzi Seçki Komissiyasında qeydə alınaraq səsvermə günü "exit-poll" keçirib. Aparılan müşahidələrə əsasən deyə bilərik ki, on minlərlə müşahidəçinin qatıldığı seçkilər onlar tərəfindən azad, ədalətli və müasir tələblərə cavab verən proses olaraq qiymətləndirilib.

Seçki marafonuna start verildikdən sonra Mərkəzi Seçki Komissiyasına 1 şikayət daxil olub və həmin şikayətlə bağlı operativ qaydada müvafiq tədbir görülüb. Seçicilərin yüksək fəallıq nümayiş etdirdiyi səsvermə günü və seçki prosesində hər hansı qanun pozuntusu ilə əlaqədar Mərkəzi Seçki Komissiyasına digər heç bir şikayət daxil olmayıb. Mərkəzi Seçki Komissiyasının qaynar xətlərinə hər zaman olduğu kimi, seçkilərin hazırlanması və keçirilməsi dövründə müxtəlif məsələlərlə bağlı müraciət edən vətəndaşların sualları operativ şəkildə cavablandırılıb və lazımi tədbirlər görülüb.

Seçki günü saat 08:00-da bütün ölkə üzrə səsvermə başlanıb və 6 319-u daimi, 218-i müvəqqəti əsaslarla fəaliyyət göstərən 6 537 seçki məntəqəsi sərbəst şəkildə öz iradələrini ifadə etmələri üçün seçicilərin ixtiyarında olub. Gün ərzində 5 dəfə seçici fəallığı barədə məlumatlar Dövlət Avtomatlaşdırılmış İnformasiya Sistemi üzərindən xüsusi proqram təminatı vasitəsilə birbaşa Mərkəzi Seçki Komissiyasına ötürülərək ictimailəşdirilib və Komissiyanın internet səhifəsində yerləşdirilib. Səsvermə günü seçki məntəqələri bağlandıqdan sonra fasiləsiz olaraq səslərin hesablanması həyata keçirilib, məntəqə seçki komissiyalarının ilkin protokol məlumatları operativ şəkildə Mərkəzi Seçki Komissiyasının internet səhifəsində dərc olunub və bir neçə saat ərzində seçki məntəqələrinin mütləq əksəriyyətindən daxil olmuş məlumatlar əsasında səsvermənin ilkin nəticələri ictimaiyyətin diqqətinə çatdırılıb.

Seçkilərdə bütün digər seçicilər kimi, həssas təbəqəyə aid seçicilər də diqqət mərkəzində saxlanılıb və Mərkəzi Seçki Komissiyası tərəfindən bu istiqamətdə bir sıra ənənəvi layihələr reallaşdırılıb. Gözdən əlil seçicilər onlar üçün hazırlanmış və seçki bülletenindəki məlumatların Brayl əlifbası ilə əks olunduğu trafaretdən istifadə etməklə seçki günü öz konstitusion hüquqlarını heç kəsin yardımı olmadan reallaşdırıblar. Hərəkət qabiliyyətində məhdudiyyətlər olan seçicilərin sərbəst şəkildə seçki məntəqələrinə gələrək səs verə bilmələri üçün müvafiq binaların müəyyənləşdirilməsi və onlarda pandusların quraşdırılması yolu ilə 2 042 seçki məntəqəsində xüsusilə bu kateqoriyadan olan seçicilər üçün əlverişli vəziyyət yaradılıb. Mərkəzi Seçki Komissiyasının seçici maarifləndirmə proqramı çərçivəsində bütün videoçarxları alt yazısı ilə hazırlanıb ki, bu da eşitmə qabiliyyəti məhdud olan seçicilərin maarifləndirilməsində əhəmiyyətli rol oynayıb.

Seçkilərin nəticələrinin rəsmi qaydada müəyyən edilməsi üçün Seçki Məcəlləsində nəzərdə tutulmuş bütün müvafiq sənədlər aşağı seçki komissiyaları tərəfindən Mərkəzi Seçki Komissiyasına vaxtında təqdim edilib, dairə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolları və onlara əlavə edilmiş sənədlər tam, obyektiv və hərtərəfli yoxlanılıb.

Eyni zamanda, səsvermə günü müxtəlif mənbələrdə, o cümlədən onlayn platformalarda olan məlumatlar belə fərqli alternativ resurslardan, habelə seçki məntəqələrində quraşdırılmış veb-kamera görüntülərindən istifadə olunmaqla mümkün qədər geniş və hərtərəfli araşdırılıb.

Nəticədə 41 saylı Gəncə-Samux-Goranboy seçki dairəsinin 38 saylı, 61 saylı Qusar seçki dairəsinin 7 və 27 saylı, 65 saylı Salyan-Biləsuvar-Neftçala seçki dairəsinin 9 saylı, 68 saylı Sabirabad-Şirvan seçki dairəsinin 2 saylı, 77 saylı Lənkəran şəhər seçki dairəsinin 7 və 31 saylı, 92 saylı Göyçay-Ağdaş seçki dairəsinin 6 saylı, 99 saylı Bərdə seçki dairəsinin 2 saylı, 114 saylı Şəki şəhər seçki dairəsinin 1 saylı və 115 saylı Şəki kənd seçki dairəsinin 6 saylı seçki məntəqələrində seçicilərin iradəsinin müəyyən edilməsinə imkan verməyən qanun pozuntuları aşkar edildiyindən, həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi və məntəqə seçki komissiyalarının buraxılması üçün əsaslar müəyyən edilib.

Ona görə də seçkilərin nəticələri barədə Mərkəzi Seçki Komissiyasının Protokolu göstərilənlər nəzərə alınmaqla və dairə seçki komissiyalarının protokollarındakı məlumatlar ümumiləşdirilməklə tərtib edilməli, təsdiq edilərək seçkilərə yekun vurulmalı, imzalandıqdan sonra müvafiq sənədlərlə birlikdə Seçki Məcəlləsinin 203.1-ci maddəsinə əsasən seçkilərin nəticələrinin təsdiq olunması üçün Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim edilməlidir.

Seçki Məcəlləsinin 203.5-ci maddəsinə əsasən, prezident seçkilərinin nəticələri haqqında protokol imzalandıqdan sonra 24 saat müddətində dərc edilir.

Mərkəzi Seçki Komissiyası yuxarıda göstərilənləri əsas götürərək Azərbaycan Respublikası Konstitusiyasının 102-ci, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 23.2-ci, 28.2-ci, 28.4-cü, 203.1-ci – 203.3-cü və 203.5-ci maddələrinə uyğun olaraq **qərara alır:**

**1.** 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə yekun vurulması ilə əlaqədar aparılmış araşdırmalar nəticəsində 41 saylı Gəncə-Samux-Goranboy seçki dairəsinin 38 saylı, 61 saylı Qusar seçki dairəsinin 7 və 27 saylı, 65 saylı Salyan-Biləsuvar-Neftçala seçki dairəsinin 9 saylı, 68 saylı Sabirabad-Şirvan seçki dairəsinin 2 saylı, 77 saylı Lənkəran şəhər seçki dairəsinin 7 və 31 saylı, 92 saylı Göyçay-Ağdaş seçki dairəsinin 6 saylı, 99 saylı Bərdə seçki dairəsinin 2 saylı, 114 saylı Şəki şəhər seçki dairəsinin 1 saylı və 115 saylı Şəki kənd seçki dairəsinin 6 saylı seçki məntəqələri üzrə seçicilərin iradəsinin müəyyən olunmasına imkan verməyən qanun pozuntuları aşkar edildiyindən, həmin seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.

**2.** 41 saylı Gəncə-Samux-Goranboy seçki dairəsinin 38 saylı, 61 saylı Qusar seçki dairəsinin 7 və 27 saylı, 65 saylı Salyan-Biləsuvar-Neftçala seçki dairəsinin 9 saylı, 68 saylı Sabirabad-Şirvan seçki dairəsinin 2 saylı, 77 saylı Lənkəran şəhər seçki dairəsinin 7 və 31 saylı, 92 saylı Göyçay-Ağdaş seçki dairəsinin 6 saylı, 99 saylı Bərdə seçki dairəsinin 2 saylı, 114 saylı Şəki şəhər seçki dairəsinin 1 saylı və 115 saylı Şəki kənd seçki dairəsinin 6 saylı seçki məntəqələri məntəqə seçki komissiyaları buraxılsın.

**3.** 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələri haqqında Mərkəzi Seçki Komissiyasının protokolu tərtib edilsin.

**4.** 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələri haqqında Mərkəzi Seçki Komissiyasının Protokolu təsdiq edilməklə seçkilərə yekun vurulsun.

**5.** 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələri haqqında Mərkəzi Seçki Komissiyasının Protokolu müvafiq sənədlərlə birlikdə seçkilərin nəticələrinin təsdiq olunması üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim edilsin.

**6.** 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələri haqqında Mərkəzi Seçki Komissiyasının Protokolu imzalandıqdan sonra 24 saat ərzində dərc edilsin (Əlavə edilir).

**7.** Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| **Sədr** | **Məzahir Pənahov** |
| **Katib** | **Arifə Muxtarova** |
| **Katib** | **Mikayıl Rəhimov** |

# “Ermənilər Qarabağdan könüllü gediblər”

## Rusiyanın xarici işlər naziri müavininin açıqlaması hayları məyus edib

**Qarabağ iqtisadi rayonunda yaşayan erməni əhalinin ötən ilin sentyabrın 19–20-də Azərbaycan Ordusunun keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra bölgədən köç etməsinin könüllü olduğu Rusiya Xarici işlər nazirinin müavini Mixail Qaluzin tərəfindən də təsdiqlənib. Nazir müavini bugünlərdə Rusiyanın dövlət informasiya agentliyi olan TASS-a müsahibəsində ermənilərin Qarabağı könüllü tərk etdiklərini bəyan edib.**

O qeyd edib ki, Qarabağ erməniləri istəsələr, Rusiya onların təhlükəsiz şəkildə bölgəyə qayıtmasına şərait yaratmağa hazırdır: “Təəssüf ki, Qarabağ ermənilərinin əksəriyyəti bölgəni tərk edib. Bu, onların çətin, lakin könüllü seçimi olub. Bu baxımdan, bunu etmək istəyənlərin hüquqlarını və təhlükəsizliyini lazımi şəkildə təmin etməklə, geri qayıtmasına şərait yaratmaq vacibdir. Biz bu prosesə hərtərəfli, o cümlədən mövcudluğu böyük əhəmiyyət kəsb edən Rusiya sülhməramlı kontingenti vasitəsilə kömək göstərməyə hazırıq”.



Qaluzin xatırladıb ki, 2023-cü il sentyabrın 19–20-də baş verən toqquşmalar nəticəsində Qarabağ Bakının tam nəzarətinə keçib: “Rusiya sülhməramlı kontingentinin fəal vasitəçiliyi ilə sentyabrın 20-də hərbi əməliyyatların dayandırılması barədə razılıq əldə edilib. Qarabağın erməni əhalisi ilə Azərbaycan hakimiyyətinin nümayəndələri arasında danışıqlar aparılıb. Sülhməramlılarımız mülki şəxslərə sığınacaq verib, humanitar yardım çatdırıb, tibbi evakuasiya təşkil edib”.

Eyni zamanda, Qaluzin deyib ki, qeyd olunan hadisələr təsadüfən baş verməyib: “Ermənistan tərəfi hələ 2022-ci ilin oktyabrında Avropa İttifaqının himayəsi altında Praqada keçirilən sammitdə Azərbaycanın ərazi bütövlüyünü, o cümlədən Qarabağı onun tərkib hissəsi kimi tanıyıb. Həmin vaxt regionun erməni əhalisinin hüquq və təhlükəsizliyinin təmin edilməsi məsələsi həll olunmamışdı. İndi isə Qarabağ Azərbaycanın hüquq sisteminə inteqrasiya olunur”.

Rusiyalı nazir müavini Azərbaycanla dialoqun konstruktiv xarakter daşıdığını da bildirib: “Biz meydana çıxan bütün məsələləri qarşılıqlı məqbul şəkildə həll edirik. Rusiya sülhməramlı kontingentinin 2025-ci ilin noyabrından sonra səlahiyyətlərinin uzadılmasına gəlincə, bu, regiondakı vəziyyətdən, onların gələcəkdə mövcudluğuna olan tələbdən və Bakı ilə müvafiq razılaşmalardan asılı olacaq. Qarabağda vəziyyətin köklü şəkildə dəyişdiyini nəzərə alaraq, sülhməramlılarımızın qalma şərtləri yalnız Azərbaycan tərəfi ilə müzakirə olunur”.

Bu arada Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin Moskvanın Ermənistan–Azərbaycan sülh prosesində fəal, təşəbbüskar rol oynamağa davam etməyə hazır olduğunu qətiyyətlə bəyan etdiyini bildirib. Səfir “Radio Sputnik”ə müsahibəsində deyib: “Biz nizamlanmanın əldə olunmasında, sülh müqaviləsinin imzalanmasında maraqlıyıq. Elə bir müqavilənin ki, o, hər iki tərəfin maraqlarına cavab versin. Rusiya qətiyyətlə bəyan edir ki, bundan sonra da prosesdə fəal, təşəbbüskar rol oynamağa hazırdır. Təbii ki, buna tərəflər qərar verəcək. Sülh prosesinin formatını müəyyən etmək onların suveren hüququdur, lakin biz bu prosesə kömək etməyə və fəal rol oynamağa, o cümlədən Ermənistan–Azərbaycan sülh danışıqları üçün platformanın təmin edilməsinə hazır olduğumuzu bütün səviyyələrdə tamamilə aydın şəkildə bəyan edirik”.

S.Kopırkinin sözlərinə görə, Ermənistan–Azərbaycan münasibətlərinin nizamlanması prosesində Rusiyanın rolu ilkin və əsas olub: “Sülh prosesinin gedişatını müəyyən edən baza prinsipləri Rusiyanın iştirakı ilə 2020-ci ilin noyabrında əldə edilən üçtərəfli razılaşmalarda müəyyən edilib. O zaman Rusiya Federasiyasının və şəxsən Rusiya Prezidentinin həlledici səyləri ilə faciəli müharibə dayandırıldı. Deməliyəm ki, sülh prosesini özünə, necə deyərlər, bağlamaq üçün çox işlər görən Qərb nizamlama prinsipləri baxımından mahiyyətcə yeni heç nə gətirməyib”.

Qeyd edək ki, Azərbaycan tərəfi Qarabağdan erməni əhalinin köçündə heç zaman maraqlı olmayıb. Azərbaycanın istəyi bölgədə yaşayan erməni əhalinin reinteqrasiyasına nail olmaq, onları təxminən son 30 ildə Ermənistanın və qanunsuz separatçı xunta rejiminin girovluğundan qurtararaq, ölkənin sosial-iqtisadi və ictimai-siyasi həyatına qovuşdurmaq idi. İşğal bitdikdən sonra Azərbaycan özünün erməni sakinləri ilə təmas qurmağa hazır olduğunu bildirib. Milli Məclisin deputatı Ramin Məmmədov Qarabağda yaşayan erməni sakinlərlə təmaslar üzrə məsul şəxs kimi müəyyən olunub. 2023-cü il martın 1-də Xocalıda – Rusiya sülhməramlılarının vasitəçiliyi ilə, onların qərargahında ilkin təmaslar aparılıb. Təəssüf ki, təmaslardan sonra erməni sakinlərin nümayəndələrinin arzuolunmaz açıqlamalarının şahidi olduq. Eyni zamanda, martın 5-də Ermənistan tərəfindən Xankəndi–Xəlfəli–Turşsu torpaq yolunda təxribat törədildi. Həmin təxribat həm də erməni sakinlərlə təmaslara mane olmağa hesablanmışdı. Buna baxmayaraq, Azərbaycan bu təmasları davam etdirməkdə qərarlı idi və onlara ikinci dəfə dəvət göndərildi. Onlar isə bundan da imtina etdilər.

Zənnimizcə, bu məqamda Prezident İlham Əliyevin ötən il mayın 28-də Laçın şəhərinə qayıdan əhali ilə görüşdə səsləndirdiyi fikirlərdən iqtibas gətirmək yerinə düşər: “Birincisi, biz oraya heyət göndərmişdik. Mənim nümayəndəm gedib onlarla birinci görüş keçirib və ondan sonra onları dəvət etmişik Bakıya ki, gəlin danışaq. Onlar bundan imtina etdilər. Bundan sonra ikinci dəfə biz onları dəvət etmişik Bakıya. Yəni, Qarabağda yaşayan erməni azlığının nümayəndələrini. Ondan da imtina etdilər. Daha üçüncü dəvət olmayacaq. Ya özləri boyunlarını büküb gələcəklər, ya da ki, indi hadisələr başqa cür inkişaf edəcək. Ona görə onlara ancaq o halda amnistiya düşə bilər ki, özləri könüllü olaraq bütün saxta vəzifələrini kənara qoyub Azərbaycan vətəndaşlığı üçün müraciət etsinlər. Ona da biz hələ baxacağıq. Mənim sözüm qətidir, bunu hər kəs bilir, həm Azərbaycanda, həm dünyada, o cümlədən Ermənistanda. Nəyi deyiriksə, onu da edirik. Bir dənə də olsun sözümüz, necə deyərlər, havada qalmayıb, bu söz də havada qalmayacaq. Əgər mən deyirəmsə ki, amnistiyaya baxmaq olar, bu fürsəti də qaçırmasınlar. Onlar bir çox fürsətləri qaçırıblar, bir çox fürsətləri və hər dəfə, necə deyərlər, gərək onların başından vuraydıq ki, özlərinə gəlsinlər”.

Nəhayət, ermənilərin özlərinin təxribatları 19–20 sentyabr hadisələrinin baş verməsini şərtləndirdi. Ancaq bu zaman da mülki əhaliyə heç bir xətər yetirilmədi. 44 günlük Vətən müharibəsi zamanı olduğu kimi, lokal xarakterli antiterror tədbirləri də beynəlxalq humanitar hüquqa uyğun aparıldı. Bu zaman mülki şəxslər və infrastruktur obyektləri hədəfə alınmadı.

Yeri gəlmişkən, Azərbaycan antiterror tədbirləri zamanı mülki əhalinin və obyektlərin zərər çəkməməsi məsələsində də dünyaya nümunə göstərdi. Prezident İlham Əliyev 2023-cü il noyabrın 20-də İraq Prezidenti Əbdüllətif Camal Rəşidlə görüşdən sonra mətbuata verdiyi bəyanatda bu barədə dedi: “Bizim səbrimiz sentyabr ayında tükəndi və biz beynəlxalq hüquqa tam riayət edərək öz suveren ərazimizdə antiterror tədbirləri apardıq. Bu tədbirlər 24 saatdan az davam etdi və mülki əhali arasında itkilər olmadı. Düşünürəm ki, indi Yaxın Şərqdə müşahidə etdiklərimizə münasibətdə bu antiterror tədbirləri mülki əhali arasında hərbi əməliyyatları itkisiz necə aparmaq lazımdır nöqteyi-nəzərdən bir örnək hesab olunmalıdır”.

Həmin günlərdə Azərbaycana qarşı döyüşmüş şəxslərə silahı yerə qoyacaqları təqdirdə məsuliyyətə cəlb edilməyəcəklərinə dair çağırış edildi. Belə də oldu. Qondarma separatçı rejimin keçmiş və indiki “qlavar”ları istisna olmaqla heç kim həbs edilmədi.

Bundan əlavə, Qarabağdan erməni əhalinin köçünün könüllü olması ilə bağlı “YouTube” videohostinqində hayların özlərinin çoxlu etirafları var. Onlar etiraf edirlər ki, Azərbaycan onların gedişini arzulamırdı. Eyni zamanda, bildirirlər ki, Bakı ən yüksək səviyyədə Qarabağın erməni sakinlərinə Azərbaycan vətəndaşlığını qəbul etməyi və orada qalmağı təklif edirdi. Həmin açıqlamaları istənilən qərəzsiz, obyektiv insan oxuduqda bu qənaətə gələ bilər ki, Azərbaycandan heç kim erməniləri hansısa “etnik təmizləmə”yə məruz qoymayıb, məcburi köçkünə çevirməyib, indiki miskin həyatı yaşamağa məcbur etməyib. Əgər bunu edən olubsa, o da keçmiş separatçı xunta rejiminin başçıları və Ermənistandakı “Qarabağ klanı” olub.

Buna baxmayaraq, Ermənistan və onun Qərbdəki havadarları bu məsələdə, necə deyərlər, daş atıb başlarını tuturlar. Onlar Azərbaycan Ordusunun dövlət suverenliyini bərqərar etmək məqsədilə beynəlxalq hüquqa uyğun olaraq keçirmək məcburiyyətində qaldığı antiterror tədbirlərindən sonra erməni əhalinin könüllü şəkildə Ermənistana getməsini ölkəmizə qarşı təzyiqin əsas elementinə çevriblər. Baş verənləri utanıb-qızarmadan “etnik təmizləmə”, “məcburi köçürülmə” və sair adlarla qələmə verirlər. Son vaxtlar ölkəmizə bəzi beynəlxalq təşkilatlardan, o cümlədən, Avropa Şurası Parlament Assambleyasından edilən hücumların da arxasında bu dayanır. Bununla belə, Azərbaycanda artıq belə təzyiqlər qarşısında, necə deyərlər, güclü immunitet yaranıb. Onlar qərəzli, birtərəfli olduqları üçün nə deməkləri də böyük əhəmiyyət kəsb etmir. Rusiya XİN başçısı müavininin ermənilərin gedişinin könüllü seçim olduğunu deməsi bu mənada obyektiv reallığı əks etdirir və əhəmiyyətlidir. Zənnimizcə, haylar baş verənlərə görə başqalarından incimək əvəzinə, özlərindən küsməlidirlər.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi

**Rizvan HÜSEYNOV,**
**hərbi-siyasi şərhçi**



Qarabağ ermənilərinin köçünün könüllü olmasına, əslində, heç bir obyektiv şəxs, təşkilat və ya dövlət şübhə edə bilməz. Bunu yalnız Qərbdəki ermənipərəstlər edə bilərlər. Rusiya tərəfdən Xarici işlər naziri müavininin bunu bəyan etməsi yaxşı haldır. Ancaq hətta, Qaluzin bunu təsdiqləməsə də, hər bir məqam ortadadır. Qarabağ separatçılarının başçıları dəfələrlə demişdilər ki, Azərbaycan Bayrağı altında, qanunlarımız çərçivəsində yaşamayacaqlar. Onlar öz seçimlərini etdiklərini bildirirdilər. Bu gün baş verənlər onların özlərinin seçiminin nəticəsidir.

Bəzi Qərb ölkələrinin mövqeyinə gəldikdə isə qeyd etmək lazımdır ki, bu proseslərin arxasında elə onlar özləri dayanmışdılar. Fransa və bir sıra digər ölkələr mümkün olan hər şeyi etdilər ki, ermənilər Qarabağdan köç etsinlər. Onların yaratdığı şərait ermənilərin köçünü qaçılmaz etdi. Fransa başda olmaqla, Qərb Qarabağ ermənilərini, necə deyərlər, qurbanlıq qoyun etdi. Azərbaycanla bir oyun oynadılar, uduzdular. Amma əslində, uduzan, qurban verilən Qarabağ erməniləri oldu. İndi isə biz görürük ki, həmin aqibət Ermənistanı da gözləyir. Hazırda oyun Ermənistan üzərində gedir. Bu dəfə Qərb uduzsa, Ermənistan dövləti və erməni xalqı üçün daha ağrılı olacaq. Yəni, Qarabağ ermənilərinin başına gələnləri Ermənistan və onun xalqı da yaşaya bilər.

(əvvəli 1-ci səhifədə)

Birləşmiş Ştatların ermənipərəst konqresmeni bildirir ki, ötən il Qarabağa “ölümcül hücum” əmri verməklə, guya Azərbaycan rəhbərliyi beynəlxalq hüququ pozdu və ölkəmizin 120.000 erməninin “tarixi vətənləri”ndən qovulmasına səbəb olmuş soyqırımı kampaniyasının ağır nəticələri ilə üzləşdirilməsi müstəsna ilahi vəzifədir. Fikrini davam etdirən F.Pallone onu da deyib ki, Birləşmiş Ştatların Azərbaycan rəhbərliyini məsuliyyətə cəlb etmək üçün tədbirlər görməsinin vaxtı çoxdan çatıb.

Əlbəttə, F.Pallonenin beynəlxalq hüquq anlayışındakı bəsitliyi vurğulamaq niyyətindən uzağıq. Heç də onu demək istəmirik ki, Birləşmiş Ştatlar Azərbaycanın ərazi bütövlüyünü tanıdığı halda, konqresmen nədən danışır? Sadəcə, belə yelbeyinlərin necə və hansı yolla ABŞ-ın ali qanunverici orqanında təmsil olunduğu maraqlıdır. Görəsən, ölkədə hər şey bu qədərmi alt-üst durumdadır? Yəqin ki, elədir. Başqa nə düşünəsən?

# Demokratizmə “Pallone ləkəsi”

## Ermənipərəstlik naminə sərsəmləmə məharəti

Bir ölkənin ki, Dövlət Departamenti rəhbərinin köməkçisi Ceyms Obrayn Azərbaycanın İranla münasibətlərinə qarışacaq tərzdə fikir bildirir, o zaman F.Pallone kimilərdən nə gözləyəsən? Yəni, hədsizliyi özlərinə həyat norması seçmiş pallonelərin danışdıqları, həqiqətən də, gülməlidir. Vaşinqton Azərbaycan rəhbərliyini məsuliyyətə cəlb edəcəkmiş? Görəsən, necə? İnanmırıq ki, cənab Pallone bunun mexanizmlərini düşünür. Elə Obrayn da Azərbaycanın əsas hissəsinin Naxçıvanla quru yolunun İrandan deyil, Ermənistan ərazisindən keçməli olduğunu bildirəndə heç bir mexanizmə söykənmirdi. Söykəndiyi ABŞ-ın imperialist yanaşma tərzi idi. Bu yanaşma üçün isə bütün beynəlxalq hüquq normalarına həqarət adidən də adi bir təzahürdür.

Digər tərəfdən, F.Pallone səsləndirdiyi fikirlərlə heç də yenilik etmir. O, son günlər ABŞ-ın anti-Azərbaycan yönümlü siyasi xətti üçün xarakterik olan məqamları qabardır. Nədir bu xarakterik məqamlar? Əlbəttə ki, Azadlığa Dəstək Aktına 907-ci düzəliş və Xarici Yardım Aktının 1976-cı ildən bu yana tətbiq edilməyən 502-ci bəndi. Hər iki məsələ Azərbaycanı Birləşmiş Ştatların birbaşa dövlət yardımından məhrum edən “təşəbbüsdür”.



Doğrudur, ölkəmizin ABŞ-dan yardım almaması maddi baxımından heç nədə özünü göstərən deyil. Yəni, Vaşinqtonun köməyinə onsuz da ehtiyac duymuruq. Məsələ mövzunun siyasi-mənəvi tərəfi ilə bağlıdır. Sırf mənəvi baxımdan yanaşsaq, F.Pallone və onun ermənipərəst dostları Azərbaycanı dünyadan təcrid etməyə çalışırlar. Bu təcriddə ölkəmizdə insan hüquq və azadlıqlarına, guya, etinasız münasibətin mövcudluğuna dair qondarma mahiyyət əsas götürülür. Siyasi nöqteyi-nəzərdən baxdıqda isə burada daha “incə” mətləblər var. Əslində, F.Pallone də həmin mətləbləri açıqlayır. Beləliklə, aydın olur ki, ayının min oyunu bir armudun başındadır.

ABŞ-ın ermənipərəst dairələri Azərbaycanla sülh danışıqları fonunda Ermənistanın, necə deyərlər, əlini gücləndirmək istəyirlər. Hesab edirlər ki, bu yolla İrəvanın maraq və mənafelərini təmin edəcəklər. Diqqət yetirək, Pellone deyir ki, demokratdır. Görəsən bu ampulada özünü necə təsəvvürə gətirir? Çox sadə - sülh danışıqlarında Ermənistanın etibarlı tərəf olacağını sübuta yetirən demokrat kimi. Yəni, bu adamın anlayışındakı demokratizm ermənipərəstlikdən o yana keçmir.

Bəli, demokratiya adına parodiyaya çevrilmiş F.Pallone özü ilə həm də Ermənistanın Müdafiə Aktı deyilən təşəbbüslə çıxış etdiyinə görə öyünür. Öyünsün, biz isə yazının ilk abzasında vurğuladığımız məqama qayıdaq. Söhbət sirkənin öz qabını çatlatmasından gedir. Yəni, sirkə tünd olur ki, qab çatlayır. İndi ABŞ-ın mövcudluğuna şübhə etmədiyimiz mütərəqqi başları düşünsünlər. Düşünsünlər və nəticə çıxarsınlar ki, ölkələrində demokrat adını oyunbazlıq predmetinə çevirmiş şəxslər var və onların “hərəkətləri” bütövlükdə Birləşmiş Ştatların demokratik düşüncə tərzinin son dərəcə ciddi böhranıdır. Onu da düşünsünlər ki, qatığa qara deyən pallonelərə görə ABŞ-ın demokratik imicinə böyük zərbə dəyəcək. Dəyəcək yox, artıq bu proses başlayıb. Heç şübhəsiz, yelbeyin konqresmenlər qaldıqca, gedişat ölkənin onsuz da sarsılmış nüfuzunu, tamamilə, yerlə-yeksan edəcək.

***Ə.RÜSTƏMOV***
***XQ***



# Yeni tarixi mərhələdə milli ideya və milli ideologiya

III MƏQALƏ

### Tarixi ədalət – Azərbaycan dövlətçiliyinin tarixin sınağından çıxmış prinsipi

Prezident İlham Əliyevin bu ilin əvvəllərində yerli telekanallara verdiyi müsahibədə ədalətlilik haqqında ifadə etdiyi fikirlər milli ideya kontekstində məsələnin bu aspektini çox yaxşı izah edir. Dövlət başçımız yuxarıdakı iqtibasdan da göründüyü kimi, ədalətə inamın zəruri olduğunu vurğulayır. Yəni Azərbaycan dövlətçiliyində və cəmiyyətin özünütəşkili ənənəsində ədalətə inam ilk sırada yer almışdır. Bu özəllik Azərbaycan cəmiyyətinin mövcudluq fəlsəfəsinə o dərəcədə hopmuşdur ki, artıq onu bizim toplumun var olmaq psixologiyasının əsas komponentlərindən biri kimi dərk etməyimiz son dərəcə vacibdir.

Buna görədir ki, dövlət başçısı ədalətə inam faktorunu üç mühüm toplumsal (kollektiv) psixoloji məqam kontekstində izah edir. Birincisi, ədalətə inamsızlıq "istər-istəməz insanların şüuruna mənfi təsir göstərir", ikincisi, "ruh düşkünlüyünə gətirib çıxara bilir", üçüncüsü, "bədbinlik hisslərinin cəmiyyətdə geniş vüsət almasına şərait yaradır" (bax: İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib.

Bu müddəalar milli ideya baxımından prinsipial fəlsəfi və psixoloji əhəmiyyət kəsb edir. Yeni tarixi mərhələdə milli ideyanın sosial-siyasi və psixoloji funksiyasının əhəmiyyətli cəhətlərini anlamaq üçün onların üzərində bir qədər geniş dayanmaq lazımdır.

### Ədalətsizliyin insanların şüuruna təsiri

Prezident İlham Əliyev müsahibəsində ayrıca vurğulayır ki, "30 il ərzində ədalətə inam Azərbaycan cəmiyyətində müəyyən dərəcədə sarsılmışdı". Bu, ümumiyyətlə, "istənilən cəmiyyət üçün yaxşı hal deyil". Tarixən ədalətə dərin inam əsasında özünüyaradan Azərbaycan cəmiyyəti üçün ədalətə inamın sarsılması daha ağır nəticələr verə bilər. Toplum, bütövlükdə özünü inkişafdan qalar. Vahid bir sistem kimi mövcud ola bilmə imkanları minimuma enər. O halda hansısa milli ideyanın səmərəli funksionallaşmasından danışmaq belə – mümkün olmaz. Yəni ən yaxşı və güclü milli ideya belə, reallaşma şansını itirmiş olur.

Məhz buna görə də Prezident İlham Əliyev Azərbaycan cəmiyyətində ədalətə inamın bərpasını milli ideya kontekstində mühüm vəzifələrdən biri kimi xarakterizə edir. Ədalət hissinin tamamilə itirilməməsi üçün isə ərazi bütövlüyünün bərpası əsas şərt kimi qəbul edilmişdir. Fəlsəfi baxımdan, bu, o deməkdir ki, ərazi bütövlüyünün bərpası digər məsələlərlə yanaşı, həm də xalqda ədalətə inamın bərpa olunması deməkdir.

Öz növbəsində bu prosesin çox mühüm məna çalarlarından biri də ədalətin tarixi aspektdə Azərbaycan toplumu üçün böyük əhəmiyyəti olduğunu insanlara çatdırmaqla əlaqəlidir. Vurğulanan səbəblərdən, Azərbaycan toplumu üçün ədalətin tarixiliy dövlətçilik kontekstində çox əhəmiyyətlidir. Ona görə ki, tarixən Azərbaycan dövlətçiliyində ədalət faktoru əsas yerlərdən birini tutmuşdur.

Belə nəticə alınır ki, İlham Əliyev Prezident kimi ədalətin bərpasını həmişə Azərbaycan dövlətçiliyinin əsas prinsiplərindən biri olaraq zəruri saymışdır. Bu özəllik isə tarixi ədalətin dərindən və üzvi olaraq milli ideyanın mənası, məzmunu və mahiyyətində mühüm prinsip statusunda nəzərə alındığını ifadə edir. Ərazi bütövlüyünün bərpası milli ideya kimi bu səbəbdən tamamilə tarixi legitimliyi olan müsbət bir fenomen-prosesdir!

Bu əsasda tarixi ədalətin yeni mərhələdə milli ideyanın substantiv və funksional olaraq vacib yer tutması mümkündür (bizcə, faydalı olardı). Yəni Azərbaycan tarixin bütün mərhələlərində ədalət prinsipini milli ideyanın mərkəzi amillərindən biri kimi əbədiləşdirməlidir! Məsələnin digər aspekti Prezidentin vurğuladığı iki vacib sosial-psixoloji faktorla bağlıdır.

### Ruh düşkünlüyü – toplumsal fəsad

Bu, doğrudan da, ağır dağıdıcı sosial-psixoloji haldır. Əgər cəmiyyət ruh düşkünlüyünə uğrayarsa, onun özünə qiymət verməsi ciddi təhriflərə müşayiət olunur. Faktiki olaraq, cəmiyyət keçmiş-müasirlik-gələcək qarşılıqlı əlaqəsi kontekstində özünü adekvat dərk edib, konkret zaman-məkan reallıqlarında perspektivlilik aspektində qiymətləndirə bilmir. Bu, ümumi halda toplumun adekvat empatiya (özünüdərketmə) qabiliyyətini itirməsi deməkdir. Belə halın mövcud olduğu cəmiyyətin bütövlüyünü saxlaması mümkün deyil. Proses uzun müddət mənfi istiqamətdə davam edərsə, bütövlükdə, xalq yoxa çıxa bilər. Bu cür gedişatın əsas əlamətlərindən biri kollektiv reallıqlar səviyyəsində bədbinliyin olmasıdır.

### Bədbinlik – özünəinamın düşməni

Özünəinamın fərdi və xalq anlamında rolu çox güclüdür. Hər iki anlamda fəaliyyətin sonuclarına birbaşa təsir edir. Hətta, özünəinam güclü olanda digər sosial, psixoloji, mənəvi çatışmazlıqların bərpası imkanı meydana gəlir. Kollektiv miqyasda özünəinam isə olduqca əhəmiyyətli faktor kimi bütövlükdə cəmiyyətin sosial, psixoloji, mənəvi, mədəni, əxlaqi özəllikləri ilə sıx bağlıdır.

Bunlara görə, bədbinlik özünəinamın azalmasının və ya olmamasının yekunudur. Bədbin cəmiyyətin daxili bağlantısı minimum səviyyədə olur. İnsanları birləşdirən ictimai faktorlar öz funksiyasını yerinə yetirə bilmir. Başqa fəsadlarla yanaşı, bu, həm də kollektiv səviyyədə milli ideyanı görə bilməmək halını yaradır. Fəlsəfi ifadə ilə, bədbinlik fərdin özünü milli ideya kontekstində identifikasiya etmək qabiliyyətini itirməsi kimi bir qorxulu durum yaranmasını motivasiya edir.

Beləliklə, ədalətsizlik, ruh düşgünlüyü və bədbinlik toplumsal miqyasda xalqın mövcudluğuna risk ola biləcək bir mühit formalaşdıra bilir. Prezident İlham Əliyev bu faktorların birgə təsirini sağlam cəmiyyətin yaranması və möhkəmlənməsi üçün "çox təhlükəli amillər" kimi qiymətləndirməkdə tamamilə haqlıdır. Xüsusilə milli ideyanın reallaşması aspektində bu məqamın ayrıca əhəmiyyəti vardır.

### Milli ideya və sağlam cəmiyyət: əks-əlaqə prinsipi kontekstində

Belə çıxır ki, tarixi ədalətin bərpası cəmiyyətdə ədalətə inamı, ruh yüksəkliyini və toplumsal nikbinliyi sitmullaşdırır və onların qarşılıqlı təsirlərini milli ideyanın reallaşması aspektində harmoniya halına salır. Bu isə sağlam cəmiyyətin yaranmasının mühüm əlamətlərindəndir. Müəyyən edilmiş milli ideyanın həyata keçməsi yalnız sağlam cəmiyyət mühitində mümkündür. Müasir tarixi mərhələ üçün cəmiyyətin "sağlamlığı"nın fəlsəfi anlamı azad və güclü vətəndaş cəmiyyətinin yaranması ilə sıx bağlıdır.

Bu fəlsəfi müddəaların fonunda milli ideya ilə sağlam cəmiyyət arasında əks-əlaqənin xüsusi məzmuna malik olması nəticəsini almaq olar. Konkret olaraq, milli ideya sağlam cəmiyyətin mövcudluğunu, sağlam cəmiyyət isə milli ideyaya inamı tələb edir. Bunun üçün milli ideya konkret mərhələ üçün real və əsaslı olmalı, inkişafın və özünütəşkilin əsas prinsiplərinə dayanmalıdır. Bu mənada Azərbaycanda milli ideyanın bir mərhələsinin tamamlanması sağlam cəmiyyətin yarandığının təsbiti və təsdiqidir. Cəmiyyət özünü adekvat empatiya edə bilir, qarşısına qoyduğu məqsədlərə çatmaq üçün öz ədalətini gözləyir, ruh yüksəkliyinə malikdir və sosial-psixoloji nikbinliyə malikdir. Vurğulanan bu özəlliklər milli ideyanın ilk mərhələsinin komponentləri kimi çox əhəmiyyətlidirlər. Eyni zamanda, yeni tarixi mərhələnin milli ideya kontekstində elə təməl sahəsini formalaşdırırlar ki, yeni milli ideyanı müəyyənləşdirmək üçün prinsipial əhəmiyyət daşıyırlar.

Bununla milli ideyanın reallaşmasında tarixi ədalətin bərpasının böyük əhəmiyyətini anlamaqla yanaşı, çox vacib bir məqamın aktuallığına da əmin oluruq. Bu, milli ideyanın həyata keçməsində ədaləti təmin edən liderin mövcudluğu ilə bağlıdır.

### Ədaləti təmin edən lider – milli ideyanın yaradıcısı və daşıyıcısı

Tarixin bütün dönəmlərində xalq üçün əhəmiyyəti olan ədaləti liderlər təmin edirlər. Cəmiyyət üçün milli ideya baxımından vacib olan yuxarıdakı faktorların reallaşması birbaşa liderin fəaliyyəti ilə sıx bağlıdır. Təsadüfi deyildir ki, tarixdə "Qanuni Süleyman" ifadəsi vardır və yaxud elə liderlər olmuşlar ki, onlara xalqın vicdanı və ədaləti kimi qiymət verirlər. Həmin liderlər milli ideyanın yaradıcıs və daşıyıcılarıdır. Nümunə kimi, Heydər Əliyevin müasir mərhələdə müstəqilliyi milli ideyasının yaradıcısı və əsas daşıyıcısı olmasını göstərə bilərik. Bununla yanaşı, Şarl de Qoll Fransanın müstəqilliyi ideyasının XX əsrin ikinci yarısında yaradıcıs idi. Mustafa Kamal Atatürk türklərin istiqlal milli ideyasının XX əsrdə yaradıcısı və əsas daşıyıcısı kimi, Mahatma Qandi isə Hindistanın azadlığı ideyasınını yaradıcısı kimi qəbul edilir.

Azərbaycan üçün XXI əsrin çox çətin şərtləri altında ərazi bütövlüyünü bərpa etmək, sözün həqiqi mənasında, bu milli ideyanın yaradıcısını və daşıyıcısını tələb edirdi. Vurğulanan anlamda məsələnin mahiyyəti ondan ibarətdir ki, sağlam, ədalətli, özünəinamlı, ruh yüksəkliyinə malik və nikbin cəmiyyətdə toplumsal maraqları ifadə edə bilən şəxsiyyət – lider olmalıdır. Məhz həmin liderin fəaliyyəti sayəsində vurğulanan müsbət toplumsal keyfiyyətlər potensialdan aktuallığa çevrilə bilir, yəni sosial praktika vasitəsilə tarixi reallığa çevrilir. Bu gerçəklikləri Prezident İlham Əliyevin aşağıdakı fikirləri çox gözəl ifadə edir: "Ona görə ədalətə inanmaq üçün əsas olmalıdır. Onu da biz hamımız bilməliyik ki, ədalət özü-özünə gəlmir, ədaləti sən gərək təmin edəsən".

Beləliklə, Azərbaycan üçün milli ideyanın reallaşması kontekstində tarixi ədalətin bərpası bir sıra faktorların mövcudluğunu zəruri etmişdir. Tarixi ədalətin bərpası baxımından bunun iki məqamı önəmli olmuşdur. Birincisi, tarixi ədaləti təmin edə bilən şəxsiyyət-liderin mövcudluğu, ikincisi, sağlam cəmiyyət ("azad və güclü multikultural vətəndaş cəmiyyəti" mənasında). Lider azad və güclü multikultural cəmiyyəti formalaşdırmaqla onun ədalətə inamını bərpa edir və bununla da müəyyən edilmiş prinsiplər üzrə milli ideyanın reallaşması üçün "sağlam təməl fəaliyyət sahəsi" yaradır. Eyni zamanda, "sağlam təməl fəaliyyət sahəsi"nin başqa bir vacib komponentinin – milli qürur hissinin formalaşması üçün münbit və stimulverici şərait formalaşır.

(ardı var)

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

---

**Otuz ildən çox bizi birləşdirən milli ideya – erməni işğalına son qoyulması və ölkəmizin ərazi bütövlüyünün bərpası – hörmətli Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Milli Ordumuz tərəfindən gerçəkləşdirildi. Şəhidlərimizin qanı yerdə qalmadı, Azərbaycanın bütöv ərazisində suveren hüquqlarımız bərpa edildi.**

# Milli birliyimiz – düşmənlərə qarşı sipər



Bu gün bizi birləşdirən əsas ideya milli birlikdir. Avropa Parlamenti, AŞPA, ABŞ Konqresi, Dövlət Departamenti, Fransa Senatı, Almaniya ölkəmizə qarşı xoşagəlməz addımlar atırlar. Tarixi şəraitin özü, xalqımızın beynəlxalq arenada üzləşdiyi ədalətsizlik və ikili standartlar, indiyəcən məruz qaldığı çətin sınaqlar milli birlik ideyasını bizə diktə edir. Yalnız vahid xalq olaraq və güclü lider ətrafında birləşərək, əsrlərlə arzusunda olduğumuz azad, güclü, firavan, çiçəklənən Azərbaycan qura bilərik. Qarşıda bizi böyük hədəflər gözləyir: dövlətimizin müstəqilliyini möhkəmləndirmək, azad edilmiş əraziləri bərpa etmək, böyük qayıdışı tamamilə gerçəkləşdirmək, sosial-iqtisadi inkişafı sürətləndirərək Azərbaycanı qabaqcıl ölkəyə çevirmək.

Əlbəttə, demokratik və plüralist cəmiyyətdə, çoxpartiyalılıq şəraitində siyasi mübarizə, siyasi maraqların toqquşması, ideoloji və taktiki fikir ayrılıqları təbii haldır. Lakin ümummilli ideya baxımından ən mühüm məsələ, fəlsəfi dillə desək, mübarizə edən əksliklərin vəhdətini qorumaqdan, yəni siyasi ehtirasların cəmiyyətimizi parçalamasına imkan verməməkdən, mübarizə və müzakirələrin konstruktiv məcrada aparılmasına nail olmaqdan ibarətdir. Müasir sivil dünyada bərqərar olmuş parlament quruluşunun özü də məhz bu zərurətdən doğmuşdur və bunu tələb edir.

Biz daxili problemlərin həllinə siyasi şüar və bəyanatlarla deyil, sosial-iqtisadi məsələlərin çözümünü təmin edəcək hüquqi baza və mexanizmlərin işlənib hazırlanması ilə nail ola bilərik. Bu da son nəticədə cəmiyyətin ahəngdar inkişafının başlıca şərti kimi sosial ədalətin bərqərar olması ilə nəticələnməlidir.

Son illərdə ölkəmizin qazandığı böyük nailiyyətlərdən biri də, heç şübhəsiz, nəhəng səylər bahasına əldə olunmuş siyasi sabitlikdir. Bəşəriyyətin tarixi belə bir mühüm həqiqəti ortaya qoymuşdur: müdrik dövlət xadimi o kəsdir ki, cəmiyyətdəki stabilliyi qorumağa, onun xaos və hərc-mərclik girdabına yuvarlanmasına imkan verməmən müxtəlif islahatlar aparmağı bacarır. Möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev bu illər ərzində məhz belə bir müdriklik və məharət nümayiş etdirmişdir. Hesab edirəm ki, bu sabitliyi qorumaq, əslində, hər bir vətəndaşın borcudur. Odur ki, mövcud ictimai-siyasi sabitliyi hər vəchlə qorumağı, milli birliyin pozulmasına səbəb ola biləcək bütün cəhdlərə qarşı qətiyyətlə mübarizə aparmağı birinci dərəcəli vəzifə kimi əsaslı qoymalıyıq. Birlik və həmrəyliyimizin sarsılmazlığını təmin etmək üçün konstruktiv qüvvələrlə dialoq və əməkdaşlığı inkişaf etdirmək, vətəndaş həmrəyliyinin və milli birliyin həmişəlik bərqərar olmasına çalışmaq, ölkədə mülki cəmiyyətin möhkəm əsaslarının qurulmasına nail olmaq lazımdır. Bunlar həyata keçərsə, milli birliyimizin pozulmasına yönəlmiş cəhdlər təkcə dövlət strukturlarının deyil, bütövlükdə, cəmiyyətin müqaviməti ilə rastlaşar və təbii ki, uğursuzluğa düçar olar.

Bəllidir ki, ölkədə sabitliyin qorunmasında daxili amillərlə yanaşı, xarici faktorlar da mühüm rol oynayır. Odur ki, ölkəmizin müstəqilliyinin möhkəmlənməsinə və beynəlxalq birliyə daha six inteqrasiyasına yönəlmiş tarazlaşdırılmış xarici siyasət xətti dönmədən inkişaf etdirilməlidir.

Bu gün Azərbaycan ictimaiyyətini düşündürən məsələlər içərisində ikisi xüsusi əhəmiyyətə malikdir. Qazandığımız nailiyyətlər və ərazi bütövlüyümüzün bərpası arxayınlıq doğurmamalı, Milli Ordumuzun döyüş qabiliyyətinin ar-tırılması istiqamətində fəaliyyət daim gücləndirilməlidir. Necə deyərlər, "sülh istəyirsənsə, müharibəyə hazır olmalısan!".

Sosial ədalətə yönəlmiş hüquqi mexanizmlərin işlənməsi ölkəmizdə azad vətəndaş cəmiyyətinin qurulması üçün etibarlı bünövrə rolunu oynayacaqdır ki, bu da dövlətimiz üçün strateji bir vəzifədir. Göstərilən vəzifələrin yerinə yetirilməsi üçün xalqın bütün təbəqələri 7 fevral Prezident seçkilərində olduğu kimi, Vətənimizin cari və strateji maraqlarını təmin etmək qüdrətində olan güclü liderimiz, mahir diplomat, böyük qurucu şəxsiyyət, Qarabağ fatehi İlham Əliyevin ətrafında birləşməli və bu milli birliyimizi bədxahlarımızın hər cür təcavüzkarlığı qarşısında möhkəm sipərə çevirməliyik.

*Gövhər BAXŞƏLİYEVA,*
*AMEA-nın vitse-prezidenti,*
*Şərqşünaslıq İnstitutunun*
*direktoru, akademik*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 77** **Bakı şəhəri, 8 fevral 2024-cü il**

***"Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və "Təsisçisi və ya redaksiyasının daimi yeri Azərbaycan Respublikasının hüdudlarından kənarda olan xarici dövri mətbu nəşrlərin Azərbaycan Respublikasında yayılması üçün razılığın verilməsi Qaydası haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 aprel tarixli 64 nömrəli Qərarının ləğv edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 5 may tarixli 176 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 yanvar tarixli 12 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Ümumtəhsil internat məktəblərinin nümunəvi Əsasnaməsi"nin 28-ci hissəsində "mətbuatda və digər kütləvi məlumat vasitələrində" sözləri "mediada, o cümlədən mətbuatda" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 23 mart tarixli 47 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 202 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin Əsasnaməsi"nin 4.6-cı bəndində "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada dərc etməklə (yayımlamaqla)" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 28 fevral tarixli 27 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 123 (Cild I) ilə təsdiq edilmiş "İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması Qaydaları"nın 2.2-ci bəndinin beşinci abzasının ikinci cümləsində "verilişlərindən" sözü "proqramlarından" sözü ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 5 iyul tarixli 92 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 583 (Cild I) ilə təsdiq edilmiş "Əmək şəraitinə və əmək funksiyasının xarakterinə görə əlavə məzuniyyət hüququ verən, zərərli və ağır istehsalatların, peşə və vəzifələrin Siyahısı"nın "İstehsalat, peşə və vəzifələrin adı" sütununda aşağıdakı dəyişikliklər edilsin:

4.1. "XXXI. Rabitə" bölməsinin 5-ci bəndində "verilişlərinin" sözü "proqramlarının" sözü ilə əvəz edilsin;

4.2. "XXXIII. Mədəniyyət müəssisələri, təşkilatları və idarələri" bölməsi üzrə:

4.2.1. "Kinostudiyalar, kinosurətiçıxaran istehsalat, kinofikasiya, kinoprokat, televiziya, radio və teatr-tamaşa müəssisələri" hissəsi üzrə:

4.2.1.1. 24-cü bənddə "Televerilişlərdə" sözü "Televiziya proqramlarında" sözləri ilə əvəz edilsin;

4.2.1.2. 47-ci bənddə "verilişləri" sözü "proqramları" sözü ilə əvəz edilsin;

4.2.1.3. 54-cü bənddə "Radiotelemərkəz (telemərkəzlər) və teleradio şirkətlərində radioverilişlərin" sözləri "Televiziya və radio proqramlarında" sözləri ilə əvəz edilsin;

4.2.1.4. 68-ci bənddə "Televiziya və radioverilişləri üzrə televiziya və radioverilişləri diktoru" sözləri "Televiziya və radio proqramları üzrə diktor" sözləri ilə əvəz edilsin;

4.2.1.5. 69-cu bənddə "radioverilişlərində" sözü "radio proqramlarında" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 noyabr tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 963 (Cild I) ilə təsdiq edilmiş "İşçilərə həftə ərzində 36 saatdan çox olmayan, qısaldılmış iş vaxtı müəyyən edilən əmək şəraiti fiziki, kimyəvi, bioloji və habelə insanın sağlamlığı üçün zərərli olan digər ağır istehsalat amilləri mövcud olan əmək şəraitli istehsalatların, peşə və vəzifələrin Siyahısı"nın "İstehsalatların, peşə və vəzifələrin adı" sütununun "XXIX. MƏDƏNİYYƏT MÜƏSSİSƏLƏRİ, TƏŞKİLATLARI VƏ İDARƏLƏRİ" bölməsinin "Kinostudiyalar, kino surəti çıxaran istehsalat, kinofikasiya, kinoprokat, televiziya, radio və teatr-tamaşa müəssisələri. Bədii-istehsal heyəti" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1-ci bənddə "verilişləri üzrə televiziya və radio verilişləri" sözləri "proqramları üzrə" sözləri ilə əvəz edilsin;

5.2. 2-ci bənddə "verilişlərində" sözü "proqramlarında" sözü ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 mart tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 254 (Cild I) ilə təsdiq edilmiş "Dövlət sirrinin yayılmasının qarşısının alınması Qaydası"nın 3-cü hissəsinin ikinci abzasında, 5-ci hissəsinin birinci abzasında və 6-cı hissəsinin birinci cümləsində "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 7 iyun tarixli 101 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 537 (Cild I) ilə təsdiq edilmiş "Şəkərli diabet üzrə Dövlət Proqramı"nın "Giriş" bölməsinin beşinci abzasında "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

**8.** "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 18 iyun tarixli 106 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 542 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 1-1-ci hissə ləğv edilsin;

8.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsi" üzrə:

8.2.1. 2.1.2-ci yarımbənddə "teleradio" sözü "audiovizual rəqəmli yayım" sözləri ilə əvəz edilsin;

8.2.2. 2.1.5-ci yarımbənddə "verilişlərinin" sözü "proqramlarının" sözü ilə əvəz edilsin;

8.2.3. 2.1.6-cı və 4.1.5-ci yarımbəndlərdən "(verilişlərin)" sözü çıxarılsın;

8.2.4. 2.1.8-ci yarımbənddə "Televiziya və radio yayımı haqqında" sözləri "Media haqqında" sözləri ilə əvəz edilsin;

8.2.5. 3.1.1-ci yarımbənddə "verilişlərini" sözü "proqramlarını" sözü ilə əvəz edilsin;

8.2.6. 3.1.5-ci yarımbənddə "verilişləri fondu üçün proqramların çəkilişini" sözləri "proqramları fondu üçün çəkilişi" sözləri ilə əvəz edilsin;

8.2.7. 3.1.9-cu və 4.1.3-cü yarımbəndlərdə "verilişləri" sözü "proqramları" sözü ilə əvəz edilsin;

8.2.8. 3.1.15-ci yarımbənddə "verilişlər" sözü "proqramlar" sözü ilə əvəz edilsin;

8.2.9. 3.1.17-ci və 4.1.7-ci yarımbəndlərdə "teleradio" sözü "televiziya və radio" sözləri ilə əvəz edilsin;

8.2.10. 3.1.18-ci və 4.1.2-ci yarımbəndlərdə "teleradio verilişlərinin" sözləri "televiziya və radio proqramlarının" sözləri ilə əvəz edilsin;

8.2.11. 4.1.17-ci yarımbənddə "verilişlərinin proqramının" sözləri "proqramlarının" sözü ilə əvəz edilsin;

8.2.12. 4.1.18-ci yarımbənddə "teleradio məhsullarını" sözləri "audiovizual məhsullar" sözləri ilə əvəz edilsin;

8.2.13. 4.1.22-ci yarımbənddə "teleradio məhsulları" sözləri "audiovizual məhsullar" sözləri ilə əvəz edilsin.

**9.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 12 yanvar tarixli 8 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 39 (Cild I) ilə təsdiq edilmiş "İnsan alveri qurbanlarına kömək Fondu haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

9.1. 2.3-cü bənddə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

9.2. 5.2-ci bəndin ikinci cümləsində "kütləvi informasiya vasitələrinə" sözləri "media subyektlərinə" sözləri ilə əvəz edilsin.

**10.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 18 yanvar tarixli 16 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 47) ilə təsdiq edilmiş "Qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Dövlət Proqramı"nın "Dövlət Proqramı çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan Tədbirlər" bölməsinin "III. Qanın və qan komponentlərinin donorluğunun təbliği" hissəsinin 8-ci sətrinin "Tədbirin adı" sütununda "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə, "verilişlərin" sözü "proqramların" sözü ilə əvəz edilsin.

**11.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 16 fevral tarixli 50 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 198 (Cild I) ilə təsdiq edilmiş "Təbii fəlakət, qəza və digər fövqəladə vəziyyətlər zamanı qanın, qan komponentlərinin donorluğunun təşkili Qaydası"nın 3-cü hissəsində "kütləvi və digər informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

**12.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 19 iyul tarixli 177 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 644 (Cild I) ilə təsdiq edilmiş "Yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı"nın "Tədbirlər Proqramının həyata keçirilməsi Planı" bölməsinin 7-ci sətrinin "Tədbirin adı" sütununda "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin" sözləri ilə, "İcraçılar" sütununda "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

**13.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 23 yanvar tarixli 12 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 56 (Cild I) ilə təsdiq edilmiş "Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı"nın "33. İncəsənətin xüsusi sahələri" hissəsinin yeddinci abzasında "teleradio verilişlərinin" sözləri "televiziya və radio proqramlarının" sözləri ilə, səkkizinci abzasında "teleradionun" sözü "televiziya və radionun" sözləri ilə əvəz edilsin.

**14.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 1 fevral tarixli 22 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 182 (Cild I) ilə təsdiq edilmiş "Radiotezliklərin ayrılması, qeydiyyatı, istifadəsi və ödənişlərin təyin olunması Qaydaları"nın 1.9-cu bəndində "teleradio" sözü "televiziya və radio" sözləri ilə əvəz edilsin.

**15.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 8 oktyabr tarixli 160 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 10, maddə 1020 (Cild I) ilə təsdiq edilmiş "Atçılığın inkişafı üzrə Proqram"ın "5. Proqramın icrasının monitorinqi və qiymətləndirilməsi" hissəsinin ikinci cümləsində "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

**16.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 29 noyabr tarixli 191 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 11, maddə 1189 (Cild I) ilə təsdiq edilmiş "Dövlət əmlakının (mənzil fondundan başqa) icarəyə verilməsi üçün icarə haqqının minimum məbləği"nin 2-ci hissəsinin "Qeyri-yaşayış sahələrinin təyinatı" sütununda "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

**17.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 13 iyun tarixli 138 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 6, maddə 590 (Cild I) ilə təsdiq edilmiş "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiya mərkəzlərinin yaradılması haqqında Əsasnamə"nin 2.1.2-ci yarımbəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**18.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 20 sentyabr tarixli 223 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 9, maddə 870 (Cild I) ilə təsdiq edilmiş "Kinematoqrafiya üzrə yüksək peşəkarlığa malik yerli kadrların ölkədə və ölkə xaricində hazırlanmasına dair Proqram"ın "5. Kinematoqrafiya üzrə yüksək peşəkarlığa malik yerli kadrların ölkədə və ölkə xaricində hazırlanmasına dair Proqram üzrə Tədbirlər Planı" hissəsinin 5-ci sətrinin "Tədbirlərin adı" sütununda "verilişlərin" sözü "proqramların" sözü ilə əvəz edilsin.

**19.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 3 sentyabr tarixli 131 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 735 (Cild I) ilə təsdiq edilmiş "İnsan alveri qurbanlarının müəyyən edilməsi Qaydaları (indikatorları)"nın 4.4.1-ci yarımbəndinin yeddinci abzasında "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**20.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 6 noyabr tarixli 174 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 11, maddə 935 (Cild I) ilə təsdiq edilmiş "İxrac məqsədli neft-qaz fəaliyyətinin həyata keçirilməsi ilə bağlı podratçılara və subpodratçılara xüsusi iqtisadi rejimin tətbiqi haqqında şəhadətnamənin verilməsi, müddətinin uzadılması və ləğv edilməsi Qaydaları"nın 2.15-ci bəndinin ikinci cümləsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə, 4.3-cü bəndində "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**21.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 695 (Cild I) ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nın 3.4-cü bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**22.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr tarixli 163 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 9, maddə 829 (Cild I) ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"nın 3.2.3-cü yarımbəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**23.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 26 noyabr tarixli 223 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 1050 (Cild I) ilə təsdiq edilmiş "2011-2015-ci illər üçün talassemiyanın müalicə və profilaktikası üzrə Tədbirlər Proqramı"nın "4. Proqram çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər"in 4.2-ci bəndinin "Tədbirin adı" sütununda "Kütləvi informasiya vasitələri ilə" sözləri "Mediada" sözü ilə əvəz edilsin.

**24.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 26 noyabr tarixli 225 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 1052) ilə təsdiq edilmiş "2011-2015-ci illər üçün yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı"nın "4. Proqram çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər"in 5.3-cü bəndinin "Tədbirlərin adı" sütununda "Kütləvi informasiya vasitələri ilə" sözləri "Mediada" sözü ilə, "İcraçılar" sütununda "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

**25.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 13 dekabr tarixli 233 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1115) ilə təsdiq edilmiş "2011-2015-ci illər üçün qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Tədbirlər Proqramı"nın "4. Proqram çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər"in 1.3-cü bəndinin "Tədbirin adı" sütununda "Kütləvi informasiya vasitələri ilə" sözləri "Mediada" sözü ilə əvəz edilsin.

**26.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 8, maddə 816 (Cild I) ilə təsdiq edilmiş "Dövlət orqanlarına, hüquqi və fiziki şəxslərə gömrük məsələləri üzrə məlumatların verilməsi Qaydaları"nın 2.4-cü bəndində "digər kütləvi informasiya vasitələrinin köməyi ilə" sözləri "media ilə" sözləri ilə əvəz edilsin.

**27.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 8, maddə 820 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 yanvar tarixli 16 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri"ndə aşağıdakı dəyişikliklər edilsin:

27.1. "II. Təhsil müəssisələrinin maddi-texniki təchizatına dair vahid normalar"ın 1.19-cu bəndinin birinci və üçüncü cümlələrində "verilişlərinə" sözü "proqramlarına" sözü ilə əvəz edilsin;

27.2. "III. Təhsil müəssisələrində ümumi sanitariya-gigiyena tələbləri" üzrə:

27.2.1. 1.6.22-ci yarımbəndin birinci cümləsində "verilişlərinin" sözü "proqramlarının" sözü ilə, ikinci cümləsində "verilişlərinə" sözü "proqramlarına" sözü ilə, dördüncü cümləsində "veriliş" sözü "proqram" sözü ilə əvəz edilsin;

27.2.2. 1.6.23-cü yarımbəndin birinci cümləsində "verilişlərinin" sözü "proqramlarının" sözü ilə əvəz edilsin;

27.3. 31 nömrəli cədvəldə "verilişləri" sözü "proqramları" sözü ilə əvəz edilsin.

**28.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 19 oktyabr tarixli 237 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 10, maddə 1018 (Cild I) ilə təsdiq edilmiş "Dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin gömrük hərraclarında satılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

28.1. 2.3-cü bəndin birinci cümləsində və 3.3-cü bənddə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

28.2. "Qeyd" ləğv edilsin.

**29.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 15 yanvar tarixli 3 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının hava məkanından istifadə Qaydaları"nın 4.48-ci bəndinin üçüncü cümləsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**30.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 14 mart tarixli 44 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 3, maddə 337 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsi Qaydaları"nın 3.5-ci bəndində "digər kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**31.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 2 sentyabr tarixli 245 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 9, maddə 1125 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 yanvar tarixli 7 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Malların müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

31.1. 7.2.2.1-ci yarımbənddə "proqramlar üçün verilişlərin" sözləri "proqramların" sözü ilə əvəz edilsin;

31.2. "Qeyd" ləğv edilsin.

**32.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 fevral tarixli 37 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 192) ilə təsdiq edilmiş "İnsan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası üzrə Proqram"ın "4. İnsan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası üzrə Proqramın həyata keçirilməsi ilə bağlı 2014-2016-cı illər üçün Tədbirlər Planı"nın 4.3.1-ci yarımbəndinin "Tədbirlərin adı" sütununda "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**33.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 18 fevral tarixli 48 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 203; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 yanvar tarixli 7 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Tikinti layihəsinin texnologiya bölməsinin hazırlanması tələb olunan hallar"ın 1.29.4-cü yarımbəndində "verilişlərinin" sözü "proqramlarının" sözü ilə əvəz edilsin.

**34.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 dekabr tarixli 377 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1575 (Cild I) ilə təsdiq edilmiş "Dövlət Toxum Fonduna toxumun tədarükü, saxlanılması və istifadəsi Qaydaları"nın 2.2-ci bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**35.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 28 yanvar tarixli 15 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 358 (Cild I) ilə təsdiq edilmiş "2016-2020-ci illər üçün şəkərli diabet xəstəliyi üzrə Dövlət Proqramı"nın "4. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" bölməsinin 4.4.1-ci yarımbəndinin "İcraçı təşkilatlar" sütununda "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

**36.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 2 mart tarixli 100 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 773 (Cild I) ilə təsdiq edilmiş "Qaçan sətirlə yayımlanan reklamın təqdimolunma Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

36.1. 1.2-ci bənddən, 2-ci hissənin adından, 2.1-ci və 2.10-cu bəndlərdən "(verilişlərində)" sözü çıxarılsın;

36.2. 2.2-ci bənddən "(verilişinin)" sözü çıxarılsın;

36.3. 2.8-ci bənddən "verilişlərdə" sözü çıxarılsın;

36.4. 2.9-cu bənddə "verilişlərində" sözü "proqramlarında" sözü ilə əvəz edilsin və həmin bənddən "(verilişlərdə)" sözü çıxarılsın.

**37.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 noyabr tarixli 481 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1969 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 yanvar tarixli 10 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə vergi orqanlarına məlumat göndərilməli olan icazələrin Siyahısı"nın 14-cü hissəsi ləğv edilsin.

**38.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 23 may tarixli 218 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 989) ilə təsdiq edilmiş "Mühüm balıqçılıq su obyektlərinin siyahısı və sudan istifadənin məhdudlaşdırılması Qaydası"nın 2.7-ci bəndində "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

**39.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 14 iyun tarixli 258 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1233 (Cild I) ilə təsdiq edilmiş "Təhsildə inkişaf və innovasiyalar üzrə qrantların məbləği və ayrılması şərtləri, o cümlədən vəsaitlərin verilmə prosedurları, monitorinqin aparılması, hesabat və qiymətləndirmə üzrə tələblər"in 1.3-cü bəndinin ikinci cümləsində və 3.1-ci bəndində "digər kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

**40.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli 442 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1904 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və elmi-texniki potensialının artırılması məqsədilə, habelə dövlət və ictimai əhəmiyyətli məqsədlərlə əlaqədar Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın 3.2.7-ci yarımbəndindən "təsisçisi olduğu və ya idarəetməsində olan kütləvi informasiya vasitələrinə, o cümlədən" sözləri çıxarılsın.

**41.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 1 may tarixli 192 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 1103) ilə təsdiq edilmiş "Tütündən istifadənin zərəri və ətraf mühitdəki tütün tüstüsünün ziyanlı təsiri barədə əhalinin maarifləndirilməsinin əsas istiqamətləri və üsulları"nın 3.1.3-cü yarımbəndində "kütləvi informasiya vasitələrində, o cümlədən" sözləri "mediada, habelə" sözləri ilə əvəz edilsin.

**42.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 yanvar tarixli 17 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə"də aşağıdakı dəyişikliklər edilsin:

42.1. "222410. "İcarə və muzdlu xidmətlər" maddəsində "verilişlərin" sözü "proqramların" sözü ilə əvəz edilsin;

42.2. "222920. "İstehlakyönlü müxtəlif xidmətlər" maddəsində "verilişləri" sözü "proqramları" sözü ilə əvəz edilsin.

**43.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 31 oktyabr tarixli 470 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2183) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Dəstək tədbirlərində iştirak edəcək ixracatçıların seçilməsi üçün müsabiqənin təşkili və keçirilmə Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

43.1. 2.9-cu və 2.11-ci bəndlərdə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

43.2. həmin Qaydaya 10 nömrəli əlavə - "Dəstək tədbirlərində iştirak edəcək ixracatçıların seçilməsi üçün müsabiqənin nəticələri haqqında müsabiqə komissiyasının Protokolu"nun 3-cü hissəsində "kütləvi informasiya vasitəsinin" sözləri "media subyektinin" sözləri ilə əvəz edilsin.

**44.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 mart tarixli 102 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 536 (Cild I) ilə təsdiq edilmiş "Peşə təhsili müəssisələrinə qəbul Qaydası"nın 1.9-cu bəndində və 4.6-cı bəndinin birinci cümləsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**45.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 9 iyul tarixli 293 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1316) ilə təsdiq edilmiş "Məşğulluğa kömək göstərən əlaqələndirmə komitələrinin Əsasnaməsi"nin 3.1.9-cu yarımbəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**46.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 30 iyul tarixli 335 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1357 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 24 yanvar tarixli 41 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

46.1. 1.1-ci bənddə "kütləvi informasiya vasitələrində" sözləri "media məhsullarında" sözləri ilə əvəz edilsin;

46.2. 2.2.2-ci yarımbənddə "verilişlərdə" sözü "proqramlarda" sözü ilə, "elektron kütləvi informasiya vasitələrində" sözləri "onlayn media məhsullarında" sözləri ilə əvəz edilsin;

46.3. 2.2.3-cü yarımbənddə "elektron kütləvi informasiya vasitələrində" sözləri "onlayn media məhsullarında" sözləri ilə əvəz edilsin;

46.4. 3.1.3-cü yarımbənddə "kütləvi informasiya vasitələrində" sözləri "media subyektlərində" sözləri ilə əvəz edilsin.

**47.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 avqust tarixli 343 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1450 (Cild I) ilə təsdiq edilmiş "Özünüməşğulluğa cəlb olunmuş şəxsdən geri alınmış əmlakın açıq hərracda satılması Qaydası"nın 3.1-ci bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**48.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 sentyabr tarixli 418 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1572 (Cild I) ilə təsdiq edilmiş "Kitabxanaların çap məhsullarının pulsuz məcburi nüsxələri ilə təchizatı Qaydası"nın 1.2-ci bəndində "Kütləvi informasiya vasitələri haqqında" sözləri "Media haqqında" sözləri ilə əvəz edilsin.

**49.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 2 oktyabr tarixli 425 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 10, maddə 1672 (Cild I) ilə təsdiq edilmiş "Ətraf mühitə təsirin qiymətləndirilməsi və strateji ekoloji qiymətləndirmə sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 4.2.2-ci yarımbəndində "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

**50.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 aprel tarixli 140 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 4, maddə 487 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 3 fevral tarixli 66 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Orta ixtisas təhsili üzrə ixtisasların Təsnifatı"nın "5. Texniki və texnoloji ixtisaslar qrupu" hissəsinin 5.68-ci bəndinin "İxtisasların şifri və adı" sütununda "Teleradioyayım" sözü "Televiziya və radio yayımı" sözləri ilə əvəz edilsin.

**51.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 iyun tarixli 226 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 816) ilə təsdiq edilmiş "Məhkəmə ekspertinin etik davranış kodeksi"nin 2.13.1-ci yarımbəndində "kütləvi informasiya vasitələrində, o cümlədən" sözləri "mediada," sözü ilə əvəz edilsin.

**52.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 sentyabr tarixli 364 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1236) ilə təsdiq edilmiş "Mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi Qaydası"nın 1.5-ci bəndində "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**53.** "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə yaradılmış Dövlət Komissiyasının fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 12 oktyabr tarixli 390 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 10, maddə 1217) 2.2.6-cı yarımbəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**54.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 31 iyul tarixli 251 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 7, maddə 1090) ilə təsdiq edilmiş "Ödənişli arxiv xidmətlərinin siyahısı və onların göstərilməsinə görə xidmət haqlarının məbləği"nin 2.3.11-ci yarımbəndinin "Xidmətin adı" sütununda "verilişləri" sözü "proqramları" sözü ilə əvəz edilsin.

**55.** "Təsisçisi və ya redaksiyasının daimi yeri Azərbaycan Respublikasının hüdudlarından kənarda olan xarici dövri mətbu nəşrlərin Azərbaycan Respublikasında yayılması üçün razılığın verilməsi Qaydası haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 aprel tarixli 64 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 310 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Orta Dəhliz Gündoğandan Günbatana bir dünya yoludur

## *Ölkəmiz bu qlobal layihənin inkişafına sadiqlik nümayiş etdirir*

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin məlumatına əsasən, Orta Dəhlizin inkişafı istiqamətində ölkəmiz bu gün dəniz, dəmir, avtomobil yolları, hava nəqliyyatı ilə bağlı genişmiqyaslı layihələr həyata keçirir. Bu isə uzunmüddətli strategiyanın nəticəsi olaraq respublikamızın nəqliyyat və logistika dəhlizinə çevrilməsini şərtləndirir.**

İndiyədək görülən işlərə diqqət yetirsək deyə bilərik ki, son 20 ildə Azərbaycanda 19 min kilometr avtomobil, 1400 kilometr dəmir yolu tikilib və ya əsaslı təmir edilib. 2017-ci ildə istifadəyə verilən və Orta Dəhliz vasitəsilə daşımalarda mühüm önəm daşıyan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ötürücülük qabiliyyətinin daha da artırılması üçün əlavə infrastruktur tədbirlərinin hazırlanmasına başlanılıb. Bundan əlavə, əsas dəmir və avtomobil yolları şəbəkələrinin kəsişməsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ötürmə qabiliyyətini artıracaq növbəti mərhələnin tikintisi planlaşdırılıb.

Azərbaycanın beynəlxalq ticarət bazarında rolunun gücləndirilməsi məqsədilə, həmçinin Ələt Azad İqtisadi Zona (ƏAİZ) yaradılıb. Bu iqtisadi zonanın yaradılmasında əsas məqsəd yüksək gəlirli istehsal, ixrac fəaliyyəti və innovativ texnologiyalarla investorların cəlb edilməsi, iqtisadiyyatın dayanıqlı inkişafı və yeni iş yerlərinin yaradılmasına töhfə vermək olub.

Orta Dəhlizin səmərəli fəaliyyəti həm də güclü nəqliyyat infrastrukturu ilə bağlıdır. Ölkəmizdə bu istiqamətdə də mühüm layihələr həyata keçirilir. Hazırda Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin layihə hissəsində müvafiq işlər aparılır. Tikinti işləri başa çatdıqdan sonra dəmir yolu xəttinin ötürücülük qabiliyyətinin artacağı gözlənilir.

Orta Dəhlizin tərkib hissəsi olacaq və Azərbaycanı qardaş Türkiyə ilə birləşdirəcək Qars-Naxçıvan dəmir yolu xəttinin tikintisi üzrə işlər də uğurla aparılır. Qeyd edək ki, nəzərdə tutulan dəmir yolu xəttinin uzunluğunun 224 kilometr təşkil edəcəyi planlaşdırılır. Türkiyə tərəfindən isə bu dəmir yolu xəttinin 5 il ərzində istifadəyə verilməsi nəzərdə tutulur.

Qarabağ bölgəsində işğalçıdan təmizlənən ərazilərdə Horadiz-Ağbənd dəmir və avtomobil yollarında tikinti işləri də davam etdirilir, sözügedən layihənin yaxın vaxtlarda başa çatdırılması gözlənilir. Horadiz-Ağbənd dəmir yolu xəttinin Qars-Naxçıvan (Osmanlı-Horadiz-Ağbənd-Naxçıvan-Qars) dəmir yolu ilə birləşdirilərək Azərbaycanın tranzit qovşağının formalaşmasında mühüm rol oynayacağı bildirilir.

Bundan əlavə "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu" çərçivəsində Zəngilan rayonunun Ağbənd kəndi yaxınlığında avtomobil körpüsünün və sərhəd-gömrük infrastrukturunun tikintisinə başlanılıb.




Onu da xatırladaq ki, ötən il martın 17-də Azərbaycan–Rusiya sərhədində yenidən qurulan "Xanoba" buraxılış məntəqəsinin açılış mərasimi olub. Həmin keçid məntəqəsindən hər iki istiqamət üzrə 550-dən çox yük maşını, 1000-dən çox minik avtomobili, 30-dan çox avtobus və 5000-dək fiziki şəxsin keçəcəyi planlaşdırılıb.

Bundan əlavə, Orta Dəhlizə malların cəlb edilməsi və sabit dövriyyənin təmin olunması üçün də mühüm işlər görülüb ki, bunlara dövlət başçısının 23 noyabr 2023-cü il tarixli müvafiq Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024−2026-cı illər üçün Fəaliyyət Planı" daxildir. Fəaliyyət Planı beynəlxalq yük daşımaları sahəsində bir sıra mühüm islahatları özündə ehtiva edir. Dəhlizin infrastrukturunun təkmilləşdirilməsi, özəl şirkətlər və prosesdə iştirak edən dövlət qurumları arasında koordinasiyanın müasirləşdirilməsi, prosedurların vahid rəqəmsal platformada tətbiqi, eləcə də normativ-hüquqi bazanın sadələşdirilməsi və beynəlxalq qaydalara uyğunlaşdırılması – bütün bunlar ölkəmizin Avrasiyada qitələrarası ticarət münasibətlərində mühüm nəqliyyat əlaqəsini təşkil edən strateji tərəfdaşa çevrilməsinə böyük töhfə verəcək.

Diqqətə çatdırılmalı məsələlərdən biri də nəqliyyat əməliyyatlarının rəqəmsallaşdırılması ilə bağlı addımların atılmasıdır. Bu istiqamətdə nəqliyyat və logistika sahəsində fəaliyyətin şəffaflığını və sadələşdirilməsini təşviq etməklə proqnozlaşdırmanın, o cümlədən "ağıllı" yüklərin idarə edilməsinin səmərəliliyini, operativliyini və keyfiyyətini artıracaq Rəqəmsal Nəqliyyat Logistika İnformasiya Sistemi hazırlanır. Bu sistem gələcəkdə hazırda bərpa və islahat prosesindən keçən Gömrük Xidmətinin "bir pəncərə" proqramının daxil edilməsini nəzərdə tutur.

Dövlət Gömrük Komitəsi proseslərin səmərəliliyinin və müasirliyinin artırılmasına yönəlmiş gömrük əməliyyatlarının sadələşdirilməsi və rəqəmsallaşdırılması təşəbbüslərini fəal şəkildə həyata keçirir.

Son olaraq qeyd edək ki, Azərbaycan qlobal nəqliyyat infrastrukturunun ayrılmaz elementi kimi çıxış edir və onun qlobal iqtisadiyyata təsirinin nə qədər vacib olduğunu bildirir. Ölkə nəqliyyat imkanlarını fəal şəkildə inkişaf etdirir, regionun əsas nəqliyyat mərkəzinə çevrilməyə çalışır ki, bu da nəticədə milli iqtisadiyyatın yüksəldilməsinə və beynəlxalq ticarətdə çəkisinin artmasına xidmət edəcək. Belə bir sürətli tərəqqi isə təkcə strateji coğrafi mövqe ilə deyil, həm də Azərbaycanın həyata keçirdiyi mühüm nəqliyyat layihələri ilə diqqət çəkir.

***Vaqif BAYRAMOV***
***XQ***



## Hacıqabul Sənaye Məhəlləsi 14 sahibkarlıq subyektini əhatə edir

**Ötən il İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Hacıqabul Sənaye Məhəlləsində 118 milyon manat dəyərində məhsul istehsal edilib ki, bu da 2022-ci illə müqayisədə, təxminən, 3,1 dəfə çoxdur. Bununla da, adı çəkilən sənaye məhəlləsində məhsul istehsalının ümumi dəyəri 162 milyon manatı keçib.**

İZİA-nın məlumatına görə, ötən müddətdə sahibkarlar sənaye məhəlləsinə 45,6 milyon manat investisiya yatırıblar, 220-dən çox daimi iş yeri yaradıblar. Yaxın gələcəkdə isə mövcud layihələr üzrə əlavə 119 milyon manat investisiya yatırılması və 1500-dən artıq daimi iş yerinin yaradılması planlaşdırılır.

Qeyd edək ki, Hacıqabul Sənaye Məhəlləsində ümumi investisiya dəyəri 164,5 milyon manat olan 14 sahibkarlıq subyekti rezident kimi qeydiyyatdan keçib. Artıq onların 9-u fəaliyyətə başlayıb. Sənaye məhəlləsinin rezidentləri minik avtomobillərinin, nəqliyyat vasitələri üçün əyləc bəndlərinin, istilik izolyasiya məhsullarının, plastik qabların, tikinti materiallarının, plastik taraların istehsalı və s. sahələr üzrə ixtisaslaşıb.

## İnflyasiya proqnozu aşağı düşüb

**Niderlandın "ING Group" şirkətinin mediada yaydığı məlumata əsasən, bu qurum Azərbaycanda 2024-cü il üçün orta illik inflyasiyanın 4,5 faiz, 2025-ci ildə 5,6 faiz olacağını proqnozlaşdırır.**

Proqnozlara əsasən, 2024-cü ilin birinci rübündə Azərbaycanda orta illik inflyasiya 6 faiz, ikinci rübdə 1,9 faiz, üçüncü rübündə isə 4,3 faiz səviyyəsində gözlənilir.

Yeri gəlmişkən, Birləşmiş Millətlər Təşkilatının proqnozlarına görə, bu il Azərbaycanda orta illik inflyasiya 5,9 faiz təşkil edəcək, 2025-ci ildə isə 3,9 faizədək azalacaq.

Beynəlxalq Valyuta Fondu bu il Azərbaycanda orta illik inflyasiyanın 4,7 faizə qədər azalacağını, 2025-ci ildə 5 faiz olacağını proqnozlaşdırır.




Dünya Bankının qiymətləndirmələrinə görə, respublikamızda orta illik inflyasiya 2024-ci ildə 5,8 faiz, 2025-ci ildə 5,2 faiz təşkil edəcək.

Azərbaycan İqtisadiyyat Nazirliyi isə 2024-cü ildə ölkədə illik inflyasiyanın 5,3 faiz, 2025-ci ildə 4,9 faiz olacağını gözləyir.

## 1 ayda – 615 min ton tranzit yük

**Bu ilin yanvar ayında Çinin Sian vilayətindən Azərbaycan istiqamətində 3-ü tranzit, 7-si idxal yükü olmaqla 10 konteyner blok qatar yola salınıb**



"Azərbaycan Dəmir Yolları" (ADY) QSC-dən bildirilib ki, tranzit rejimində göndərilən blok qatarlardan biri Çin–Qazaxıstan sərhədindən yola düşdükdən 10 gün sonra Gürcüstan limanlarına çatdırılıb. Tranzit yüklər əsasən, texniki avadınlıqlardan ibarət olub və gəmilərdən birbaşa ADY qatarlarına boşaldılaraq Gürcüstanın Qara dəniz liman şəhəri Potiyə yola salınıb.

Qeyd edək ki, 2024-cü ilin yanvar ayında 615 min ton tranzit yükü daşınıb. Bu, son 10 ilin ən yüksək göstəricisidir.

İdxal yüklərin Çin–Qazaxıstan sərhədindən hərəkətə başladıqdan sonra multimodal daşınma vaxtı isə 8 gün təşkil edib. Yüklər gəmilərdən birbaşa ADY-nin blok qatarlarına yüklənərək aidiyyəti təyinat məntəqələrinə çatdırılıb.

Hazırda 4-ü idxal, 2-si tranzit olmaqla daha 6 konteyner blok qatar Çindən Azərbaycan istiqamətində hərəkət edir. İdxal yüklərin eyni qaydada 8, tranzit yüklərin isə 10 gün ərzində aidiyyəti təyinat məntəqələrinə çatdırılması planlaşdırılır.

***XQ***

# "Şəhərdən kəndə" – aqroturizm marşrutu

**Son illər ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlər qeyri-neft sektorunun inkişafını xeyli sürətləndirib. Bunun da nəticəsində ümumi daxili məhsulda, eləcə də ixracda sözügedən sahənin xüsusi çəkisi getdikcə artır. Hazırda Azərbaycanda qeyri-neft sektorunun prioritet sahələrindən olan turizmin inkişafına da xüsusi önəm verilir. Bu da təsadüfi deyil. Çünki ölkəmiz yüksək turizm potensialına görə daha çox diqqət çəkir. Elə bu səbəbdən də gəzinti və istirahət üçün Azərbaycanı seçən əcnəbi turistlərin sayı ildən-ilə artır.**

Ölkəmizə gələn turistlər isə paytaxt Bakı ilə yanaşı, gözəl təbiəti, tarixi-memarlıq abidələri və müasir infrastrukturu olan regionlarımıza da səfər edirlər. Azərbaycanın zəngin turizm potensialını aqrar sahə ilə əlaqələndirmək məqsədilə həyata keçirilən tədbirlər rayon və kəndlərimizin turizm potensialının üzə çıxarılması üçün yeni imkanlar yaradır. Bu mühüm amili nəzərə alan Kənd Təsərrüfatı Nazirliyi artıq bir neçə ildir ki, tərəfdaş qurumlarla birgə "Şəhərdən kəndə" adlı aqrar turizm layihəsini həyata keçirir.

Nazirliyin tabeliyində olan "Aqrar Tədarük və Təchizat" Açıq Səhmdar Cəmiyyəti tərəfindən həyata keçirilən bu layihə ölkəmizdə aqroturizmin inkişaf etdirilməsi və təsərrüfat sahibləri üçün əlavə gəlir imkanlarının yaradılmasına xidmət edir. Məlumat üçün bildirirk ki, sözügedən layihənin məqsədi ölkəmizdə aqroturizmin inkişaf etdirilməsi, regionlarda yaşayan əhalinin məşğulluğunun artırılması, yerli fermer təsərrüfatları üçün alternativ satış kanalı, eləcə də şəhər sakinləri və xarici turistlər üçün fərqli turizm imkanlarının yaradılmasıdır.

"Şəhərdən kəndə" layihəsinin uğurları ildən-ilə artır. Bu baxımdan 2023-cü ildə də layihə çərçivəsində yaddaqalan tədbirlər həyata keçirilib, bölgələrdə aqroturizmin inkişafı istiqamətində bir sıra uğurlara imza atılıb. Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, il ərzində Şabran, Qusar, Göygöl, Şamaxı, İsmayıllı, Qəbələ, Oğuz, Qax, Zaqatala və Balakən rayonlarında, ümumilikdə, 33 təsərrüfatın qiymətləndirilməsi həyata keçirilib. Bununla yanaşı, İsmayıllı, Zaqatala, Göygöl, Şamaxı, Oğuz, Qax, Lənkəran və Astara rayonları üzrə 9 aqroturizm təsərrüfatında abadlaşdırma işləri yekunlaşdırılıb.

Yeri gəlmişkən, "Şəhərdən kəndə" adlı aqroturizm layihəsi fermerlər üçün istehsal etdikləri məhsulları nümayiş etdirmək baxımından əla fürsətdir. Belə ki, layihəyə qoşulan fermer və təsərrüfat sahibləri istehsal etdikləri kompot, mürəbbə, turşu, arıçılıq məhsulları, quru meyvələr və digər təbii, orqanik məhsulları bölgələrdə təşkil edilən stendlərdə nümayiş



etdirməklə onların dequstasiyası və satışını həyata keçirmək imkanı qazanırlar.

Eyni zamanda, layihə ölkəmizdə aqroturizmin inkişafı, regionlarda yaşayan əhalinin məşğulluğunun artırılması, yerli fermer təsərrüfatları üçün alternativ satış kanalı, eləcə də şəhər sakinləri və xarici turistlər üçün fərqli turizm imkanlarının yaradılması baxımından önəmli tədbir kimi diqqət çəkir. Bunun nəticəsidir ki, layihəyə qoşulmaq istəyən fermerlərin sayı ildən-ilə artır.

Xatırladaq ki, layihədə iştirak üçün əsas meyar fəaliyyətlərində aqrar sahənin mövcudluğu, əraziyə qədər yolun rahatlığı, turistlər üçün istirahət imkanlarının müxtəlifliyi və təsərrüfat sahibinin turistlərlə rəftar baxımından malik olduğu şəxsi keyfiyyətləri nəzərə alınır. Eyni zamanda, əvvəl dəstək göstərilən "Lakeside Garden", "Tofiqoğlu bal", "Bio Garden", "Bal Evi", "EKO Zaqatala", "Hope lake", "Sitrus vadisi", həmçinin Quba rayonunun Qımılqazma kəndində yerləşən təsərrüfatlarda təmirdən sonra monitorinqlər keçirilib. Monitorinqin nəticələrindən məlum olub ki, ötən il 2019-cu illə müqayisədə aqroturizm istiqamətində regionlara turist axını 5 dəfə artıb. Layihənin icrasına başlanıldığı ötən müddətdə isə təsərrüfatlara səfər edən turistlərin ümumi sayı 230 min nəfərə çatıb.

2023-cü ildə dəstək göstərilən təsərrüfatlar üzrə turistlər üçün 8 aqrotur yaradılıb, aqroturların satış şəbəkəsinin genişləndirilməsi məqsədilə 53 turizm şirkətinin nümayəndələri üçün infoturlar təşkil edilib. İl ərzində, həmçinin təsərrüfat sahiblərinin "Şəhərdən kəndə" layihəsi barədə məlumatlılığını artırmaq məqsədilə ölkənin şimal-qərb, qərb, cənub və aran regionlarında təqdimatlar keçirilib. Bundan əlavə, Göygöl, Şamaxı, İsmayıllı, Qəbələ, Oğuz, Qax və Zaqatala rayonlarından olan 105 təsərrüfat sahibi aqroturizmlə bağlı keçirilən müxtəlif təlimlərə cəlb edilib. Aqroturizm təsərrüfatlarının tanıdılması məqsədilə fermerlərə media və marketinq dəstəkləri göstərilib, təsərrüfat sahələrində çəkilişlər aparılıb, mediatur və müsabiqələr təşkil edilib.

Ümumilikdə isə, ötən il layihə çərçivəsində 175 təsərrüfatdan 221 fermerə aqroturizmlə bağlı müxtəlif mövzularda təlimlər keçirilib. Təsərrüfat sahəsinin inkişaf etdirilməsi və turistlər üçün xidmət səviyyəsinin artırılması məqsədilə 22 təsərrüfatda abadlaşdırma işləri görülüb, müxtəlif avadanlıqlarla təmin edilib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

## İllik qaz hasilatı artıb

**2023-cü ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən 74 min metrə yaxın qazma işləri həyata keçirilib. Bu da 2022-ci illə müqayisədə 1,2 faiz çoxdur. Bu barədə SOCAR-ın 2023-cü ilin yekunları ilə bağlı hesabatında məlumat verilib.**

Bildirilib ki, ötən il şirkətin müstəqil şəkildə və ya əsas payçı qismində istismar etdiyi yataqlarda 7,7 milyon ton neft və 8,4 milyard kubmetr qaz hasil olunub. 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə neft hasilatı nisbətən sabit qalsa da, qaz istehsalında 4 faiz artım qeydə alınıb.

Bütövlükdə isə, 2023-cü ildə ölkə üzrə qaz hasilatında artım tendensiyası davam edib. Belə ki, "mavi yanacaq" hasilatı əvvəlki ilin göstəricisi ilə müqayisədə 3,3 faiz artaraq, 48,3 milyard kubmetr təşkil edib. Bununla yanaşı, il ərzində Azərbaycanda 30,1 milyon tondan çox xam neft hasil olunub.

***XQ***



Turan mədəniyyəti

# Türkmən xalqının musiqisi

### V yazı

**Elmi ədəbiyyatda “türkmən” etnoniminin yaranması ilə bağlı müxtəlif fərziyyələr irəli sürülür. Bəzi alimlər hesab edirlər ki, bu söz “türk” və “mən” sözlərinin birləşməsindən yaranmışdır, “mən türkəm” və ya “türk mənəm” mənasını verir. Digər mənbələrdə isə bu sözün “tərəkəmə” sözünün cəmi olan “tərəkəmun”dan meydana gəlməsinə, bəzilərində isə “türkəmənd” biçimində işlənməsinə rast gələ bilərik ki, bu da “türkəbənzər” deməkdir.**

Orta əsrlərdə Orta Asiyadan Balkanlara qədər ərazidə yaşayan türkdilli xalqlar, həm özləri, həm də başqaları tərəfindən türkmən (o cümlədən, azərbaycanlılar) adlandırılırdılar. İndi onların arasından yalnız Anadolu kəndlərində yaşayanların bir qismi, İraqda yaşayan türkmanlar, bir də Türkmənistanda yaşayanlar özlərinə türkmən deyir. Azərbaycanda bu söz “tərəkəmə” şəklində qalıb. “Tərakimə” ərəb sözüdür, “türkmənlər” deməkdir. Ərəb mənbələrində türkmənlərin Türkmənistan, Əfqanıstan və İranda yaşamış türkmən tayfası olduğu qeyd edilir.



Qısa haşiyəyə çıxaraq onu da vurğulamaq lazımdır ki, mühüm geosiyasi və iqtisadi mövqeyə malik olan İraq əhalisinin 20 faizi (müxtəlif mənbələrdə bu faiz dərəcəsi dəyişir) türkman adlandırılan əhalinin payına düşür. Özü də türkmanların dili daha çox azərbaycancaya yaxındır.

Türkmanlar barəsində İslam Ensiklopediyasında deyilir: “İraq türkmənləri, yəni oğuzcanın azəri türkcəsini danışan türklər”. Bəzən türk mənbələri türkmanların Osmanlı türklərinin bir qolu olduğu barədə fikir söyləyirlər. Həmçinin oxşarlıq kimi türkmanların dilində Osmanlı türklərinin leksikasına məxsus sözlərin olmasını göstərirlər. Ancaq türkman yazı dilində Osmanlı türkcəsinin elementləri özünü göstərməsinə baxmayaraq, xalq dilinə olan təsiri qüvvətli olmayıb. Bəzi fərqləri nəzərə almasaq, İraq türkmanlarının ləhcəsi Azərbaycan dilindən fərqlənmir. Bütün faktlar – dil, ənənə, musiqi, folklor, mətbəx, inanc və digər eynilik türkmanların məhz Azərbaycan türkləri olmasını təsdiq edir.



İraqda türkmanların məskunlaşdırılması eramızın VII əsrinə təsadüf edir. İlk zamanlar hərbi heyət olaraq Bağdadda xidmət edən türkmanlar sonradan ciddi nüfuz qazanmış və həmişəlik bu ölkədə qalmışlar. Xilafətin Səlcuq türklərinin təsiri altına keçməsindən sonra soydaşlarımızın siyasi, hüquqi və mədəni inkişafı dirçəlmişdir. Mosul (1127–1228), Ərbil (1144–1232) Atabəylikləri yaranmışdır. Xüsusilə, şimal əyalətlərindən İraqa köçürülüən türklərin vəziyyəti yaxşılaşmışdı. Tədricən Bağdad və onun ətrafında yerləşən ərazilər türkmanların nəzarətinə keçmişdir. Cəlayirlər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər dövründə İraq türkmanları bütün sahələrdə yüksək dövlət postlarında təmsil olunmuşdular. Türkmanların elm, ədəbiyyat, memarlıq, musiqi sahəsində uğurları artmağa başlamışdı.

VII əsrdə Türkmənistanın yerləşdiyi ərazi ərəblər tərəfindən işğal olundu və ərəblər Mərkəzi Asiyaya özləri ilə İslam dini ilə yanaşı, İslam mədəniyyətini də gətirdilər. Xəlifə Əl-Məmunun dövründə regionun mərkəzi Mərvə köçürüldü. Bu da ərazinin inkişafına geniş imkanlar açdı. XI-XIII əsrlərin ayrı-ayrı dövrlərində türkmən tayfaları Səlcuq imperiyası və Çingiz xan ulusu tərəfindən idarə olunurdu. XIV əsrdə bu ərazilərə Əmir Teymurun ordusu yürüşlər edirdi. XVI əsrdə Xivə və Buxara xanlıqları ayrı-ayrı türkmən tayfalarını özünə tabe etdirmişdir. 1849-cu ildə Türkmənistan ərazisi Rusiya imperiyası tərəfindən işğal olundu. 1924-cü ildə hazırkı Türkmənistan Respublikasının ərazisi daxilində SSRİ tərkibində Türkmənistan SSR yaradıldı.

Sovet imperiyasının süqutundan sonra 1991-ci ildə Türkmənistan müstəqilliyini bəyan etdi. Hazırda Türkmənistan Respublikası sahəsinə görə, Mərkəzi Asiyada ikinci böyük dövlətdir. O, Xəzər dənizinin cənub-şərqində, Kopetdağın yamaclarında, Turan ovalığının cənubunda yerləşərək, Əfqanıstan, İran, Özbəkistan, qərbdən isə Xəzər dənizi ilə həmsərhəddir. Respublikanın paytaxtı Aşqabad şəhəri 1881-ci ildə salınmışdır və seysmik ərazidə yerləşir. 1948-ci ildə burada 9 bal gücündə dağıdıcı zəlzələ baş vermiş və şəhər əhalisinin yarısından çoxunu məhv etmişdir. İndi Aşqabad Türkmənistanı paytaxtı olmaqla yanaşı, ölkənin əsas sənaye, elm və mədəniyyət mərkəzidir.

Türkmənlərin əcdadlarının musiqi mədəniyyəti barədə ilkin məlumatları qədim Parfiya, Marquş və Xarəzmdən qalma (b.e.ə son əsrlər və eramızın ilk illəri) abidələr verir. Burada bir çox simli, nəfəs və zərb alətlərinin təsvirini görmək mümkündür.

Abidələrin üstündəki süjetlərdən bəlli olur ki, bütün bu alətlər mərasim və ayinlərdə geniş istifadə olunmuşdur. Ehtimal etmək olar ki, o dövrlərdə saray və məbədlərdə keçirilən mərasim və ayinləri müşayiət etmək məqsədilə bir çox musiqiçi – rəqs kollektivləri mövcud olmuşdur ki, onlar da peşəkar müğənni, rəqqas və çalğıçılardan ibarət idilər. Belə ifaçılardan biri – şöhrəti bütün Şərqə yayılmış Barbəd o dövrdə elm və mədəniyyət mərkəzinə çevrilmiş Mərv şəhərindən çıxmışdır. O, burada musiqi təhsili almış, mahir müğənni və bərbət ifaçısı kimi məşhurlaşmışdı. Qeyri-adi məharəti ona Sasani şahı II Xosrov Pərvizin sarayında baş musiqiçi statusu qazandırmışdı və nəinki ifaçı, habelə bəstəkar istedadı burada tam şəkildə özünü büruzə vermişdi.

Ümumiyyətlə, Türkmənistan ərazisində yerləşmiş Mərv şəhəri qədim mədəniyyət mərkəzi kimi ad çıxarmış, XIII əsrdə burada onlarla kitabxana fəaliyyət göstərmişdir. Şərq risalələrində Mərv şəhərindən çıxmış bir sıra musiqiçilərin adları çəkilir. Məşhur Orta əsr musiqiçisi Əli də Mərvdən idi. Məlumdur ki, çoxlu sayda əsərlərin müəllifi olan Ustad Əlinin yanına müxtəlif ölkələrdən improvizasiya texnikasına yiyələnmək üçün musiqiçilər gəlirdi.

Türkmən musiqiçiləri Şərq musiqi mədəniyyətinin inkişafında əhəmiyyətli rol oynamışlar. Türkmənlərin poetik və musiqi yaradıcılığı digər Mərkəzi Asiya xalqlarının yaradıcılığı ilə sıx təmasda inkişaf etmişdir. Şərqdə məşhur olan süjetlər burada da öz əksini tapıb. Məsələn, türkmənlərin dastan irsində “Leyli və Məcnun”, “Tahir və Zöhrə”, “Koroğlu” (türkmənlər onu “Goroğlu” adlandırırlar) kimi geniş yayılmış dastanlara rast gəlirik.

Türkmən dilində mahnıya aydım, xalq havalarına saz, musiqiyə isə ümumilikdə aydım-saz deyirlər. Gördüyümüz kimi, azərbaycanlılarda konkret olaraq bir musiqi alətini bildirən, Anadolu türklərində isə ümumən alət mənasında işlənən saz kəlməsi türkmənlərdə musiqi və xalq havası mənasındadır.

Türkmən musiqi irsi folklor və peşəkar musiqi janrlarına ayrılır. XX əsrin əvvəllərində bu musiqi nümunələrinin toplayıb nota salınmasında rus etnoqrafı V.A.Uspenskinin böyük rolu olmuşdur. O, bu elləri oba-oba gəzmiş və işinin nəticələrini 1928-ci idldə Moskvada “Türkmenskaya muzıka” başlığı altında nəşr etdirmişdir.

Türkmən xalq mahnılarının janr təsnifatına əmək, mərasim, məişət və lirik mahnılar daxildir. Onların obraz-məzmun dairəsi türkmənlərin məişət həyatı, köçəri maldarlıq, əkinçilik, toxuculuq və s. ilə sıx bağlıdır.

Türkmən şifahi peşəkar musiqisində baxşıların yaradıcılığı əsas yer tutur. Müasir baxşıların sələfləri oğuz türklərinin müştərək bədii abidəsi – “Dədə Qorqud” dastanında təsvirini tapmış qədim ozanlar olmuşlar. Onlar qopuz çalmış, rəvayət söyləmiş və oba-oba gəzmişlər. Nəsildən-nəslə ustad-şagird ənənəsilə ötürülən bu ulu el sənəti zaman keçdikcə yeni nəsil xalq musiqiçiləri – baxşıların yaradıcılığında davamını və inkişafını tapmışdır. Baxşılar aşıqlar kimi elləri gəzir, şeir qoşub dastan söyləyərdilər. Baxşı dutarda çalır, oxuyur və virtuoz ifa tərzi nümayiş etdirirdi. Təxminən XV əsrdən etibarən baxşılar türkmən musiqisində əsas füqura çevrilmişdilər.

Türkmən eposunun erkən növləri “Oğuznamə” adı altında mövcud olub. Hazırda türkmən eposları dastan formasında həyatını davam etdirir. Ən məşhur türkmən dastanları “Goroğlu”, “Şahsənəm və Qərib”, Əsli və Kərəm”dir. Bu dastanlar, ümumiyyətlə, türk xalqları arasında geniş yayılmışdır. Lakin hər bir xalqın rəvayətçiləri bu qədim hekayətləri özünəməxsus tərzdə nəsildən-nəslə ötürmüşlər. Məsələn, bir çox türk xalqlarında, o cümlədən, Azərbaycanda “Koroğlu” adı ilə məşhurlaşmış dastan türkmənlərdə “Goroğlu” kimi, yəni gordan çıxmış qəhrəmanın (Rouşanın anası doğuş zamanı öldüyünə və diri uşağın məzardan çıxarıldığına görə) adı ilə yayılmışdlr.

Türkmənlərin milli musiqi alətləri digər Orta Asiya xalqlarının alətləri ilə oxşardır. Lakin bu alətlər sırasında zərb alətləri yox dərəcəsindədir. Hazırda istifadə olunan alətlər– simli dütar və qıcaq, nəfəsli tüydük və dilli tüydük, habelə qopuzdur (qazax və qırğızların şan qopuzu).

***Lalə HÜSEYNOVA,***
***sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor***

Türk hökmdarları

**Sultan Fateh Mehmet (1432-1481) Osmanlı tarixinin ən böyük dövlət adamı və sərkərdələrindən sayılır. O, tarixə, ilk növbədə, İstanbulun fatehi kimi düşüb. Ölkəsinin sərhədlərini genişləndirib, hərbi qüdrətini gücləndirib. Onun iqtidarı dönəmində, eyni zamanda, ölkədə elmə, təhsilə diqqət və qayğı göstərilib.**



Uşaqlıq və yeniyetməlik illərində gələcək fateh sevimli müəllimi Molla Guranidən din elmlərini öyrənirdi. Bir gün alim dərsinə yaxşı hazırlaşmayan gələcək sultanın əlinə çubuqla vurmuşdu: “Bu, itaət etməyin üçün idi, indi çalış!” Bu əmrdən sonra Mehmet, həqiqətən, dərslərini daha yaxşı öyrənməyə başlamışdı.

Anası və dayələrinin himayəsində böyüyən Mehmet sultanlığa namizəd kimi Manisa vilayətinə vali göndərilmişdi. Burada özünü müsbət cəhətdən göstərməyi bacarmışdı. Lakin gənc şahzadə dövlətin taleyi üçün narahat idi. Həmin dönəmdə Osmanlı xanəndanı yeni təhlükə ilə üz-üzə qalmışdı. Macar və Serb hökmdarları Dunay çayının cənubundan Osmanlı ərazilərinə tez-tez basqınlar təşkil edirdilər. Mehmetin atası Sultan İkinci Murad 1443-cü ildə düşmən ordusunu İzaldidə (hazırda Bolqarıstanda yerləşir) dayandıra bildi. Macarlarla bağlanan saziş Mehmetin artıq on iki yaşında taxta çıxmasına səbəb oldu. Ancaq dövləti sədrəzəm Çandıralı Xəlil paşa idarə edirdi.

# Fəthin sultanı

Sultan İkinci Murad dövlətin daha böyük böhrana düşməməsi üçün bu addımı atmışdı. Lakin bununla yanaşı gənc sultanın ətrafında paşalar arasında kəskin rəqabət baş qaldırmışdı. Bu arada taxt-taca iddialı olan Orxan Çələbi üsyan qaldırdı. Üsyan iflasa uğrayandan sonra, Orxan Bizans paytaxtına qaçdı.

Atası İkinci Muradın ölümündən sonra o, 1451-ci lin fevralında ikinci dəfə Ədirnədə taxta çıxdı. Sultan dövlət işlərinin ixtiyarını yenə də Çandıralı Xəlil paşaya həvalə etmişdi.

Sultan Mehmet İstanbulun fəthinə hazırlaşırdı. Avropa da bundan duyuq düşmüşdü. O zaman Fransa kralı xaçlı ordusuna rəhbərlik etməyi öz boynuna götürmüşdü. Parisdə hesab edirdilər ki, hələ ki, Osmanlıda hakimiyyət gənc paşanın əlindədir, bu dövləti çökdürmək çətin olmayacaq.

Lakin sultan fikrində qərarlı idi. İstanbul nəyin bahasına olursa-olsun, ələ keçirilməli idi. İlk türk hərbi birlikləri 1453-cü il aprelin 5-də Bizans imperiyasının paytaxtına çatdılar. “Ya mən İstanbulu alacağam, ya da İstanbul məni qeyb edəcək”. Gənc sultan taleyinin bu döyüşdən asılı olduğunun fəqində idi. O, ağır savaşdan öncə Bizans imperatoruna şəhəri döyüşsüz təslim etməsini tələb etdi. Lakin imperator buna razı olmadı, bununla yanaşı, osmanlılara vergi ödəyə biləcəyini də söylədi.

Beləcə, orta əsrlərin ən möhtəşəm şəhərlərindən olan Konstontinopol İstanbul uğrunda ölüm-qalım savaşı başlandı. Şəhər alınmaz qala hesab olunurdu. Türklər ilk döyüşlərdə ağır itkilər verməli oldular, lakin inadlarından dönmədilər. Bu savaşda Sultanın böyük sərkərdəlik qabilliyyəti üzə çıxdı. O, ən çətin anlarda ən düzgün və cəsarətli qərarlar vermişdi. Fateh titulu onun halal haqqı idi!

Nəhayət, 1453-cü il mayın 29-da Konstantinopol (türklər şəhəri İstanbul deyə çağırmağa başladılar) fəth olundu. Fateh səcdəyə qapandı, torpağı öpdü. Aya Sofya məbədinə sığınan yunan əhalisinin canına toxunulmayacağını vəd etdi. O, şəhərin tarixi mədəniyyətinə saygı göstərdi. Şəhərin dinc əhalisinə aman verilməsi Sultanın “Biz torpaqları deyil, ürəkləri fəth etməyə gedirik“ mesajının fəlsəfəsinə tam uyğun idi.

Sultan Mehmet elmə və mədəniyyətə dəyər verən hökmdar idi. Onun kitabxanası çox zəngin idi. Mənbələr qeyd ediblər ki, Fateh həm Şərq, həm də Qərb ədəbiyyatını orijinal dillərindən oxuya bilirdi. Onun hətta səkkiz dil bildiyi iddia olunur.

Fateh özündən sonrakı Osmanlı padşahlarının dörd əsr ərzində yaşadıqları məşhur “Topqapı” sarayını da inşa etdirmişdir. Bu sarayın tikintisi zamanı Abbasilər, Teymurilər və Ağqoyunlu dövlətlərinin memarlıq ənənələrindən də istifadə olunmuşdur. Xarici səyyahlar sarayın möhtəşəmliyi qarşısında heyran qalmışdılar.

Müasirləri qeyd edirlər ki, Fatehin sarayı o dövrün böyük elm məbədi hesab olunurdu. Müsəlman, yaxud xristian olmasından asılı olmayaraq, böyük alimlər sultanın hüzurunda toplaşardılar. Hökmdarın özü də elmi polemikalarda iştirak edirdi. Beləliklə, Osmanlının gücü və qüdrəri durmadan artırdı.

***Ceyhun MİRZƏLİ,***
***kulturoloq***

# Özbəkistanlı şairin kitabları təqdim olunub



**Azərbaycan Yazıçılar Birliyinin (AYB) və Dünya Gənc Türk Yazarlar Birliyinin (DGTYB) birgə təşkilatçılığı ilə qardaş Özbəkistanın “Kitab dünyası” qəzetinin baş redaktoru, tanınmış şair-publisist Xasiyyət Rüstəmin Azərbaycanda çap olunmuş kitablarının təqdimat mərasimi təşkil olunub.**

AYB-nin katibi Səlim Babullaoğlu giriş sözündə Xasiyyət Rüstəmin yaradıcılığı, onun Özbəkistanla Azərbaycan arasındakı ədəbi-mədəni əlaqələrdəki rolundan danışıb. AYB-nin digər katibi İlqar Fəhmi çıxışı zamanı qardaş xalqlar arasında tarixən mövcud olmuş əlaqələrin günbəgün artmasını, bu inkişafda Xasiyyət Rüstəm kimi ədəbiyyat-mədəniyyət xadimlərinin xidmətinin alqışa layiq olduğunu vurğulayıb. DGTYB başqanı İntiqam Yaşar Xasiyyət Rüstəmin kitablarının Azərbaycanda təqdimatını əlamətdar ədəbiyyat hadisəsi adlandırıb, onun yaradıcılığında Qarabağ mövzusunun qırmızı xətt kimi keçdiyini söyləyib. Filologiya elmləri doktoru, professor Ramiz Əskər Özbəkistan–Azərbaycan ədəbi əlaqələrinin tarixindən, bu ədəbi əlaqələrdə ediblərin fədakarlığından danışıb. O, bu vaxta qədər 60-dan artıq kitab tərcümə etdiyini, bu kitabların 26-nın Özbəkistan ədəbiyyatından olduğunu bildirib.

Daha sonra çıxış edən Özbəkistanın Xalq yazıçısı Erkin Azam, Özbəkistan Yazıçılar Birliyinin sədr müavini Qeyrət Məcid, “Zirvə” Mədəniyyət və İncəsənət İctimai Birliyinin sədri Şahin Qədir, yazıçı Kənan Hacı və başqaları qardaş xalqlar arasındakı ədəbi əlaqələrdən bəhs ediblər.

Özbəkistanın “Şöhrət” medalı laureatı Xasiyyət Rüstəm tədbirin təşkilatçılarına təşəkkürünü bildirib, Azərbaycanı özünün ikinci vətəni hesab etdiyini vurğulayıb, şeirlərindən nümunələr səsləndirib.

***XQ***

# Turan pələngi

**Turan pələngi nəsli kəsilmiş pələng növüdür. Əsasən türk xalqlarının yaşadığı ərazilərdə, o cümlədən, Azərbaycanda məskunlaşmışdı, adı da bunu göstərir. Gücünə və çevikliyinə, gözəl görünüşünə görə onlardan qədim Romada qladiator döyüşlərində istifadə olunurmuş. Sonuncu üç Turan pələngi 1955–1960-cı illərdə Almaniyanın Hamburq şəhərinin Hagenbek zooparkında görünmüşdür. Zooloqlar bu növün nəslinin kəsildiyini 1970-ci ildə təsdiqlədilər.**

*“Biri var idi, biri yox idi…”*
*Biri var idisə, yox oldu nədən?*
*Yəqin ki, nağıllar xəbərdar edir:*
*Gələn qalmır, çıxıb gedir səhnədən.*

*Kökünü kəsdilər, Turan pələngi,*
*Adını tarixdən silmək cəhdi var!*
*Başından qapdılar tacı, çələngi,*
*Zalımlar etdilər taxtını tarmar.*

*Yerə, göyə lərzə salan nəriltin*
*Musiqi dilində “cəngiyə”döndü.*
*Eşidilmir səsin, yoxdur hənirtin,*
*Bəxtinin çırağı çox vaxtsız söndü.*

*Zamanlar boyunca acgöz haqsızlar*
*Turan məkanını hey taladılar.*
*Andıqca, qandıqca ürəyim sızlar,*
*O bay ellərini parçaladılar!*

*Qəsdən qurudulur Urmiya gölün,*
*Kaş o da “biri var idi” olmasın!*
*Yolunu gözləyir hər meşən, çölün,*
*Qayıt, oylaqların yada qalmasın!*

*Şikayətim də var məndən özümə,*
*Qılınc çalıb sənə qahmar çıxmadım.*
*Tanrı yadigarım, görün gözümə,*
*Boyuna doyunca sənin baxmadım!*



*Qulağım səsdədir, xoş xəbər yolla,*
*Boz xəyallarıma mənim tuş ol gəl.*
*Karvanlar qayıdar getdiyi yolla,*
*Eləcə onlara sən də qoşul gəl!*

*Hökmün işləyərdi sənin hər yana,*
*Sən idin bu yerin xaqanı, xanı.*
*Həsrət atəşində mən yana-yana*
*Baxıram, görmürəm, ləpirin hanı?!*

*Dayanıb olumla ölüm üz-üzə,*
*Gecikmə Turanın çətin çağında.*
*Kaş səni yenidən göndərə bizə,*
*Göy Tanrım özünün göyqurşağında.*

**Əliş ƏVƏZ**

**Moskva**

***Səhifəni hazırladı:***
***Məsaim ABDULLAYEV***
***XQ***

Elmimiz, alimlərimiz

# Sözün Şuşa qalası

**XX əsrin sonu, XXI yüzilin başlanğıcı Azərbaycanın çətin və sonu şərəflə bitən 35 illik mübarizə və müharibə dövrünün ictimai-siyasi fikir tarixi, bu müddətdə ziyalılarımızın mövqeyi, xidmətləri gözdən keçirilərkən adı minnətdarlıqla çəkilməli olan qələm sahiblərdən biri Azərbaycanın Əməkdar elm xadimi, texnika elmləri doktoru, professor Kamran Rüstəmovdur.**



Mən Kamran müəllimi keçən yüzilin səksəninci illərindən bir alim, ictimai xadim kimi uzaqdan-uzağa tanımışam. Lakin onunla yaxından tanışlığım, ona böyük hörmətim, əsasən, internet səhifələrindəki müzakirə və mübahisələrimizdən, onun sosial mediadaki yazılarından başlanıb.

Kamran Rüstəmov, hər şeydən öncə, bir alimdir. İnstitutu bitirdikdən sonra qısa müddətdə assistentlikdən kafedra müdiri vəzifəsinə qədər yüksəlmiş, namizədlik və doktorluq dissertasiyalarını uğurla müdafiə etmiş, dosent və professor elmi adları almışdır. Böyük Britaniyada elmi təcrübə keçmişdir (1977–1978).

O, elm və texnikanın müxtəlif sahələrində dəyərli elmi araşdırmaların müəllifidir; neft və qaz yataqlarının istismarı və işlənməsi, qazma hidravlikası, qeyri-Nyuton sistemlərinin mexanikası sahəsində gördüyü işlər rəğbətlə qarşılanmışdır.

Kamran müəllim ilk dəfə olaraq anormal şəraitdə boru kəməri sistemlərinin iş rejimlərinin qaz-dinamik nəzəriyyəsini, eləcə də borularda ikifazalı axınların təsnifat modellərini və onların hesablanması üsullarını işləyib hazırlamışdır.

Eləcə də bina konstruksiyalarını və mikroiqlim sistemlərini birləşdirən üsulları yaratmağa imkan verən bina iqlimologiyasının riyazi əsaslarının işlənməsində onun özəl xidməti vardır.

Kamran Rüstəmov 300-dən çox elmi əsərin, monoqrafiyanın, dərs vəsaitinin, məqalənin müəllifidir. Onun yetirmələri olan elmlər doktorları və namizədləri, mütəxəssislər respublikanın hüdudlarından kənarda da çalışırlar. Elmi araşdırmaları yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, o, Rusiya Memarlıq və İnşaat Elmləri Akademiyasının xarici üzvü seçilmişdir.

Məni maraqlandıran və bu məqaləni yazdıran səbəb texnika elmləri üzrə alimliyindən, pedaqoqluğundan əlavə, Kamran Rüstəmovun iti qələm sahibi, istedadlı bir jurnalist olmasıdır. O, siyasi publisistika ustasıdır. Cəbhə xəttində olduğu kimi, açılan atəşi anındaca susdurmağı bacarır. Onun siyasi publisistikasının bir özəlliyi də yüksək elmi biliyə, dəqiq tarixi mənbələrə söykənməsindədir. O, öz yazılarında həm də bir tarixçidir, sosioloqdur, coğrafiya və beynəlxalq hüquq mütəxəssisidir, dünya sivilizasiyasının və mədəniyyətinin keçdiyi yolları dərindən bilən ziyalı və əsl dialoq ustasıdır.

Əsl ziyalı xalqın dar günündə öz ixtisası ilə məşğul olmaqla bərabər, əməyi ilə, sözüylə ədalət yolunda, xalqının haqq səsini dünyaya çatdırmaq yolunda bir fədai olmağı bacarmalıdır. İnsanın şəxsiyyət və vətəndaş kimi gücü, qabiliyyəti, xarakteri, potensialı məhz belə zamanlarda üzə çıxır...

1992-ci ildən Kamran müəllim rusdilli ictimaiyyəti maraqlandıran bir çox məsələlərlə bağlı məqalələr dərc etdirir. Onun yazıları Azərbaycan, Rusiya və bir sıra ölkələrin mətbuat səhifələrində dərc olunur.

Aqressiv erməni qüvvələri Azərbaycan torpaqlarına ərazi iddiaları irəli sürəndə Kamran Rüstəmov əsl həqiqəti rusdilli ictimaiyyətə çatdırmaq yolunu tutdu.

Erməni tarixçilərinin Cənubi Qafqazda yaşayan xalqların tarixinə dair yalan və saxtakarlıqla dolu yazılarının ifşası, Rusiya–Azərbaycan münasibətlərinin qarşılıqlı faydalı əməkdaşlıq əsasında möhkəmləndirilməsi və s.onun əsas mövzuları oldu.

Ötən illər ərzində Kamran Rüstəmovun müxtəlif saytlarda, whatsap qruplarında yaydığı məqalələri izləmişəm və düşmən mətbuatını susdurmağı bacaran belə hazırlıqlı, yorulmaz, ağıllı bir azərbaycanlı qələm sahibinin olmasına ürəkdən sevinmişəm. O, erməni mətbatını izləyir və gecikdirmədən münasibətini bildirir.

Azərbaycandan ayrılıb gedənlərin bir hissəsi, təəssüf ki, Vətənin dilindən və qayğılarından da uzaqlaşırlar. Bir çoxu xarici informasiya sistemlərinin təsiri altına düşür, başqa ideologiyalara uyur. Amma Kamran Rüstəmov Azərbaycanla nəfəs alır. Ölkəmizdə baş verən olayları, siyasi prosesləri diqqətlə izləyir. Haqqımızda yazılan böhtanlardan vaxtında xəbər tutur və onlara son dərəcə tutarlı, kəsərli cavablar verməyi bacarır. Onun yazılarını fərqləndirən cəhət konkret tarixi faktlara söykənməsində və beynəlxalq hüququn tələblərinə uyğun olmasındadır.

Kamran Rüstəmov yazılarında çox vaxt bir tarixçi kimi çıxış edir. Bölgəmizdə yaşayan xalqların 3-4 min illik tarixindən gətirdiyi misallarla rəqiblərini susdurmağı bacarır. O, həm də tarixi şərait üzündən xalqların yaşadığı faciələri, miqrasiya proseslərini, işğalçıların gətirdiyi faciələri, özəlliklə Batı dünyasının türk-müsəlman mühitinə qarşı amansız siyasətinin iç üzünü etibarlı mənbələr əsasında açıb göstərir.

Ermənistanın işğalçılıq müharibəsi, torpaqlarımızın iyirmi faizinin işğal edilməsi, 30 il ərzində beynəlxalq aləmin bu işğala biganə qalması, ikili ermənipərəst siyasətin gətirdiyi faciələr Kamran Rüstəmovun məqalələrində ardıcıl şəkildə təhlil edilir. Təbii ki, qonşularımız belə bir sərt və obyektiv mövqeyi görəndə hər cür riyakarlığa və çılğınlığa əl atırlar. Lakin Kamran Rüstəmov düşmən həyasızlığı qarşısında heç vaxt geri çəkilməyib. O, təkbaşına, heç bir yerdən yardım almadan bütöv bir jurnalist dəstəsinin işini görür. Yazılarının statistikası bunu aydın göstərir. Təkcə son illərdə Ermənistan–Azərbaycan savaşı və bunun acı nəticələri haqqında 5000-dən çox məqalə yazıb. Bu, təxminən, 15–20 cild kitab deməkdir.

Kamran Rüstəmovun dərc etdirdiyi elə-belə, gəlişigözəl yazılar deyil. Hər biri konkret hadisə ilə bağlıdır; düşmənin yalanlarına bir cavabdır. Onların riyakarlığını ifşa edir.

Buna görə də o, internet səhifələrində daim təhqirlərlə və təzyiqlərlə üz-üzədir. Mən Kamran Rüstəmovun təkbaşına savaşının bir əsgər fədakarlığının harada yaşamasından asılı olmayaraq, Vətən yolunda sona qədər mübarizə aparmağı həyat amalı seçmiş bir fədai qəhrəmanlığı ilə müqayisə edərdim. Döyüş zamanı əsgər düşmən qarşısında təklənəndə nə qədər qeyri-adi bir qeyrət və igidliklə müqavimət göstərirsə, söz aləmində bəzi qələm sahiblərimiz də, təxminən, bu cür cəsarət və fədakarlıq göstəriblər.

Kamran Rüstəmov Moskvada yaşayır, Siyasi Kommunikasiyaların Modelləşdirilməsi Mərkəzinin elmi rəhbəridir, lakin əslən Şuşalıdır və yazılarını oxuyanda mənə həmişə elə gəlib ki o, Qarabağdan uzaqlarda Şuşa kimi alınmaz bir qalada oturub, düşmənlərin atdığı daşlar onun halını pozmur, haqlı, ədalətli olduğunu bildiyindən güclüdür və əslində, bütün millətin adından danışır.

Biz informasiya mübarizəsində güclü olmaq istəyiriksə, Kamran Rüstəmov kimi müəlliflərə arxa durmalı, kömək etməli, onları əl üstündə saxlamalı, heç bir maddi, mənəvi sıxıntı duymadan, sözlərini ürəklə demələrinə şərait yaratmalıyıq. Bu sözlərimin ünvanı xalqımızın bütün imkanlı adamları və bəzi dövlət qurumlarıdır...

**Sabir RÜSTƏMXANLI**

# Kinoa And dağlarından İsmayıllıya gəlib...

## Taxılın alternativi olan bu bitki "Bəşəriyyətin xilaskarı" adını qazanıb

**İsmayıllı rayonunun Qarakər kəndində yaşayan fermer Natiq Əliyev keçən il 1 hektar sahədə kinoa bitkisi yetişdirməsi barədə təcrübəsini sosial şəbəkəbə bölüşüb. O, becərmə dövrünün 4 ay çəkdiyini, 2 tona yaxın məhsul əldə etdiyini bildirir. Fermer əlavə edir ki, bu bitki torpağın şoranlığını aradan qaldırır, eyni zamanda, münbitləşdirir. Yeri gəlmişkən, kinoa bitkisinin dünyada 120-dən çox növü var. Onun qara, qırmızı və qəhvəyi rəngli növlərinə isə daha çox rast gəlinir.**



Kənd Təsərrüfatı Nazirliyinin Əkinçilik Elmi-Tədqiqat İnstitutunun məlumatına əsasən, kinoa bitkisi bir çox faydaları ilə sağlam qida kimi tanınmaqla dünya əhalisinin diqqətini cəlb edib. Vətəni Cənubi Amerika və And dağları olan bu bitki Himalay və Tibet dağlarında da yetişdirilir. Son illərdə kinoanın becərilməsi ilə Boliviya, Uruqvay və Perudada da məşğul olurlar.

Sözügedən bitkinin idxalında ABŞ 90 faizlə liderlik edir. Ətrafımızda baş verən müxtəlif iqlim dəyişkliyi insanların ərzağa olan tələbatının ödənilməsi üçün taxıla alternativ olan bitkilərin qida rasionuna daxil olmasını şərtləndirir. Bu baxımdan kinoa bitkisi taxılın alternativi kimi, duzluluğa davamiyyəti, yüksək keyfiyyəti və müalicəvi xüsusiyyətlərinə görə fərqlənir.

2013-cü il NASA tərəfindən dünyada "Kinoa ili" elan olunub. Bu isə bitkiyə olan marağın daha da artmasını şərtləndirib. Bir çox xüsusiyyətlərini nəzərə alaraq Azərbaycanda da bu bitkinin becərilməsinə fermerlər tərəfindən zəmin yaranıb. Artıq ölkəmizə kinoa bitkisinin yeni sortlarının toxumları gətirilib. "Bəşəriyyətin xilaskarı" adlandırılan bu bitki bölgə iqliminə uyğunlaşdığı üçün kütləvi şəkildə əkini planlaşdırılır. Bəs, kinoa bitkisinin ölkəmiz üçün hansı perspektivləri var?

Kinoa bitkisinin sortlarının toxumları Azərbaycana Kənd Təsərrüfatı Nazirliyi yanında Əkinçilik Elmi-Tədqiqat İnstitutu tərəfindən gətirilib. Hazırda ölkənin bir neçə bölgəsində test üsulu ilə becərilir. Kinoa bitkisinin müsbət xüsusiyyətləri çoxdur. Ən əhəmiyyətli cəhəti isə "super oksid dismutaz" fermenti ehtiva etməsidir. Bu ferment yaşlanmağı gecikdirir, dərinin qocalmasının qarşısını alır. Hazırda Əkinçilik Elmi-Tədqiqat İnstitutunun təcrübə sahələrində Türkiyədən gətirilən kinoa bitkisinin müxtəlif formalarının təcrübə məqsədilə əkini həyata keçirilir. Kinoa bitkisinin əkini zamanı bir hektara, təxminən, 5 kiloqram toxum səpilir. Toxumlar kiçik olduğu üçün torpaqdakı dərinliyi 1-2 santimetr olmalıdır. Cərgəarası məsafə isə 45-60 santimetr arasında dəyişə bilər.

Bitkinin vegetasiya dövrü 120 gündür. Məhsulun yığılması isə sentyabr ayında nəzərdə tutulub. Məhsuldarlıq regionlara uyğun olaraq dəyişir. Məsələn, Türkiyədə quraqlıq şəraitdə hər hektara 1,5 ton, suvarılan ərazilərdə isə 2-3 ton məhsul yığılır. Kinoa bitkisinin vətəni olan Cənubi Amerikada isə bir hektar sahədən 9 ton məhsul əldə edilir.

Bu bitkinin təsərrüfatlara inteqrasiya olunması, fermer təsərrüfatlarında əkilib-becərilməsi Kənd Təsərrüfatı Nazirliyi yanında Əkinçilik Elmi-Tədqiqat İnstitutu tərəfindən həyata keçirilir. Düzdür, hələlik, ölkəmizdə kinoa əkini sahələri o qədər də çox deyil. Lakin gələcəkdə bu sahələrin daha da genişləndirilməsi istisna edilmir.

Yeri gəlmişkən, kinoa bitkisi quraqlığa davamlı olduğuna görə quraq bölgələrdə çox böyük ərazilərdə becərilə bilər. Hazırda bitkinin müxtəlif bölgələrdə becərilərək hansı şəraitə uyğun olması araşdırılır. İlkin nəticələr onu deməyə əsas verir ki, bu bitki Abşeron və Saatlı rayonları üçün daha münasibdir. Bununla yanaşı, hazırda eyləqan və Tərtər rayonları ərazisində də əkilən kinoa bitkisinin elmi əsaslarla öyrənilməsi davam etdirilir.

Qeyd edək ki, hazırda dünya bazarında kinoa bitkisinin 1 kiloqramı, təxminən, 20–50 dollar arasında dəyişir. Bu da, əsasən, onun növündən və tərkibindəki qidalılıq səviyyəsindən aslıdır. Ölkəmizdə isə bitkinin 1 qramı, təqribən, 12–15 manata satılır.

***XQ***

# Sosial yeniliklər



## Yeni xidmət müəssisələri

Sosial Xidmətlər Agentliyi tərəfindən bu il Bakının Sabunçu, Suraxanı və Qaradağ rayonlarında yeni sosial xidmət müəssisələrinin açılması nəzərdə tutulur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən XQ-yə verilən məlumatda deyilir ki, bu müəssisələrdə həssas əhali qruplarından olan, xüsusi qayğıya ehtiyac duyan şəxslərə sosial-tibbi, sosial-hüquqi, sosial-psixoloji və digər xidmətlər göstəriləcək. Məqsəd sosial xidmət infrastrukturunun genişləndirilməsi, həssas qrupların sosial xidmətlərə əlçatanlığının artırılmasıdır.

Qeyd edilir ki, Sosial Xidmətlər Agentliyi bu kateqoriyadan olan şəxslərin ailə mühitində yaşamasının təmin edilməsi məqsədilə müəssisələrdə müvafiq sosial-reabilitasiya və reinteqrasiya işlərini davam etdirir.




## "Birlikdə öyrənək!"

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi eşitmə və nitq məhdudiyyəti olan şəxslərin hüquqlarının təmin edilməsi, onların cəmiyyətə inteqrasiyası, işarət dilindən istifadənin tanınması və həvəsləndirilməsi məqsədilə növbəti həftədən etibarən "Surdo-İnfo" və "İnklüziv cəmiyyət üçün birlikdə öyrənək!" adlı layihələrə start verir.

Hər həftənin cümə axşamı nazirliyin rəsmi sosial şəbəkə hesablarında yayılması nəzərdə tutulan "Surdo-İnfo" informasiyanı sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə təmin etmək məqsədi daşıyır. Eşitmə və nitq məhdudiyyəti olan şəxslər artıq nazirliyin fəaliyyət istiqamətləri üzrə məlumatları surdotərcüməçi vasitəsilə əldə edə biləcəklər.

"İnklüziv cəmiyyət üçün birlikdə öyrənək!" adlı digər layihə isə hər həftənin çərşənbə axşamı sosial şəbəkə izləyiciləri üçün yeni dil – işarət dilinin onlayn tədrisinə başlayacaq. Qeyd edək ki, işarət dili eşitmə və danışma məhdudiyyəti olan insanlarla ünsiyyət qurmaq üçün istifadə olunur. Bu rubrika vasitəsilə hər kəs işarət dilini sıfırdan öyrənmə imkanı qazanacaq.

## 1,8 milyon əmək müqaviləsi

Məşğulluq imkanlarının artırılması, qeyri-rəsmi məşğulluğun leqallaşdırılması istiqamətində görülən kompleks tədbirlər nəticəsində əmək müqavilələrinin sayında artım dinamikası davam edir.

2024-cü ilin yanvar ayında ölkəmizdə əmək müqavilələrinin sayı 7,2 min müqavilə və ya 0,4 faiz artaraq 1 milyon 816 min olub.

Əməkhaqqı islahatları, əmək müqavilələrinin sayında artım əməkhaqqı fondunda da davamlı artımla nəticələnir. Bu ilin ilk ayında əməkhaqqı fondunda daha 0,9 faiz artım qeydə alınıb.

Ümumilikdə, 2018–2023-cü illərdə əmək müqavilələrinin sayında 38 faiz, əməkhaqqı fondunda isə 2,7 dəfə artım baş verib.

## Yeni bərpa vasitələri

Əlillərin reabilitasiya vasitələri ilə təminatı sisteminin qabaqcıl dünya təcrübəsi əsasında gücləndirilməsi istiqamətində tədbirlər davam edir. Ümumdünya Səhiyyə Təşkilatı ilə əməkdaşlıq çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin növlərinin siyahısı"nda və "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası"nda dəyişiklik edilməsinə dair təkliflər hazırlayıb.

Nazirlikdən XQ-yə bildiriblər ki, ÜST-nın təsnifatına uyğun qruplaşdırma aparılır və təkliflərdə siyahıdakı reabilitasiya vasitələri növlərinin sayının 57-dən 81-ə çatdırılması nəzərdə tutulur. Qeyd edilir ki, həmin növlərin adları əlillərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələri növlərinin siyahısına əlavə ediləcək. Siyahıya əlavə olunması təklif edilən növlərin sırasına gəzinti üçün təkərli hərəkət vasitəsi (rollator), tutacaq (kiçik əşyaları götürmək üçün), yıxılma detektorları, daşına bilən panduslar, sanitar qovşaq və hamam otaqları üçün tutacaqlar, hopdurucu bez və mələfə, ayaq əyriliyi breketləri, fərdi həyəcan siqnalizasiya sistemləri, brayl əlifbası ilə yazılmış saat, brayl sistemi ilə yazı üçün cihaz və digər reabilitasiya vasitələri daxildir.

Xatırladaq ki, 2020-ci ildə nazirliyin təklifləri əsasında həmin siyahıya 23 reabilitasiya növü də daxil edilərək siyahıdakı reabilitasiya vasitələri növlərinin sayı 57-yə çatdırılmşdı.

## Reabilitasiya avtobusu

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin 2022-ci ildən icrasına başladığı "RehaBus" (Reabilitasiya Avtobusu) layihəsi çərçivəsində əlil olan 1250 şəxsə xidmət göstərilib.

Agentlikdən bildiriblər ki, layihənin məqsədi Bakı və ətraf ərazilərdə yaşayan əlillərin ambulator və icma əsaslı reabilitasiya xidmətlərinə əlçatanlığını artırmaq, müvafiq müəssisəyə asan, rahat şəkildə çatmasını təmin etməkdir.

Belə ki, reabilitasiya avtobusları Bakı və Sumqayıt şəhərlərinin, Abşeron rayonunun müxtəlif ərazilərində əvvəlcədən təyin olunmuş gözləmə məntəqələrindən əlilliyi olan uşaqları (onları müşayiət edən yaxınları ilə birgə) götürərək Bakı şəhərindəki 2 saylı Uşaq Reabilitasiya Mərkəzinə çatdırır. Reabilitasiya proseduru bitdikdən sonra isə onlar yenidən geri qaytarırlar.

## Gəncsən–işləməlisən!

Dövlət Məşğulluq Agentliyinin aktiv məşğulluq proqramlarının əsas hədəflərindən biri də gənclərin məşğulluq imkanlarının artırılmasıdır. Bu istiqamətdə işlərin davamı olaraq agentlik tərəfindən ötən il 41 min 538 gənc münasib işlərlə təmin edilib, 3 minədək gənc üçün özünüməşğulluq proqramı üzrə kiçik bizneslər yaradılıb, 5 min 5 gənc peşə hazırlığı kurslarına cəlb olunub, əsasən gənclərdən ibarət 281 min 539 şəxsə peşəyönümü məsləhət xidmətləri göstərilib.

Eyni zamanda, son bir ildə "Səyyar kofe evləri" layihəsi çərçivəsində də 20 nəfər işsiz şəxsə lazımi avadanlıqlar verilərək onlar üçün səyyar kofe satışı üzrə kiçik bizneslər yaradılıb. Ötən il 10 rayon və şəhərdə keçirilən Peşələr Festivalı isə, əsasən, gənclərdən ibarət iştirakçıların peşələr üzrə bacarıqlar və peşə sahələri üzrə inkişaf etməyin yolları barədə məlumatlılığının artırılmasında önəmli rol oynayıb. Son illərdə gənclərlə bağlı icra olunan məşğulluq layihələrinin davamı olaraq hazırda "İrəliləyiş" layihəsi də icra olunur. Bu layihə gənclərin beynəlxalq normalara uyğun təcrübə proqramları əsasında karyera bacarıqlarını inkişaf etdirməyə yönəlib. Layihə üzrə 1500 gəncin təcrübə proqramlarına cəlb olunması nəzərdə tutulub.

Eləcə də Bakı və bölgələrdə gənclər üçün vebinarlar, konfranslar, karyera sərgiləri və yarmarkalar təşkil olunur, "Alo karyera" dəstək xidməti fəaliyyət göstərir. Gənclər bu tədbirlərdə karyera planlaması, düzgün ixtisas/peşə seçimi, iş axtarışı yolları, CV, istək məktubunun hazırlanması, müsahibəyə hazırlıq və s. mövzular üzrə məlumatlandırılır.

## Əlillər üçün daha 4 mərkəz



Sosial Xidmətlər Agentliyi tərəfindən 18 yaşınadək əlillər üçün yeni sosial xidmət mərkəzləri yaradılacaq. Yeni mərkəzlərin Bakının Yasamal rayonunda və Hacıqabul, Göyçay, Ağdam rayonlarında yaradılması nəzərdə tutulub.

Yaxın vaxtlarda istifadəyə veriləcək həmin 4 yeni ixtisaslaşmış sosial xidmət mərkəzində 18 yaşınadək əlillərə sosial reabilitasiya xidmətləri göstəriləcək. Həmçinin onların valideynlərinin bilik və bacarıqlarının artırılması məqsədilə fəaliyyət və tədbirlər də həyata keçiriləcək. Məqsəd həmin şəxslərdə ünsiyyət, özünəxidmət və sadə əmək vərdişlərinin formalaşmasını, onların sosial statusunun bərpa edilməsini və cəmiyyətə inteqrasiyasını təmin etməkdir.

Son illərdə Abşeron rayonunda və paytaxtın Sabunçu, Nərimanov rayonlarında belə mərkəzlər yaradılıb və ötən dövrdə bu mərkəzlərdə 650-dək uşağın reabilitasiyası işləri uğurla başa çatıb.

**Zərifə HÜSEYNOVA**
**XQ**

Yaqub Mahmudov – 85

# "Ata yurdu" tarixinin milli məfkurəli tədqiqatçısı



**AMEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı Yaqub Mahmudov öz araşdırma əsərləri, müəllimliyi və fəal ictimai mövqeyi ilə tanınan böyük ziyalılarımızdandır. Müdriklik yaşının zirvəsində daha əzəmətli görünən böyük alimin həyat yolu hər kəs üçün örnəkdir.**

Kitablarını həvəslə oxuduğumuz, elmi məclislərdə, televiziya ekranlarında çıxışlarını hər zaman maraqla izlədiyimiz Yaqub Mahmudov iki dönəm Bakı Dövlət Universiteti tarix fakültəsinin dekanı (1986–1990, 1994–2004) olub. Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri, Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun direktoru, Milli Məclisin 4 çağırış deputatı (2000–2020), "Şöhrət", "Şərəf", 1-ci dərəcəli "Əmək" ordenlərinin laureatı, akademik kimi çox məhsuldar fəaliyyəti ilə daim seçilib.

1939-cu il fevralın 10-da Şəki rayonunun Baş Göynük kəndində dünyaya gələn Yaqub Mikayıl oğlu 1962-ci ildə universitetin tarix fakültəsini fərqlənmə diplomu ilə bitirib, həmin ildə aspiranturada saxlanılıb. 1966-cı ildə "Ağqoyunlu dövlətinin Venesiya Respublikası ilə qarşılıqlı əlaqələri (XV əsrin 60–70-ci illəri)" mövzusunda namizədlik dissertasiyası, 1989-cu ildə isə M.V.Lomonosov adına Moskva Dövlət Universiteti tarix fakültəsinin Elmi Şurasında "Ağqoyunlu və Səfəvi dövlətlərinin Qərbi Avropa ölkələri ilə qarşılıqlı əlaqələri (XV əsrin II yarısı–XVII əsrin əvvəlləri)" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib, 1990-cı ildə professor elmi adını alıb. 10 il ərzində Azərbaycan Ensiklopediyasında elmi redaktor, böyük elmi redaktor, redaksiya müdiri, elmi işlər üzrə baş redaktor müavini vəzifələrində çalışıb. Bir müddət Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (indiki ADPU) dərs deyib, 1981-ci ildən sonra BDU-da işləməyə başlayıb.

Tarix fakültəsində dekan olarkən onun sədrlik etdiyi fakültə elmi şurası S.M.Kirov adına Qırmızı Əmək Bayrağı ordenli Azərbaycan Dövlət Universitetinin tarixi adı olan Bakı Dövlət Universiteti adının bərpa olunması haqqında qərar qəbul edib. Həmin vaxtdan universitet öz tarixi adı altında fəaliyyət göstərir. Elə həmin dövrdə Yaqub Mahmudov milli azadlıq hərəkatının mərkəzlərindən biri olan tarix fakültəsinin bir qrup tələbəsinin universitetdən qovulmasının qarşısını alaraq 1990-cı ildə dekan vəzifəsindən istefa verib. Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra 1994-cü ildə dekan vəzifəsinə bərpa olunub. Fakültənin qədim dünya və orta əsrlər tarixi kafedrasının formalaşması da onun adı ilə bağlıdır.

Yaqub Mahmudov 1991–1992-ci illərdə Azərbaycan Respublikasının ilk Təhsil Qanununu hazırlayan ekspert-işçi qrupuna rəhbərlik edib. Onun təqdimatı ilə Milli Məclisdə qəbul olunan qanun əsasında ölkədə müasir təhsil sisteminə keçilib. Müstəqillik dövrünün ilk "Azərbaycan tarixi" və "Orta əsrlər tarixi" dərslikləri onun qələminin məhsuludur.

Görkəmli alim 1992–1993-cü illərdə Azərbaycan Respublikası Ali Attestasiya Komissiyası sədrinin müavini və "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyinin baş direktoru vəzifələrində çalışıb. Sonra düz 7 il AMEA-nın Tarix İnstitutunun direktoru olub. Tarixşünaslıqda ilk dəfə olaraq XV–XVII əsrlərdə Azərbaycanın Avropa ölkələri ilə geniş diplomatik əlaqələr saxladığını, həmin ölkələrlə danışıqlar apardığını və bir çox Azərbaycan diplomatlarının adlarını üzə çıxarıb, fəaliyyətlərini açıqlayıb, bu sahədə elmə mühüm yeniliklər gətirib.

Akademik Yaqub Mahmudov Azərbaycanın diplomatiya tarixi, Azərbaycan və ümumdünya tarixinin ayrı-ayrı dövrlərinə dair 1000-dən çox monoqrafiya, kitab, dərslik, dərs vəsaiti, elmi, elmi-publisistik məqalə və s. nəşrlərin müəllifidir. O cümlədən, "Öyrənilməmiş səhifələr", "Səyyahlar Azərbaycana gəlir", "Odlar yurduna səyahət", "Səyyahlar, kəşflər, Azərbaycan", "Azərbaycanın Avropa ölkələri ilə əlaqələri", "Ağqoyunlu və Səfəvi dövlətlərinin Qərbi Avropa ölkələri ilə qarşılıqlı əlaqələri (XV əsrin II yarısı–XVII əsrin əvvəlləri)", "Azərbaycan diplomatiyası (XV–XVII əsrlər)", "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti", "Heydər Əliyev ideyalarının zəfər yürüşü", "Heydər Əliyev" (həmmüəllif, 2 cilddə), "İlham Əliyev və Azərbaycan tarix elmi", "Azərbaycan Respublikasının tarixi" (həmmüəllif, 2 cilddə), "Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları", "Real tarix və "böyük Ermənistan" uydurması", "Saxtakarların yalançı elmi, yaxud ermənisayağı "tarix" kimi fundamental monoqrafiyaların və başqa kitablarını çap etdirib. Qarabağ, Naxçıvan və İrəvan tarixinə dair Dövlət mükafatına layiq görülmüş fundamental əsərlərin müəlliflərindən biri və naşiridir. İkicildlik "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"nın baş redaktorudur. 15 cildlik "Seçilmiş əsərləri" çapdan çıxıb. Əsərləri ölkə xaricində (Moskva, London, Vaşinqton, Nyu-York, Ankara, İstanbul, Budapeşt, Buxarest, Varşava, Kiyev, Roma, Qahirə, Seul, Mexiko, İslamabad, Los Anceles və başqa şəhərlərdə) nəşr olunub.

Azərbaycanda yüksək ixtisaslı tarixçi kadrların yetişdirilməsində mühüm rol oynamış akademik elmi rəhbərliyi ilə 65 nəfər fəlsəfə və elmlər doktoru yetirib. O, uzun illərdir Tarix İnstitutunda "Vətən tarixi", "Ümumi tarix" və "Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları" üzrə ixtisaslaşdırılmış dissertasiya şuralarına rəhbərlik edir. Habelə diplomatiya tarixi, itirilmiş torpaqlar, soyqırımları tarixi elmi istiqamətləri sahəsində yaratdığı elmi məktəblərə və "Azərbaycan tarixi ilk mənbələrdə" layihəsini yönləndirir.

Akademik Yaqub Mahmudov Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü (2019), Rusiya Federasiyası Dağıstan Respublikasının Əməkdar elm xadimi, Lütfi Zadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının həqiqi üzvü, Oksford Akademik Birliyinin fəxri professoru (2019) və digər çoxsaylı fəxri adlara və mükafatlara layiq görülüb. Avropa Təbiət Elmləri Akademiyasının (ATEA) Beynəlxalq Mükafat Komitəsinin 2022-ci il 23 dekabr tarixli qərarı ilə "Fenomen" ("Leonardo da Vinçi") ordeni və "Avropada ilin alimi" beynəlxalq mükafatı ilə təltif olunub. Onun tərcümeyi-halını, həmçinin 7 beynəlxalq akademiyanın, o cümlədən İtaliyanın Beynəlxalq İqtisadi və Sosial Elmlər Akademiyasının, Avropa Təbiət Elmləri Akademiyasının, İtaliyanın Bonifasiana Akademiyasının həqiqi üzvü adları, ATEA-nın "Qotfrid Vilhelm Leybnits" medalı və "Fəxri Legion" ordeni bəzəyir.

Hörmətli ziyalımız, görkəmli alim, akademik Yaqub Mahmudova Azərbaycan elminin tərəqqisi naminə çalışmalarında və ictimai fəaliyyətində yeni uğurlar arzulayırıq!

**Ə.ƏLİYEV**
**XQ**

Elmi-ədəbi düşüncə

**Çağdaş ədəbi tənqidçimizin istedadlı simalarından biri də Cavanşir Yusiflidir. Araşdırmaları, yazıları həmişə maraqla qarşılanır, aktuallığı ilə seçilir. Onun "Müasir roman necə olmalıdır?" sualına cavabını oxucularımızın diqqətinə təqdim edirik.**

# Günün romanı – Zamanın səsi



Başlanğıcda qurğu kimi gələr sənə, sonra özünü ona çox yaxın bilərsən, bir az da... artıq personajların yanı başındasan, onlar səni görməsə də, sən görür, qəlb döyüntülərindən hər şeyi bilirsən... Bilsən də, hər şeyi bilməmiş kimi düşünərsən, bax, indi mənim əvvəldən sonadək bildiyim süjet dəyişəcək, onun hər an dəyişmə ehtimalı nəfəsini açar, oxuduqca bitməz, bitdikcə yenidən başlar, başqa bir romanın içində... Dünya özü boyda gözləntiyə dönər...

Dünyanı özü boyda gözləntiyə qovuşduran nəsnə nədir? Bədii mətndə gizli-aşkar bilinən, mətnin dibinə çöküb üzünə çıxan səs – müəllifin səsi. Müəllifin nəfəsindən qopan səs bədii mətnin bətnində sözə yox, ecaza dönər, heç zaman söz, cümlə, fraqment şəklində peyda olmaz, önə çıxmaz. Bədii mətnin dərinliyini, dərinlik ölçüsünü də bu səs müəyyənləşdirər. Elə mətnlər var ki, o səsi daim səthdə hiss edərsən, sudan (mənadan) yüngül olduğuna görə heç zaman əlini dərinliyə toxundurmaz, beləcə, üzdə qalmaqla sənə, sadəcə, əhvalatı nəql edər. Ancaq elə mətnlər də var ki, səs, həmin izaholunmaz ecaz, sadəcə, batıb-çıxar, gözünə görünməyi, duyğularına toxunmağı ilğım olar. Dərinə batıb yox oldumu, Qıratın sehrli suyun içindən bütün vücudu ilə çıxdığını sanarsan. Ona görə də bu tip mətnlərdə nağıl aləmindən nələrsə var, həm də tamın, bütövün cövhəri kimi...

Bir faktor yüzdə-yüz həqiqətdir. Bədii əsərdə, ayrıca nəsr mətnlərində müəllifin səsini əvvəl-axır tanıyırıq, bu məsələ 2 səviyyədə gerçəkləşə bilər:

1. Müəllif təhkiyəçi rolunda çıxış edəndə.

2. Nitq səviyyəsində, verbal olaraq.

Təhkiyəçi rolunda çıxış edən müəllif özünü gizlətməyə məcburdur, çünki ilk atacağı addım başqalaşmaqdır. Hər şeyə şahidlik eləsə də, o, özü deyil, hadisəni nəql edəndir, görüb duyduğunu müşahidəçi, neytral "mən" kimi qeydə alıb çatdırır. Dilimizdə yazılan bədii nəsr nümunələrində 2-ci hal bir sıra çox maraqlı nüanslarla önə çıxır. Məkan dəyişmir, müəllif hər dəfə eyni məkanın ən dərində olan nöqtələrinə toxunur, bu toxunuşun özü səs deməkdir, həm də daxili səs. Məkan kəşf olunduqca, müəllif də bir kateqoriya kimi aşkarlanır. Fotosintez. Lentdən təsvirin alınması üçün məkan zil qaranlığa bürünməlidir. Bu halda, müəllif hissə-hissə, fraqmentlərlə yox, elə bari başdan, bir bütöv kimi üzə çıxır. Hermenevtik dairə anlayışında olduğu kimi, hissə tama münasibətdə və əksinə vizualllaşır.

Müəllifin səsi əsərdə dəyişdiricilik funksiyasına malikdir. Bəzi mətnlərdə bu səs, ancaq və ancaq bir tək məkanın başına dönüb-dolaşır, ona görə də bir dəfə açdığı, bir dəfə toxunduğu sirrin yan-yörəsinə dolanmaqdan usanmır. Məsələn, Folknerin Yaknopatofası kimi. Burada əsas olan "hörgü" prinsipidir, əsərin bütün laylarını, bütün fraqment və qatlarını saran, gəzib-dolaşan səs özünəməxsus hörgü tipi yaradır. İtalo Kalvino Nizami haqqında necə yazırdı: "...Bu hörgünün toxumaları o qədər zəngindir ki, Qərb ədəbiyyatında uyğun örnək tapmaq üçün təbii ki, orta əsrlərdəki motiv bənzərliklərini və Ariosto ilə Şekspir intibahının zəngin fantaziyasını da adlayıb, daha yüklü barokko tipli əsərlərə baxmalıyıq; amma Marionun "Adonis"i və Basilenin "Pentamerone"si belə Nizaminin təhkiyəsindəki məcaz bolluğu ilə (o qədər zəngindir ki, hər məcazdan, hər obrazdan yeni bir hekayə doğulur) qarşılaşdırılanda kasıb görünür".

Nəsr əsərində müəllifin səsi necə eşidilir? Yaxud necə olmalıdır ki, bu səs yaddan çıxsın və ya eşidilməsin, oxucu mətndən yaradılan mühitin havasını duyub fərqli səs və rənglərin danışığını kəsdirsin? Söhbət, şübhəsiz ki, böyük həcmli nəsr əsərlərindən – romandan gedir. Səhifələrinin az, ya çoxluğuna baxmayaraq, roman böyük bir ərazidir, bu məmləkətdə hər şeyi – bütün səs və rəngləri, ən müxtəlif musiqi alətlərinin səsini, insanların davranış və hərəkətlərini tənzimləmək asan deyildir, ona görə də hər kəs, hər bir nasir roman yazmır və yazmamalıdır, nəsrlə uğraşan hər bir yazıçı elə ilk qələm təcrübələrindən öz gücünü hiss edib, nəyi necə eləməyin düsturunu sövq-təbii duyur.

Nəsr mətnində səs necə eşidilir? Əvvəlcə, onu deyək ki, məsələn, roman ərazisində səs dəyişə bilər, yaxud hökmən dəyişməlidir, müəllifin səsiylə təhkiyəçinin səsi elə bir tezlikdə qarşılaşa bilər ki, əsərlə çatdırılması nəzərdə tutulan mənalar yarıyolda qalar...

Səs süjeti və bütün bədii mətni idarə edir...

Biz oxuduqda həmin əsəri, onun hörüldüyü mənaların hekayətini həmin səs danışır...

**XQ**

# "Sənət əsərlərinə yeni həyat vermək mədəni irsi qorumaqdır"

## *Bərpaçı rəssam Natiq Səfərovla müsahibə*



**Əməkdar rəssam və ali dərəcəli bərpaçı Natiq Səfərov Azərbaycan bərpaçılıq məktəbinin banisi Fərhad Hacıyevin tələbəsi olub. 1980-ci ildən mərhum ustadının yaratdığı Respublika Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzində bu peşənin sirlərini öyrənməyə başlayıb. İndi tanınmış sənətkardır, MDB Bərpaçılar Assosiasiyası münsiflər heyətinə üzv seçilib, özünün çoxlu yetirmələri var.**



**Onunla söhbətimizdə ilk sualımız bərpaçılıq sənətinin xüsusiyyətləri barədə oldu. Rəssam gənclik illərini xatırlayaraq dedi:**

– Hər adam bu sənətdə axıra qədər səbr göstərə bilmir. Əgər onun daxilində seçdiyi sənətə məhəbbət yoxdursa, çətinliyə qatlaşa bilmir və çıxıb gedir. Peşəsinin vurğunu olanlar qalır və inamla irəli gedirlər. Biz o vaxt maddiyyatla maraqlanmırdıq. Düşünürdük ki, əvvəl nəsə öyrənək, sonra yaxşı olar. Amma indi elə gənclər var ki, gələn kimi qazancla maraqlanırlar. Düşünmürlər ki, yaxşı qazanmaq üçün, ilk növbədə, səbrli, dözümlü olmaq lazımdır. Bu sənət çətin və bir qədər də yorucudur. Biz illərlə incəlikləri öyrənib müəllimimizin etimadını qazanmışıq. Fəxrlə deyirik ki, Fərhad Hacıyevin davamçılarıyıq. Bizim də ardıcılımız olan, sənətimizi davam etdirən gənc nəsil yetişib. Yanımda çalışan şagirdlərim 10–12 yaşından mənimlə birgə bu yolda addımlayırlar. Həmişə çalışmışam ki, sənəti mükəmməl öyrənsinlər.

**– Natiq müəllim, bir neçə kəlmə ustadınız haqqında danışardınız...**

– Müəllimim Fərhad Hacıyev anamın dayısı oğlu olub, mən də onun yanında böyümüşəm. Buna görə də Fərhad müəllimin işlədiyi bu emalatxana, bu yerlər mənim üçün əzizdir, doğmadır. O, 1929-cu ildə Şamaxı şəhərində dünyaya gəlib – bu il 95 yaşı tamam olur. Əvvəlcə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini bitirib, sonra Vasili Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunda bərpaçılıq sənətinin sirlərinə dərindən yiyələnib. Hələ tələbəlik illərində 400-dən çox əsəri bərpa edib. O, mənə bacıoğlu kimi deyil, sıradan bir şagird kimi yanaşıb, bəlkə də daha çox tələbkarlıq göstərib. Hər zaman anlatmağa çalışıb ki, peşəkar bərpaçı-rəssam olub, sənət əsərlərinə 2-ci nəfəs vermək, yeni həyat bəxş etmək savab işdir. Çünki bu, mədəni irsi qorumaqdır.

Mən burada sənətin sirlərini öyrənib müvəffəqiyyətlə rəssamlıq məktəbinə qəbul olundum. Artıq yarım əsrə yaxındır ki, bərpaçılıq sənəti mənim ömrümə, günümə yazılıb. Rəngkar kimi də fəaliyyət göstərirəm. Divarda gördüyünüz əsərlərin hamısı mənim öz işlərimdir. Muzeylərdə və Dövlət Rəsm Qalereyasında yaradıcılıq nümunələrim var. Az-çox uğurlarıma görə öncə ustadımın ruhuna borcluyam.

**– Bərpaçı rəssamların işinin başlıca önəmi nədən ibarətdir?**

– Ümumiyyətlə, dünya incəsənətinin incilərini qoruyub saxlamaq, onların qayğısına qalmaq, zədələnmiş əsərləri həyata qaytarmaq bütün dünya bərpaçılarının şərəf işidir. Əgər bərpaçı rəssamlar olmasa, muzeyə gələn insanlar belə gözəl tarixi əsərləri görə bilməzlər. Onlar həmin əsərlərə yeni ruh verib yaşadırlar. Əsər də canlıdır. O da insan kimi istiyə, soyuğa, aldığı xəsarətlərə reaksiya verə bilir. Elə əsərlər var ki, ümumiyyətlə onu hardasa göstərmək mümkün olmur. Məhz bərpaçılar belə sənət nümunələrinə illərini sərf edirlər. Sonra o əsərlər sərgilərdə nümayiş olunur. Bərpaçının mədəniyyətə və incəsənətə verdiyi zəhməti çox adam görmür, daha dəqiq desək, bilmir. Amma bu gün sənət əsərlərimiz dövlət qayğısı ilə ən yüksək səviyyədə təmin olunub. Elə buna görə xarici ölkələrdə də Azərbaycan incəsənətini uğurla təmsil edir, müxtəlif konfranslar, simpoziumlar və tədbirlərin iştirakçısı oluruq.

**– Bərpaçı-rəssam kimi gördüyünüz konkret işlər haqqında nə deyə bilərsiniz?**

– Şəki şəhərində Şəkixanovların saray tipli evi var. Bir ara diqqətdən kənarda qalmış, dağılmışdı. 2013-cü ildə həmin tikili bünövrəsindən tutmuş damına qədər kompleks şəkildə tam bərpa olundu. Binanın yenidən qurulmasında mən də çalışmışam. Orada bəzi elementləri təzədən düzəltmək mümkün deyildi. Ancaq mənim təklifimlə həmin hissələr bərpa olundu. Otaqdakı divar rəsmləri də tam şəkildə bərpa elədik.

Gördüyüm gərəkli, işlərdən biri də 2018-ci ildə olub. Gəncədə Hüsü məscidi var. 2002-ci ildə baş vermiş zəlzələ zamanı binanın bir hissəsi uçulmuşdu. Həmin tikilinin nəzdində Nizami və Puşkin adına kitabxana yerləşirdi. Sonra kitabxananı köçürdülər. Bina baxımsız və qəzalı vəziyyətə düşmüşdü. Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva filarmoniyanın açılışı ilə əlaqədar Gəncədə olarkən sakinlər dövlət başçısına həmin binanın yararsız halda olduğunu demişdilər. Sonra Prezidentin xüsusi tapşırığı ilə binaya baxış keçirilmişdi. Uçqunlar binanı dəhşətli vəziyyətə salmışdı. Kitabxana olan hissənin 80 kvadratmetrə yaxın divarında Toğrul Nərimanbəyovun rəsmi var imiş. Tapşırıq verilmişdi ki, o əsər mütləq oradan çıxarılmalıdır. Təsəvvür edin ki, o boyda əsər divara ştukatur – gips suvaqla bərkidilmişdi. Onu divardan çıxartmaq üçün bir çox yerlərə müraciət olundu. İtalyanlar, türklər və başqaları "bacarmarıq", – deyə bu işdən imtina etdilər. Mənsə boynuma götürdüm. Belə qərara gəldilər ki, şəkli çıxaraq, bərpa edək və Gəncənin mərkəzindəki böyük bir sərgi salonuna köçürək. İnanmazsınız, işlədikcə barmaqlarımızdan qan tökülürdü, hamısı yara olmuşdu. Amma biz əsəri xilas etmək üçün bacardığımızı etdik. Rəsmi divardan hissə-hissə çıxardıq. Bir sözlə, bu gün də vicdanım rahatdır ki, əvəzsiz sənət incisinə yeni nəfəs verdik. Bundan başqa, Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının foyesini, Milli Məclisdəki divar rəsmini də bərpa etmişik. Eyni zamanda, respublikanın bütün rayonlarında olan tarix-diyarşünaslıq muzeyləri, rəsm qalereyaları ilə sıx əlaqəmiz var və oralardakı əsərlərin də bərpası ilə məşğul oluruq. 1980-ci illərin əvvəllərində bütün muzeylərdəki nadir eksponatların siyahısını tutmuşuq. O vaxtdan bu sxemlə işləyirik.

**– Bərpaçı rəssamlar həm də, sanki, bir ekspert kimi gördükləri işin mahiyyətini dərk etməlidirlər...**

– Doğrudur. Tutaq ki, sənətşünas hansısa əsərə baxır, onun kim tərəfindən çəkildiyini, janrını, formasını və s. müəyyən edir. Bizdə isə fərqlidir. Xüsusi rentgen şüaları var. Həmin qurğu vasitəsilə əsərin texnologiyasını, xarakteristikasını aşkar edirik. Bəzən mənim qabağıma 5 dənə mis qab qoyurlar ki, hər biri haqqında məlumat verim. Baxıb deyirəm bunu Lahıc ustaları düzəldib, o biri XIX əsrin sonuna aiddir və s. Təəccüblə bunları haradan bildiyimi soruşurlar. Deyirəm ki, metalın rəngindən, çünki Lahıcda daha çox mis qablar düzəldilir, buna da qalay vurulmayıb, rəngi qırmızımtıldır. Yəni, belə təhlillər bərpaçı-ekspertin işidir. Mənə tez-tez elə ekspert kimi də müraciət edirlər.

**– Natiq müəllim, söhbətimizdən bu qənaətə gəldik ki, əsl sənətkar nadir əsərlərin, eksponatların taleyinə biganə qalmamalıdır. Bu, onun həyat amalı olmalıdır! Sizə maraqlı müsahibə üçün təşəkkür edir və yeni uğurlar diləyirik!**

***Fidan SALMANOVA,***
***Elşən AĞALAROV (foto)***
**XQ**

# Baydenin namizədliyi sual altındadır

(əvvəli 1-ci səhifədə)

"The Wall Street Journal" nəşri sosioloqlara istinad edərək yazır ki, seçkilər yaxınlaşdıqca Amerika vətəndaşlarının daha çox hissəsi artıq Ağ evin hazırkı sahibini millətin gələcək lideri kimi görmək istəmir.

Nəşrin yazdığına görə, amerikalılar Baydenə, təkcə yaşına görə deyil, həm də güclü lider nüfuzuna malik olmadığına görə prezident kimi baxmırlar. Sosioloqlar deyirlər ki, seçicilər arasında ABŞ-ın hazırkı prezidenti haqqında belə mənfi rəyin formalaşmasında onun iqtidarda olduğu dönəmdə buraxdığı səhvlərin rolu az olmayıb.

Jurnalistlər hesab edirlər ki, Baydenin bəzi siyasi qərarları uğurlu olsa da, amerikalılar onu "beynəlxalq səviyyəli dövlət xadimi, millətin ilhamvericisi və danışıqlar ustası" kimi görmürlər. "Baydenin səhvləri ona qarşı münasibətin formalaşmasına, əvvəlki prezidentlərin səhvlərinin onların imicinə təsir etdiyindən daha çox təsir edə bilər. Əlbəttə, təkcə ona görə yox ki, Bayden 81 yaşındadır və ölkənin ən yaşlı prezidentidir, həm də ona görə ki, o, güclü lider obrazı yaratmayıb və seçicilərlə emosional ünsiyyət qura bilməyib".

Amma məsələ bununla bitmir. Yanvarın 10-da məlumat yayılmışdı ki, Baydenin 2017–2020-ci illərdə şəxsi ofis kimi istifadə etdiyi analitik mərkəzdə onun vitse-prezidentlik dövründən qalan məxfi sənədlər aşkarlanıb. Amerika mediasının yaydığı məlumata görə, tapılan sənədlər arasında Ukrayna, İran və Britaniya ilə bağlı ABŞ kəşfiyyatının bəzi məruzə qeydləri və brifinq materialları da olub. Amerika lideri bəyan edib ki, tapılmış sənədlər onun üçün gözlənilməz haldır və təhqiqatla əməkdaşlığa hazırdır.

Çox keçmədi ki, siyasətçinin köməkçiləri onun Deliverdəki evindən də məxfi sənədlər aşkar etdilər. Onların sayı və məzmunu açıqlanmadı. Yanvarın 12-də Ədliyyə Nazirliyi Baydenin evində və keçmiş ofisində "məxfi sənədlərin qanunsuz saxlanılmasını" araşdırmaq üçün Merilend ştatının keçmiş federal prokuroru Robert Huru xüsusi prokuror təyin etdi.

Baydenin dövlətə məxsus məxfi sənədlər saxlaması ilə əlaqdar aparılan təhqiqatdan sonra xüsusi prokuror Hurun hazırladığı 345 səhifəlik hesabatda ABŞ prezidenti "yaxşı niyyətli, yaddaşı pis olan yaşlı adam" adlandırılıb, lakin haqqında cinayət işi qaldırılmasına lüzum görülməyib. Hesabatda deyilir ki, müstəntiqlərlə ünsiyyətdə olarkən Bayden oğlunun ölüm tarixini belə xatırlaya bilməyib. Təhqiqat zamanı ABŞ Prezidenti ədəbsiz ifadələr işlətməklə bu xəbərə mənfi reaksiya verib. O, hətta prokurorun onun oğlunun ölümü ilə bağlı mövzuya toxunmasına cəsarət etməsindən hiddətlənib.

"The Wall Street Journal" qəzeti vurğulayır ki, xüsusi prokuror Robert Hurun sözügedən hesabatı Ağ evin də hiddətinə səbəb olub. Demokratlar Partiyasının narazılığına Baydenin seçki kampaniyasının gələcəyi ilə bağlı qorxu səbəb olub.

Xüsusi prokurorun hesabatından dərhal sonra Co Bayden xalqa əvvəlcədən elan olunmamış müraciətlə çıxış edib. Prezident onun yaddaş problemləri ilə bağlı sözlərin yer aldığı xüsusi prokurorun hesabatını kəskin şərh edib və bildirib ki, yaddaşı yaxşıdır və məsləhətə ehtiyacı yoxdur.

Bayden qəzəblə deyib: "Mən nə etdiyimi bilirəm. Mən... bu ölkəni ayağa qaldırdım. Onun tövsiyələrinə ehtiyacım yoxdur".

Demokratların prezidentliyə namizədlərinin şansını sual altında qoyan təkcə bu insident deyil. Bu ərəfədə respublikaçıların keçmiş namizədi, amerikalı siyasətçi Vivek Ramasvami X sosial şəbəkəsindəki səhifəsində açıqlama verib ki, Co Baydenin yerini ABŞ-ın keçmiş birinci xanımı Mişel Obama tutacaq. O, yazıb: "Bayden Demokratların namizədi olmayacaq. Mişel Obamaya hazırlaşın".

Siyasətçinin sözlərinə görə, Bayden seçkilərdə iştirak edə bilməz, çünki ABŞ Ədliyyə Nazirliyi onun məxfi sənədlərlə düzgün davranmaması barədə hesabat yayıb. O, "bu faktın Baydenin prezidentliyə namizəd olmasına mane olduğunu" vurğulayıb və bildirib ki, buna görə də Demokratlar Partiyası Baydeni prezidentlik yarışından kənarlaşdıracaq.

Yeri gəlmişkən, bundan əvvəl Ramasvami Baydeni Ukrayna bayrağının rənglərinə uyğun qalstuk taxdığına görə ələ salmışdı. O qeyd etmişdi ki, Amerika prezidentindən fərqli olaraq hətta Ukrayna lideri belə qalstuk taxmır və bu, onların münasibətlərinin xəstə psixologiyasına dəlalət edir.

"New York Post" qəzeti sanki bütün bunların təsdiqi kimi yazır: "ABŞ-ın keçmiş prezidentləri Barak Obama və Donald Trampın şəxsi həkimi, Nümayəndələr Palatasının üzvü Ronni Cekson bildirib ki, Co Bayden "prezidentliyə namizədliyini irəli sürməzdən əvvəl bir sıra sağlam düşüncə sınaqlarından keçməlidir".

Cekson Baydenin bir yox, bir neçə yoxlama testindən keçməsinin vacib olduğunu vurğulayıb: "Onun obyektiv, sənədləşdirilmiş bir sıra koqnitiv testlərdən keçməsinə və nəticələrin onun həkimi tərəfindən Amerika xalqına çatdırılmasına ehtiyacı var".

Bununla belə, həkim Cekson Baydenin alzheimer xəstəliyindən əziyyət çəkdiyinə inanmadığını da vurğulayıb və qeyd edib ki, Amerika liderinin problemləri onun yaşı ilə bağlıdır. Baydenin unutqanlığı və sayıqlamaları o deməkdir ki, o, "ABŞ-ın nüvə silahlarına cavabdeh olmamalıdır, həmçinin bütün dünyada insanların taleyinə təsir etməməlidir".



Bunlar kifayət qədər tutarlı arqumentlərdir və yəqin ki, həqiqətən, Demokratlar Partiyasının elitası bütün bunları nəzərə alaraq yeni namizəd haqqında düşünməli olacaq.

Respublikaçıların namizədi Donald Trampa gəldikdə isə, onun da problemlərinin olmadığını söyləmək doğru olmazdı.

Xatırladaq ki, bir neçə ay əvvəl Trampın rəqibləri onu seçkidən kənarlaşdırmaq üçün bəhanələr axtarmağa başladılar. Daha sonra Amerika Konstitusiyasının 3-cü maddəsinin 14-cü düzəlişi əsasında eks-prezidenti seçkidən kənarlaşdırmaq kampaniyası geniş vüsət almağa başladı. Bu düzəliş vətəndaş müharibəsindən sonra qəbul edilib. O, qanuni hakimiyyətə qarşı hər hansı üsyanı dəstəkləyən şəxslərin yüksək vəzifə tutmasını qadağan edir. Lakin bu sənədin müxtəlif şərhləri ilə əlaqədar olaraq, düzəlişin eks-prezidentə şamil olunub-olunmaması prinsipial suallar yaradır.

Ümumilikdə, 2023-cü ilin fevral ayından etibarən Trampı seçkidən kənarlaşdırmaq üçün 34 ştatın məhkəmələrində iddialar qaldırılıb. Amerika ştatlarında müxtəlif yurisdiksiyaların əksər məhkəmələri Donald Trampın əleyhdarlarının arqumentlərini kifayət qədər inandırıcı saymayıb. Bununla belə, Kolorado Ali Məhkəməsi gözlənilmədən dekabrın 19-da qərar veib ki, Trampın prezident vəzifəsini tutmaq hüququ yoxdur və o, yerli praymerizlərdə iştirak edə bilməz. Buna görə də prezident seçkilərində onun adı ştatın bülletenində yer almayacaq. Hakimlər belə nəticəyə gəliblər ki, Tramp Baydenin prezident kimi təsdiqlənməsinin qarşısını almaq üçün 6 yanvar 2021-ci ildə tərəfdarlarını Kapitoliyə hücuma sövq etməklə "qiyam qaldırıb". Eyni zamanda, hakimlər "naməlum əraziyə ayaq qoyduqlarını" etiraf edərək, ABŞ Ali Məhkəməsində məsələyə baxılana qədər qərarlarını dayandırıblar. Lakin Trampın vəkilləri 14-cü düzəlişin üçüncü maddəsinin ona qarşı tətbiqinin mümkün olmadığını ciddi arqumentlərlə əsaslandırırlar.

ABŞ Ali Məhkəməsi bir neçə gündür ki, bu məsələni araşdırır. Çox güman ki, məhkəmə Trampın Koloradoda seçkilərdə iştirak hüquqlarını bərpa edəcək və ondan sonra bu məsələ bütün digər ştatlarda avtomatik olaraq gündəmdən çıxarılacaq. Cümə axşamı hakimlər qiyama təhrik ittihamlarına birbaşa toxunmayıb, işin digər aspektlərini müzakirə ediblər. Məsələn, baş hakim Con Roberts belə fikirdədir ki, "əgər Koloradonun mövqeyi dəstəklənərsə, çox sayda ştatlar belə deyə bilər: Demokratların namizədi kim olursa-olsun, siz seçki bülletenindən çıxarılmısınız. Digərləri isə respublikaçı namizədi qəbul edib deyəcəklər ki, sən seçki bülletenindən çıxarılmısan". Məhkəmənin digər üzvü Brett Kavano deyib ki, demokratik prinsiplər hakimlərə ABŞ Konqresi tərəfindən verilmiş səlahiyyətlər olmadan hər hansı prezidentliyə namizədi kənarlaşdırmağa imkan vermir. Bu artıq ciddi arqument sayıla bilər.

Məhkəmə iclasında Koloradodan olan altı seçicini təmsil edən və Trampı seçkidən kənarlaşdırmaq üçün məhkəməyə müraciət edən Ceyson Mürrey israrla deyib: "Məhz eks-prezident amerikalıları səsvermə hüququndan məhrum etməyə çalışırdı və burada söhbət qeyri-adi vəziyyətdən gedir. Seçkidən kənarlaşdırmaq qaydası 150 il ərzində fəaliyyətsiz qalıb. Bu da yanvarın 6-da baş verənlərə bənzər bir şey görməməyimizi göstərir... Konstitusiya imkan vermir ki, ona (Trampa- XQ) daha bir şans verilsin".

Buna baxmayaraq, Kolorado məhkəməsinin qərarına etiraz edən eks-prezidentin müdafiəçisi Conatan Mitçel də texniki arqumentlərə diqqət çəkib. Onun sözlərinə görə, qiyam və ya qiyamda iştirak etmiş keçmiş məmurların dövlət vəzifəsi tutmasını qadağan edən düzəliş 45-ci prezidentə şamil edilmir. Bundan əlavə, o, təkidlə bildirib ki, ştatların Konqresin icazəsi olmadan bu qaydanı tətbiq etmək səlahiyyəti yoxdur.

Birbaşa yanvar hadisələri ilə bağlı verilən suala cavab olaraq C.Mitçel deyib ki, konstitusiya standartlarına görə bunu çətin ki, çevriliş cəhdi hesab etmək olsun. "Çevriliş, ABŞ hökumətini zorakılıq yolu ilə devirmək üçün mütəşəkkil və birgə səy tələb edir... Hadisələr biabırcasına, cinayətkarcasına, qəddarcasına və s. törədilib, lakin bunu, qiyam, üsyan kimi qiymətləndirilmək olmaz", – deyən vəkilin sözlərinə görə, Tramp tərəfdarlarının Kapitoliyə hücumuna görə məsuliyyət daşımır.

Qərar son nəticədə Donald Trampın xeyrinə verilərsə, bu, bir sıra oxşar iddialara son qoyacaq. Məsələn, cənab Trampın səsvermə hüququna qadağa qoyulmuş Men ştatında da. Bu qərarın icrası da ABŞ Ali Məhkəməsi tərəfindən müvafiq qətnamənin qəbuluna qədər təxirə salınıb.

Haqqında bəhs etdiyimiz ABŞ Ali Məhkəməsinin cümə axşamı keçirilən iclası, çox güman ki, bu il eks-prezidentin adının hallandığı yeganə məhkəmə iclası olmayacaq. Ən azından, ötən çərşənbə axşamı Vaşinqtondakı dairə məhkəməsinin Trampın Ağ evin rəhbəri vəzifəsində işləyərkən törətdiyi iddia edilən cinayətlərə görə prezident toxunulmazlığından məhrum edilməsi qərarından apellyasiya şikayəti verəcəyi gözlənilir. Müvafiq iddialar Trampın 2020-ci il seçkilərində uduzmasına baxmayaraq, vəzifəsini qoruyub saxlamağa çalışmaqda, habelə məxfi sənədləri düzgün saxlamamaqda ittiham edən xüsusi prokuror Cek Smit tərəfindən qaldırıb.

Yeri gəlmişkən, əvvəldə qeyd etdiyimiz kimi, fevralın 9-da prokurorlar prezident Co Baydenə qarşı oxşar cinayətə görə (sənədlərin saxlanması qaydalarına əməl edilməməsi) ittiham irəli sürməmək qərarına gəliblər. Bununla əlaqədar Respublikaçılar dərhal Trampın "siyasi motivli ittihamlarla üzləşdiyini" və "ədliyyə sisteminin ikili standartlarını" tənqid edərək onun oxşar vəziyyətdə olan siyasi rəqibi Co Baydenə qarşı daha xeyirxah davrandıqlarına kəskin münasibət bildiriblər.

***İlqar RÜSTƏMOV***
***XQ***

# Qərb Rusiyanın qələbəsindən niyə qorxur?

## Ukraynanın məğlubiyyəti NATO alyansının zəifliyi ola bilər

**Qərb siyasətçiləri Rusiya ilə mümkün müharibə barədə xəbərdarlıq etməkdə davam edirlər. NATO-nun baş katibi bildirib ki, alyans onilliklər ərzində bitməyəcək "qarşıdurmaya" hazırlaşmalıdır. Norveç və Danimarkanın müdafiə nazirləri də oxşar ritorika ilə çıxış ediblər. Norveçli nazir deyib ki, Rusiyada demokratiyanın qalib gəlmə şansı yoxdur və Qərb dünyası bunu nəzərə almalıdır. Moskva bu iddiaları əsassız hesab edir və hər hansı bir ölkəyə hücuma hazırlaşmadığını bildirir.**



NATO-nun baş katibi Yens Stoltenberq Almaniyanın "Welt am Sonntag" qəzetinə müsahibəsində bildirib ki, Şimali Atlantika Alyansı hərbi istehsalı artırmalı və Rusiya ilə uzunmüddətli qarşıdurmaya hazır olmalıdır: "NATO Rusiya ilə müharibə axtarmır. Amma biz onilliklər davam edə biləcək qarşıdurmaya hazırlaşmalıyıq. Əgər Putin Ukraynada qalib gəlsə, Rusiya təcavüzünün başqa ölkələrə yayılmayacağına zəmanət yoxdur. İndi ən yaxşı müdafiə Ukraynaya dəstək və NATO-nun hərbi imkanlarına investisiya qoymaqdır". O, Avropa müdafiə şirkətləri üçün daha çox və daha sürətli sifarişlər verməyə çağırıb. Baş katib bazar iqtisadiyyatı olan ölkələrdə silah istehsalçılarının öz fəaliyyətini genişləndirə bilmələri üçün imzalanmış müqavilələrə ehtiyacı olduğunu da vurğulayıb. Yens Stoltenberq, həmçinin bildirib ki, Qərb tez bir zamanda sənaye bazasını yenidən qurmalı və genişləndirməlidir.

Skandinaviya da Rusiya ilə mümkün toqquşmadan narahatdır. Danimarkanın müdafiə naziri Troels Lund Poulsen xəbərdarlıq edib ki, Rusiya yaxın 3-5 il ərzində NATO ölkələrinə hücum edə bilər: "Rusiyanın 3-5 il ərzində 5-ci maddənin gücünü və NATO həmrəyliyini sınayacağını istisna etmək olmaz. ... Bu, indi gündəmə gələn yeni məlumatlardır".

Norveçin müdafiə naziri Byorn Arild Qram də Ukraynada hərbi əməliyyatlar başa çatdıqdan sonra mümkün hərbi münaqişəyə hazırlığa çağırıb. Onun fikrincə, Moskva Finlandiya və İsveçin NATO-ya yeni üzvlüyünə cavab olaraq tədbirlər görə bilər. Norveçli nazir, eyni zamanda, Rusiyanın daxilində demokratiyanın qələbəsi üçün heç bir şəraitin olmadığını vurğulayıb: "Rusiyanın bizim kimi olacağına dair heç bir əlamət yoxdur. Etiraz etməyə çalışan azsaylı ruslar dəmir barmaqlıqlar arxasına atılır və ya müharibəyə göndərilir... Bu yeni Rusiya uzun müddət bizimlə qalacaq". O, Norveçi müdafiə sahəsinə investisiyaları artırmağa çağırıb. Nazir vurğulayıb ki, Norveç ordusu münaqişə vəziyyətində "vaxtında və müttəfiqlərlə birlikdə reaksiya verməyi" bacarmalıdır.

Ancaq Rusiya Qərbin bu iddialarını qəbul etmir. Rusiya Prezidenti Vladimir Putin amerikalı jurnalist Taker Karlsonla müsahibəsində deyib ki, NATO ölkələrinin hakimiyyətləri "vergi ödəyicilərindən daha çox pul qoparmaq" üçün öz əhalisini Rusiya təhlükəsi ilə "qorxutmaq" istəyirlər. V.Putin bildirib ki, Rusiyadan gələn təhlükə xəyalidir, o, "şişirdilir". Kremlin sahibi amerikalı jurnalistin Rusiyanın bütün Avropa qitəsi üzrə ərazi iddiaları ilə bağlı sualına cavabında deyib ki, qlobal müharibəyə cəlb olunmaq sağlam düşüncəyə ziddir: "Qlobal müharibə bütün bəşəriyyəti məhv olmaq həddinə çatdıracaq". Rusiya liderinin fikrincə, Moskvanın Qərb ölkələrinə ərazi iddiaları tamamilə istisna olunur. Bununla belə, V.Putin qeyd edib ki, Varşava birinci hücuma keçərsə, Polşaya qoşun yeridə bilər. Eyni zamanda, Rusiya lideri vurğulayıb ki, Moskvanın nə Polşada, nə də Latviyada marağı var.

Polşanın milli müdafiə naziri və baş nazirin müavini Vladislav Kosiniyak-Kamış buna cavab olaraq bildirib ki, Putinin sözləri nəinki etimad doğurur, əksinə, təşviş yaradır. O, respublikanı "müxtəlif vəziyyətlərə" hazır olmağa çağırıb və heç bir bəyanatın polyakların sayıqlığını dayandıra bilməyəcəyinə ümid etdiyini vurğulayıb.

Almaniyada da müharibə perspektivindən danışırlar. Bundesverin baş müfəttişi Karsten Breuer Almaniyanın beş ildən sonra müharibəyə hazır olması barədə xəbərdarlıq edib. Eyni zamanda, o, bildirib ki, bu, müharibənin mütləq baş verəcəyi demək deyil, lakin vaxtında hazırlaşmaq vacibdir: "Döyüş hazırlığı bizim keçəcəyimiz bir prosesdir. Ancaq bunun üçün vaxtımız sonsuz deyil".

Federasiya Şurasının Beynəlxalq Əlaqələr Komitəsi sədrinin birinci müavini Vladimir Cabarov isə Skandinaviya ölkələrinin iddialarının əsassız olduğunu bildirib. Rusiyalı senatorun fikrincə, "onlar həmişə elə bir situasiya yaratmağa çalışırlar ki, Qərbdə Rusiyadan qorxmağa başlasınlar: "Bütün bunlar bir məqsədlə edilir – ölkələrinin xalqlarının artan hərbi xərclərə praktiki olaraq sakit reaksiya verməsi üçün gərginliyi saxlamaq. NATO ordularını silah və sursatla təmin edən şirkətlər varlanır". Vladimir Cabarovun sözlərinə görə, Norveç və digər Skandinaviya ölkələrinin rəsmiləri də hərbi məhsulların istehsalında "paya malikdirlər", buna görə də vəziyyət onların xeyrinədir.

***S.ELAY***
***XQ***

# Rusiya Aİ-ni güclü saymırmı?

**Macarıstanın Baş naziri Viktor Orban deyib ki, "Avropa İttifaqı (Aİ) kifayət qədər güclü deyil ki, Rusiya onu ciddi qəbul etsin". Məlumatı "Euronews" agentliyi yayıb.**

V.Orbanın sözlərinə görə, bu, təkcə güvən məsələsi deyil: "Bizim problemimiz güc çatışmazlığıdır. Biz avropalılar o qədər güclü deyilik ki, rusiyalılar bizi ciddi qəbul etsinlər. Bu, hakimiyyət ətrafında bir oyundur".

Macarıstanın Baş naziri hesab edir ki, Aİ daha inamlı mövqe tutmalı, güc nümayiş etdirməli və hər iki tərəfin maraqlarını başa düşməyə qadir olduğunu sübut etməlidir: "Yalnız bundan sonra hansısa razılaşma axtarışı mərhələsinə keçmək mümkün olacaq".

# Kral III Çarlzın bədxassəli xəstəliyi

**Xərçəng diaqnozu qoyulan Böyük Britaniya Kralı III Çarlz səhhəti ilə maraqlanan hər kəsə təşəkkür edib. Bu barədə TASS agentliyi məlumat yayıb.**



O vurğulayıb ki, xərçənglə üzləşənlərin hamısı yaxşı sözlərin təsəlli və ruhlandırıcı olduğunu bilir. III Çarlz əlavə edib ki, onun diaqnozunun hekayəsi ictimaiyyətin anlayışını yaxşılaşdırmağa kömək etdi. Böyük Britaniyada və dünyada xərçəng xəstələrini və onların ailələrini dəstəkləyən bütün təşkilatların işinə işıq saldı.

Bundan əvvəl Böyük Britaniyanın Baş naziri Rişi Sunak Kral III Çarlzın xərçəng xəstəliyinə tutulduğunu öyrəndikdən sonra şoka düşdüyünü bildirmişdi. O, xəstəliyin ilkin mərhələdə aşkarlandığı üçün monarxın tez sağalacağına ümid etdiyini söyləmişdi.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 31 (30435) 12 fevral 2024-cü il, bazar ertəsi

# Olimpiya lisenziyaları mübarizəsi

## *Ağırlıqqaldıranlar, növbə sizindir!*

**Paris Yay Olimpiya Oyunlarına lisenziya xarakterli son yarışlar bir-birini əvəz etdikcə rəqabət daha da gərginləşir. Bəzi idman növlərində vəsiqə lisenziya xalı ilə müəyyən olunduğuna görə yarışlar tam başa çatdıqdan sonra kimlərin Parisə gedəcəklərinə aydınlıq gələcək.**



Bu gün Bolqarıstanın paytaxtı Sofiyada start götürən ağırlıqqaldırma üzrə Avropa çempionatında qitənin ən iddialı atletləri daha bir şansdan istifadə edəcəklər.

43 ölkədən 400-dən çox idmançının qatıldığı lisenziya xarakterli yarışda Azərbaycan komandasının üzvləri Nazilə İsmayılova (45 kq), İsa Rüstəmov, Tehran Məmmədov (hər ikisi 67 kq), Ömər Cavadov (73 kq), Ravin Alməmmədov, Füqan Əliyev (hər ikisi 81 kq), Nurlan Məmmədzadə (89 kq), Əli Şükürlü (102 kq), Dadaş Dadaşbəyli (109 kq) də güclərini sınayacaqlar. Yığmamız hazırlıq çərçivəsində Türkiyədə yerli komanda, Bakıda isə Özbəkistan yığması ilə təlim-məşqlər keçib.

Kişilərdən ibarət yığmamızın baş məşqçisi Maxtı Makkayev "XQ"yə açıqlamasında komandamızın əsas hədəfinin lisenziya qazanmaq olduğunu bildirdi. O qeyd etdi ki, yığma üzvlərindən İsa Rüstəmov, Ömər Cavadov və Dadaş Dadaşbəyliyə daha çox ümid bəsləyir. Onlardan başqa, Əli Şükürlü, Ravin Alməmmədov, Nurlan Məmmədzadə də güclü potensiala malikdirlər. Qitə çempionatından sonra – aprel ayında idmançılarımız daha bir lisenziya xarakterli yarış olan dünya kuboku turnirində mübarizə aparacaqlar.

Qeyd edək ki, təmsilçimiz Dadaş Dadaşbəylinin adı 2023-cü ilin ən yaxşı kişi ağırlıqqaldıranlarının siyahısına daxil edilib. "Avropanın qızıl 10-luğu" adlı siyahı Beynəlxalq İdman Jurnalistləri Assosiasiyasının (AİPS) Avropa bölümü (AİPS Europe) və Avropa Ağırlıqqaldırma Federasiyası (EWF) arasında imzalanan memorandum çərçivəsində hazırlanıb. Bu idmançılar arasından səsvermə yolu ilə ilin ən yaxşı atleti seçiləcək. Qalibin adı bu gün – fevralın 12-də, Bolqarıstanın paytaxtı Sofiyada keçiriləcək Avropa çempionatının rəsmi açılış mərasimində açıqlanacaq.

Ötən il dünya çempionatının bürünc medalını qazanan D.Dadaşbəyli Avropa çempionatına da qələbə üçün yollanıb:

–Gücümüzdən maksimum istifadə etmək üçün bütün səylərimizi toplamalıyıq. Əsas hədəf lisenziya qazanmaqdır. Hər birimiz qələbə üçün çıxış edəcəyik.

Komandanın üzvü Füqan Əliyev Türkiyədə yaxşı təlim-məşq toplanışı keçdiklərini dedi:

–Avropa çempionatına hazırlığımız yaxşı oldu, istədiyimiz çalışmaları etdik. Özüm barədə deyə bilərəm ki, Vətənə medallarla dönmək istəyirəm. Bütün komanda üzvlərimiz də buna kökləniblər, bunun üçün çalışırlar. Rəqiblərimizi də tanıyırıq, yarışlarda onlarla iştirak edib mübarizə aparmışıq. İnanırıq ki, yaxşı nəticələr əldə edəcəyik.

Qadın ağırlıqqaldıranımız Nazilə İsmayılova da özünə əmindir:

–Komandamız yarışa hazırdır, mən də həmçinin. Özümə qarşı tələbkaram, sona qədər mübarizə aparacağam. İnanıram ki, Vətənə medalla qayıdacağam.

Avropa çempionatı fevralın 20-dək davam edəcək.

***Leyla QURBANOVA***
***XQ***

**Konsert**

# UNİCEF himninin müəllifi Bakıda

**Fevralın 10-da Heydər Əliyev Mərkəzində Stiv Barakattın (Steve Barakatt) "Neoreallıq" dünya turu çərçivəsində konserti keçirilib. Repertuar iki hissədən ibarət olub. Proqrama Barakattın son albomundan, eləcə də əvvəlki illərin ən sevilən əsərləri daxil edilib.**



1973-cü ildə Kanadanın Kvebek şəhərində livanlı ailədə dünyaya göz açan musiqiçi, bəstəkar və prodüser Stiv Barakatt həm klassik musiqi, həm də caz ifa edir. Stiv Barakatt musiqiçi olmaqla yanaşı, həm də BMT-nin Uşaq Fondu – UNİCEF-in xoşməramlı səfiridir. Musiqiçi UNICEF-in himni olan "Laylay"ın müəllifidir. Diqqətçəkən məqamlardan biri də odur ki, bu himn kosmosda da səsləndirilib. Himn üçün uşaq hüquqları ilə bağlı videoçarx da hazırlanıb. Musiqiçi Bakı konsertində həmin mahnını da ifa edib.

Konsert zamanı tamaşaçılarla fikirlərini bölüşən S.Barakatt ölkəmizdə ilk dəfə olduğunu, pərəstişkarları qarşısında sevilən əsərlərini ifa etməkdən məmnunluğunu bildirib.

***XQ***

**Sənət inciləri**

# "Anaların gəncliyi"

**Azərbaycanın Xalq rəssamı, görkəmli fırça ustası Mikayıl Abdullayevin hələ 1950-ci illərdə yaratdığı "Anaların gəncliyi" tablosu ölkəmizin milli rəngkarlıq sənətində xüsusi yer tutur.**

Tabloda yeni dünya ilə ayaqlaşmağa çalışan, öz hüquqlarını başa düşən gənc qadından söhbət gedir. O, tək deyil. Rəssam onun qarşısında daha iki qadın surəti təsvir edib. Üzləri görünməsə



də, onların daha yaşlı olduqları sezilir. Bu, keçmişlə indinin qarşı-qarşıya qoyulmasıdır. Qadın üzünü çevirsə də, oğrun baxışlarla arxaya baxır, bilmək istəyir ki, onun davamçıları olacaqmı?

Qeyd edək ki, güclü və parlaq rənglərin kətan üzərində ahəngdar əksi Mikayıl Abdullayev yaradıcılığının əsas xüsusiyyətlərindəndir. Rəssam bu sənət nümunəsində də sarı, göy, qırmızı kimi güclü və isti rəngləri bir yerdə istifadə etməklə təsirli rəng kompozisiyası yaradıb.

"Anaların gəncliyi" tablosu hazırda Azərbaycan Dövlət Rəsm Qalereyasının kolleksiyasında saxlanılır və nümayiş etdirilir.

***Leyla HADİ,***
***tələbə-jurnalist***

**Sağlamlıq**

# B12-nin azlığı – əhval aşağılığı

**Orqanizmdə B12 vitamininin çatışmazlığı psixoloji problemlərə, depressiyaya, beyin və sinir funksiyalarının zəifləməsinə, yaddaş pozğunluğuna və əl əsməsinə səbəb ola bilər.**



Amerikalı alimlər tədqiqatlar nəticəsində qanda B12 vitamininin azlığı ilə depressiya, demensiya arasında əlaqənin olduğunu sübut ediblər. Bildiriblər ki, çox zaman həkimlər xəstəyə demensiya və depressiya diaqnozu qoyur, lakin B12 defisitinin bu simptomlar altında maskalandığını nəzərə almırlar. Çünki bu zaman xəstədə bilik və bacarıqlar qısa müddətə azalır, bəzən isə itir.

Vurğulanıb ki, B12 vitamini çatışmazlığı və depressiyanın vaxtında diaqnostikası və müalicəsi xəstənin əqli, fiziki bacarıqlarını, həyati keyfiyyətlərinin bərpasına kömək edər.

***Z.HÜSEYNLİ***
***XQ***

**Hava**

# Həftənin ilk günü yağmursuz və arabir dumanlı olacaq



***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, fevralın 12-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir.***

Axşam bəzi yerlərdə duman olacaq. Şimal-qərb küləyi əsəcək, səhər cənub küləyi ilə əvəz olunacaq. Gecə 5-9°, gündüz 11-16° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 765 mm civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 45-55 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 5-10°, gündüz 18-23° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 8-13° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

**Texnologiya**



# "Toyota"nın ilk sürücüsüz taksisi

**Yaponiyanın aparıcı avtomobil konserni "Toyota Motor" 2024-cü ilin yayından başlayaraq Daiba ərazisində sərnişinləri daşıyacaq avtonom taksi xidmətinə başlamaq niyyətindədir.**

"Yomiuri" qəzetinin məlumatına görə, beləliklə, pilotsuz nəqliyyat vasitələrinin ümumi istifadədə olan yollarda bu məqsədlər üçün istifadəsi Yaponiyada ilk dəfə sınaqdan keçiriləcək.

Tokio körfəzinin sahilində yerləşən Daiba ticarət və əyləncə rayonu Tokionun turizm məkanlarından biri hesab olunur. Avtomobil istehsalçısı əvvəlcədən müəyyən edilmiş marşrut üzrə bölgənin qonaqlarına pulsuz nəqliyyat təmin etməyi planlaşdırır.

Daşınma üçün xüsusi sensorlar və yol şəraitinin real vaxt rejimində monitorinqinə və təhlükəli vəziyyətlərin proqnozlaşdırılmasına imkan verən süni intellekt texnologiyası ilə təchiz edilmiş "Toyota Sienna minivenі"ndən istifadə olunacaq.

***XQ***

# Saturn buzları altında okean?!

**Saturnun Mimas peykinin buzla örtülmüş səthinin altında böyük bir okean ola bilər. "Nyu York Times" qəzeti xəbər verir ki, alimlər Saturnu və onun peyklərini 10 ildən çox tədqiq edən ABŞ-ın Milli Aeronavtika və Kosmik Tədqiqatlar İdarəsinin (NASA) "Cassini-Huygens" kosmik gəmisinin elmi nəticələrini müzakirə ediblər.**

Planetdəki dəyişiklikləri də təhlil edən tədqiqatçılar Mimasın buzla örtülmüş səthindən 20-30 kilometr aşağıda böyük okean ola biləcəyini qeyd ediblər. Tədqiqatın təfərrüatları "Nature" jurnalında dərc olunub.

***Anar ƏLİ***
***XQ***

**ALLAH RƏHMƏT ELƏSİN**

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun baş direktoru, professor Nadir Məmmədli ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Hüseynova anası

NAZLI XANIMIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimliyə anası

MƏSMƏ XANIMIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3449
SİFARİŞ 290
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00